www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 oktyabr 2014-cü il Çərşənbə № 260 (5969) Qiyməti 40 qəpik

**Xəbər**

## Azərbaycanda siqaret iki dəfə bahalaşa bilər

yazısı səh.2-də

**Gündəm**

### Erməni-fars dostluğunun qorxunc uzantıları... - şərh



İranın işğalçı ölkəyə illərdir qucaq açması təkcə Qarabağ probleminin həllini əngəlləmir, bölgədə ədalətli sülhü və tərəqqini də əlçatmaz edir...

yazısı səh.8-də

### Bu gün hüquq müdafiəçiləri AŞ təmsilçiləri ilə görüşəcəklər

yazısı səh.3-də

### Avropa İttifaqı Azərbaycan prezidentinin əfv sərəncamını alqışlayıb

yazısı səh.4-də

### Rəsul Cəfərovun prezidentə müraciəti ona niyə kömək etmədi?

yazısı səh.3-də

### Dövlət Departamentinin nümayəndəsi Bakıda KİV rəhbərləri ilə görüşdü

yazısı səh.2-də

### Müsavat funksionerlərindən partiya rəhbərliyinə sərt mesajlar...

yazısı səh.6-də

### Prezidentlərin Paris görüşü ərəfəsində düşmən təxribatları

yazısı səh.9-də

### Müxalifət bələdiyyə seçkilərində iştirak strategiyasını açıqladı

yazısı səh.10-də

### Ermənistandan Azərbaycana qorxulu virus daşıyıcısı olan mal-qara göndərilir

yazısı səh.13-də

### Tikinti şirkətlərinin ağlagəlməz fırıldağı

yazısı səh.10-da

### Hacıqabulda ər arvadını xəstəxanada qətlə yetirdi

yazısı səh.14-də

### AXCP-dən daha bir istefa

yazısı səh.2-də

### Beyləqanda iki bacını maşın vurdu; biri öldü

yazısı səh.14-də

## Qorxunc xəstəliklə bağlı həyəcanlı xəbərdarlıq

# BƏYLƏR ƏYYUBOVUN BİZNESİNƏ EBOLA ZƏRBƏSİ

Ölkənin baş pediatrının açıqlaması generalın biznesinə itkilər yaşada bilər; Afrika ölkələrində yetişdirilən bananda öldürücü virusun olmasına dair deyilənlər iqtisadi mafiyaların bir-birinə qarşı savaşı da ola bilər; şayiə artıq işini görüb - alıcılar tərəddüd içində, satıcılar isə narahatdır




yazısı səh.11-də

## Deputatın tutdurduğu gözətçinin qohumlarından şok açıqlamalar

"Karat" holdinqdəki müdhiş oğurluqla bağlı keçirilən mətbuat konfransında sensasion faktlar səsləndirildi; Əsabil Qasımovun oğlunun və digər qohumlarının adları hallanan mənimsəmələrlə bağlı qarşı tərəf açdı sandığı, tökdü pambığı; millət vəkili on milyonlarla manat vergidən yayınmaqda suçlandı

yazısı səh.5-də



### Ziya Məmmədovun taksi biznesi çökür

yazısı səh.3-də



### "Total" prezidentinin müəmmalı ölümü

yazısı səh.12-də



*Qubad İbadoğlu:*

### "Onlar başa düşmürlər ki, mənim tərəfdarlarım partiyadan kənarlaşsa..."

yazısı səh.8-də

YENİ MÜSAVAT
N 260 (5969) 22 oktyabr 2014

## Ramil Usubov və Kəmaləddin Heydərov Qətərdə saziş imzaladılar



**Azərbaycan və Qətər "Milipol Qətər 2014" Beynəlxalq Dövlət Təhlükəsizliyi Sərgisi çərçivəsində təhlükəsizlik əməkdaşlığına dair iki saziş imzalayıb.**

Bu barədə "Trend" Qətər KİV-nə istinadən xəbər verir. Məlumata əsasən, ilk saziş Azərbaycanın daxili işlər naziri Ramil Usubov və Qətərin İctimai Təhlükəsizlik İdarəsinin rəisi Saad bin Casim əl-Xuleifi tərəfindən imzalanıb. Sənəd narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə, polislər üçün təlimlərin keçirilməsi və məlumat mübadiləsini nəzərdə tutur.

İkinci saziş Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Qətərin Daxili Təhlükəsizlik Qüvvələri İdarəsinin rəisi Briqadir Fahad Raşed əl-Əli tərəfindən imzalanıb. Sənəd təhlükəsizlik təlimlərinin və məlumat mübadiləsinin artırılması, həmçinin Qətərin daxili təhlükəsizlik qüvvələri üçün yüksəksəviyyəli təlimlərin keçirilməsini nəzərdə tutur.

## Bələdiyyə seçkiləri dekabrın 23-də keçiriləcək

**Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında bələdiyyə seçkilərinin təyin edilməsi məsələsi müzakirəyə çıxarılıb. APA-nın məlumatına görə, MSK sədri Məzahir Pənahov deyib ki, son bələdiyyə seçkilərində 1718 bələdiyyə seçkilər keçirilib.**

M.Pənahov bildirib ki, bələdiyyə üzvlərinin səlahiyyəti dekabrın 23-də başa çatır və növbəti seçkilər təyin edilməlidir.

MSK sədri bildirib ki, son illər kiçik bələdiyyələrin birləşməsi prosesi gedib, hazırda 1607 bələdiyyə var.

M.Pənahov deyib ki, bələdiyyə seçkilərinin keçirilməsi üçün dekabrın 23-ü ən məqbul vaxtdır.

MSK qərara alıb ki, növbəti bələdiyyə seçkilərinin 2014-cü il dekabrın 23-nə təyin edilsin.

## Ağdaşda toyda dava düşdü; 1 nəfər öldü

**Ağdaşda toy yasa çevrilib. DİN-in rəsmi saytında yerləşdirilən xəbərdə bildirilir ki, oktyabrın 20-də saat 22 radələrində Ağdaş rayonunun Qarağan-Şıxlar kəndində keçirilən toy məclisində Rusiya Federasiyası vətəndaşı Ərəstun Əşrəfli münaqişə zəminində kənd sakini İsgəndər Umarova bıçaqla xəsarət yetirib hadisə yerini tərk edib.**

Xəstəxanaya yerləşdirilən İ.Umarov ölüb.

Rusiyaya qaçmaq üçün Bakıya gedən Ərəstun Əşrəfli polis əməkdaşları tərəfindən isti izlərlə tutularaq Ağdaşa gətirilib və istintaqa təhvil verilib.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 120-ci maddəsi (qəsdən adam öldürmə) ilə cinayət işi başlanılıb.

## "Coca-Cola" İŞİD terrorçularına dəstək verdi




**FaktXəbər-in məlumatına görə, uzun illərdir sionizmə dəstək verməsi ilə ad çıxarmış "Coca-Cola" daha bir sensasiyaya imza atıb. Belə ki, firma yeni istehsal etdiyi məhsulların üzərinə İŞİD terrorçularının ingiliscə adı olan "İSİS" sözünü vurub.**

Bununla bağlı açıqlama verən şirkətin satış meneceri Cen Stamois bildirib ki, "biz nə terroru inkat etmirik, nə də İslam Dövlətinə qarşı son kampaniyanı dəstəkləmirik. Biz sadəcə olaraq "Coca-Cola"nı "İSİS"lə paylaşmaq istədik. Düşünürük ki, dinlər arasında hər zaman sülh və xeyirxahlıq üçün şans var".

Dünyaca məşhur bir firmanın terrora dəstək verməsini bu cür ustalıqla ört-basdır etməsi yəqin ki, gülüş doğurur. Çünki başkəsən terrorçuların əməllərini din adına bağlayıb, onları terror təşkilatını İslam məzhəbi kimi təqdim edirlər.

### Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Azər Qaramanlıya**
**anasının**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Nizaməddin Quliyevə**
**qızının**
**vaxtsız vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

# AXCP-dən daha bir istefa

## İslam Mahmudov: "O cür təşkilatı indi kimlərin idarə etməsi çox acınacaqlıdır"



**AXCP üzvü, Qarabağ veteranı İslam Mahmudov təmsil olunduğu partiyadan istefa verib. O, sosial şəbəkədə yaydığı bəyanatda istefasının səbəblərinə toxunub.**

**Bəyanatda deyilir:**

"1989-cu ildən AXC-nin üzvü olmuşam. Mən bu təşkilatın sıralarına torpaqlarımızın qorunması və ölkəmizin müstəqillik qazanması üçün qoşulmuşdum. Qarabağ müharibəsinin könüllü iştirakçısı olmuşam. Qubadlının erməni təcavüzündən qorunmasında, Laçın rayonun Ermənistanın işğalından azad olunması uğrunda gedən döyüşlərdə yaxından iştirak etmişəm.

Bu gün AXCP-nin rəhbərliyinə daxil olan bir çox şəxslərin cəmiyyətin müxtəlif təbəqələrinə qarşı uğursuz savaş açdıqlarını müşahidə edirəm. AXCP sədri bütün bu yersiz kampaniyalara göz yumursa, o zaman cəmiyyətdə şübhə yaranır ki, kampaniyanın başında şəxsən özü dayanır. Sanki bu partiya məğlubiyyətinin qısasını xalqdan almaq iddiasındadı. Azərbaycanda şərəfli siyasi keçmişi olan bir partiyanın bu cür çirkin kampaniyada yer almasına etiraz olaraq AXCP sıralarından çıxdığımı bəyan edirəm. Onu da əlavə etməyi borc bilirəm ki, kimsə mənim AXCP üzvü olmamağım barədə cəfəng iddiayaya düşməyə cəhd etməsin. Bunun şahidi olan bütöv bir rayon şöbəsi var. Sonuncu prezident seçkisi zamanı bu partiyanı məntəqə seçki komissiyasında təmsil etmişəm. Bu addımımla bağlı tənqidləri saygı ilə qarşılayacam. Amma onu da deyim ki, hər hansı təhqir olacaqsa, bunu edənlər beş qatını öz payına hər biri alacaq".

**İ.Mahmudov istefasının səbəbləri barədə musavat.com-a açıqlama verib:** "Çoxdan partiya daxilində baş verən prosesləri müşahidə edirdim. Bu gün qərara gəldim ki, artıq orada yerim yoxdur. Başqa partiyaya keçmək fikrim yoxdur. Hazırda olan partiyalardan. Hazırda AXCP-də cılız bir kampaniya gedir. Kim çıxırsa, satqın damğası vurulur, söyülür. Bəs o zaman başqa partiyadan istefa verənləri niyə qəbul edirsiniz? Konkret bax bu cılız təfəkkürə, söyüşlərə görə istefa verdim. O cür təşkilatı indi kimlərin idarə etməsi çox acınacaqlıdır".

**Son iki gündə bu, AXCP-dən istefa verən ikinci adamdı. Bundan əvvəl isə Əli Kərimlinin müşaviri, Qarabağ qazisi, Füzuli rayonunun sabiq icra başçısı Şakir Abbasov AXCP-dən istefa verib. Hər iki şəxs istefalarına səbəb kimi Əli Kərimlinin müxalifət daxilində çaxnaşma yaratmasına göstərib.**

❑ **Cavanşir ABBASLI**

## Azərbaycandan mühacir axını...

### Siyahıda xeyli tanınmış insanın adı var

**Son günlər Azərbaycanın tanınmış media nümayəndələri, ictimai-siyasi xadimləri arasında ölkəni tərk edənlərin sayı artıb. Onların əksəriyyəti mühacirət etmələri ilə bağlı heç bir bəyanat verməyiblər. Amma qərarları barədə yaxın ətraflarını məlumatlandırıblar. Əldə etdiyimiz məlumata görə, bu şəxslərdən bəziləri hələ tam mühacir həyatına başlamayıblar. Getmək istədikləri ölkələrlə yazışmaları davam edir və bu müddətdə müvəqqəti olaraq Gürcüstanda qalırlar. Bəziləri isə mühacirətlə bağlı son yazışma mərhələsindədirlər və tezliklə bu barədə qərarlarını açıqlayacaqlar.**

"Yeni Müsavat" bu şəxslərdən bəzilərinin adlarını sizə təqdim edir:

"Azadlıq" radiosunun əməkdaşları Abbas Atilay və həyat yoldaşı Sevinc Hüseynzadə, eyni radionun əməkdaşı Maarif Çingizoğlu, hərbi ekspert Cəsur Sümərənli, müstəqil jurnalist İdrak Abbasov, AXCP fəali Kəmalə Bənanyarlı, eləcə də AXCP mətbuat xidmətinin rəhbəri Natiq Ədilov.

**Azərbaycan Miqrasiya Mərkəzi İctimai Birliyinin rəhbəri Əlövsət Əliyev**in də adı miqrantlar sırasında çəkilir. O hazırda Almaniyada yaşayan oğlu Türkel Rüstəmxanlının yanındadır. Ə.Əliyev daha öncə mediaya açıqlamasında bu iddiaları rədd edib. Deyib ki, Almaniyada nəzərdə tutduğu işləri yekunlaşdırdıqdan sonra fəaliyyəti ilə bağlı Tbilisiyə gedəcək, oradan isə Bakıya qayıdacaq: "Bir daha bəyan edirəm ki, mənim Azərbaycanı birdəfəlik tərk etməyimlə bağlı məlumat yayanlar, əslində, öz arzularını ifadə etmiş olurlar. Təbii ki, Azərbaycanda fəaliyyətimə problem yaratmağa çalışan bəzi yüksək çinli məmurlar var. Lakin bəlaləri ilə həyatda və fəaliyyətim boyunca ilk dəfə rastlaşmadığımdan Vətən, millət və ailə sevgisi olmayan bələlərinin məni öz ölkəmdən didərgin salmaları qeyri-mümkündür".

**Yazıda adı çəkilən şəxslərin mövqeyini işıqlandırmağa hazırıq.**

❑ **NƏZRİN**



# Putinin ram olmaması Qərbi qəzəbləndirib

**"Qərb liderləri özündən razı halda bəyan edirlər ki, Ukraynaya hərbi müdaxiləyə görə onların Rusiyaya tətbiq etdiyi sanksiyalardan dolayı bu ölkə çətin duruma düşüb , ancaq Rusiyanın makro-iqtisadi göstəriciləri Fransanın, İtaliyanın, hətta Almaniyanın göstəricilərindən heç də geri qalmır. Maraqlıdır ki, bu sanksiyaların Rusiyaya təsiri haqqında çox danışırlar, ancaq bu sanksiyaların Putinə təsirini hələ ki, görən olmayıb", bu barədə "The Washington Post"un redaksiya tərəfindən hazırlanmış məqaləsində deyilir.**

Əksinə, biz Putinin Milanda keçirilən sammitdə hər hansı güzəştə meylli olmasının şahidi olmadıq. Rusiya açıq şəkildə göstərdi ki, nə Ukraynadan, nə də yeni imperiya istəyindən geri durmaq fikrində deyil: "İtaliyanı tərk etməmişdən əvvəl Rusiya prezidenti mətbuat konfransı keçirdi. Həmin tədbirdə Putin şərqi Ukraynanı dəfələrlə "Novorassiya" adlandırdı. Bu ifadə isə XIX əsrdə çar Rusiyasında işlənirdi. O, demək istəyirdi ki, rəsmi Moskva şərqi Ukraynanın özü tərəfindən idarə olunmasını doğru sayır".

**Putin həmçinin qeyd etdi ki, sülhpərvər qüvvələrin gələcəkdə əsas işi separatçı bölgə ilə Ukraynanın digər əraziləri arasında qərar tutmaq olmalıdır:** "Belə olsa, "Novorassiya" kiçik bir dövlət kimi formalaşa bilər və Putin həmin ölkədən Ukraynada stabilliyi pozmaq üçün həmişə istifadə edə bilər".

"Almaniya kansleri xanım Merkel həqiqətən də tərifə layiqdir. O, Putinlə danışıqlar zamanı sərt mövqe tutur. Çox güman ki, kansler digər Qərb ölkələri liderlərindən daha çox Putinlə görüşdüyündən və onunla Ukrayna böhranını müzakirə etdiyindən vəziyyət barədə daha çox məlumatlıdır. Xanım Kansler bəyan etdi ki, sanksiyaların ləğvi üçün Rusiya Ukraynanın ərazi bütövlüyün tanımalıdır, özü də təkcə "kağız üzərində yox", "The Washington Post" yazır.

**Baxmayaraq ki, ABŞ və Avropa Birliyi Rusiyaya qarşı sanksiyaların tətbiqində eyni mövqedən çıxış etdilər, ancaq bu da faktdır ki, Obama administrasiyası Rusiyanının Ukraynaya müdaxiləsinin qarşısını ala bilmədi. Obama Putinin Rusiyanı genişləndirmək planlarını durdurmaq istiqamətində də ciddi nəticəyə nail olmadı:** "İndi bu məsələlər ABŞ-la Avropa Birliyi arasında keçiriləcək məsləhətləşmələr zamanı gündəmin əsas mövzuları sırasında yer almalıdır".

❑ **Elbəyi HƏSƏNLİ**

## Dövlət Departamentinin nümayəndəsi Bakıda KİV rəhbərləri ilə görüşdü

**ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya ölkələrinə Amerika yardımı üzrə ofisinin Avrasiya şöbəsinin direktor müavini Noy Kristal oktyabrın 21-də Azərbaycan KİV rəhbərlərindən ibarət qrupla görüşüb.**

Səfirliyin mətbuat xidmətindən "Turan"-a bildirilib ki, KİV-lərin vəziyyəti və problemləri, həmçinin söz azadlığının vəziyyəti müzakirə olunub.

Görüşdə iştirak edən "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu musavat.com-a deyib ki, Noy Kristal və digər ABŞ təmsilçiləri ilə görüşdə KİV rəhbərləri mətbuatın problemlərindən danışıblar. Qarşı tərəf əsasən dinləyib və fikir bildirməyib. Görüşdə "Yeni Müsavat", "Azadlıq", "Ayna-Zerkalo" qəzetlərinin baş redaktorları, "Azadlıq" və "Amerikanın səsi" radiosunun Bakı ofisinin təmsilçiləri, eləcə də RATİ nümayəndəsi iştirak ediblər.

Qeyri-rəsmi məlumatlara görə, Noy Kristal bir sıra rəsmi şəxslərlə görüşlər keçirib.

Xatırladaq ki, bu ilin yayında Azərbaycan hakimiyyəti Amerika və Qərb qrantları üzrə layihələrin reallaşmasının qarşısını alıb. Ötən həftə qanunverici məhdudiyyətlər qəbil edilib.

Bu məhdudiyyətlərə görə, xarici donorlardan qrant almaq yalnız Azərbaycan hökumətinin razılığı ilə ola bilər.

## Bakıda bəzi marşrutlarda gedişhaqqı qalxdı

**Bakının 214, 215, 189, 191,160, 106, 113 saylı marşrut avtobuslarında sərnişinlərdən 20 və 25 qəpik əvəzinə 30 qəpik alırlar.**

Bu barədə day.az saytı məlumat yayıb. Oxuculardan birinin sayta verdiyi məlumata görə, 215 nömrəli marşrut avtobusunda gediş haqqının 25 qəpik olması ilə bağlı elan yerləşdirilib.

Ən maraqlısı isə odur ki, həmin elanla yanaşı başqa bir bildiriş də yapışdırılıb. Orada yazılıb ki, şikayəti olanlar bildirişdə göstərilən nömrəyə zəng vura bilərlər.

## Respublika Yanıq Mərkəzinin müdiri işdən azad olundu

**Respublika Yanıq Mərkəzinin müdiri Vüqar Ələkbərov işdən azad olunub.**

Bu barədə APA-ya açıqlama verən V. Ələkbərov öz istəyi və ərizəsi ilə işdən ayrıldığını deyib.

Onun sözlərinə görə Respublika Yanıq Mərkəzi üçün lazım olan vəsait və avadanlıq alınmayıb: "Özüm ərizəmi yazaraq işdən çıxdım".

Məsələyə münasibət bildirən Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Qədirli Vüqar Ələkbərovun söylədiklərini cəfəngiyat adlandırıb: "Mərkəz bütün lazımi aparatlarla, dərmanla təchiz olunur. O, fəaliyyətini plastik cərrahiyyə şöbəsində həkim kimi davam etdirəcək".

Respublika Yanıq Mərkəzinə isə Şöhrət Məmmədov müdir təyin olunub.

YENİ MÜSAVAT
N 260 (5969) 22 oktyabr 2014



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

**Prezidentin son əfv fərmanı NİDA Vətəndaş Hərəkatının yalnız üç üzvünə şamil olundu. Halbuki, həbsdə olan NİDA üzvlərinin hər biri əfv ərizəsi yazmışdı. Son günə qədər şübhə edilmirdi ki, gənclərin birlikdə əfv yazması onların azadlığa çıxmasını şərtləndirəcək. Baş prokuror Zakir Qaralovun da bu müraciətin ölkə başçısına çatdığını qeyd etməsindən sonra da bir əminlik yarandı. Ancaq əfv siyahısına baxanda hamı təəccübləndi. Gənclərdən yalnız ayrı-ayrılıqda əfv yazanlar azadlığa çıxdı. Bu günə kimi də sual doğurur ki, niyə bütün NİDA məhbusları əfv olunmadı?**




# Bu gün hüquq müdafiəçiləri AŞ təmsilçiləri ilə görüşəcəklər

**Səidə Qocamanlı:** "İşçi Qrupu bərpa olunsa, Tofiq Yaqublu, Yadigar Sadıqlı, İlqar Məmmədov və başqaları da azadlığa çıxacaqlar"

Hüquq müdafiəçisi Səidə Qocamanlı bu haqda "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, NİDA üzvləri etap-etap azadlığa çıxacaq: "Mən son əfv fərmanın müsbət qiymətləndirirəm. Hər bir halda əfvə düşən 84 nəfərin arxasında bir insan taleyi durur. Onların azad olunması ailələrinə sevinc gətirib. Bizim siyahıdan isə dörd nəfərin azadlığa buraxılmasına ikiqat sevinirik. Onlardan biri Həsən müəllimdir, dəyəli insandır. Digərləri gəncdirlər, onların həyatı qabaqdadır. Arzu edərdik bütün həbsdəki NİDA-çılar azadlığa buraxılsın. Amma inanırıq ki, etap-etap onları buraxacaqlar".

S.Qocamanlının sözlərinə görə, yeni ildə əfv veriləcəyi gözlənilir: "Hər yeni il ərəfəsində əfv verilir. Eyni zamanda İşçi Qrupu fəaliyyətinə başlamalıdır. Biz ümid edirik ki, dialoq nəticəsində konstruktiv bir qərar qəbul olunacaq. Oktyabrın 22-də Avropa Şurası üzvləri ilə görüş olacaq. Görüşdə prezidentin Avropa Şurasının baş katibi Yaqlandla telefon danışığı və dialoq məsələsi müzakirə olunacaq. Ancaq tam tərkibin kimlərdən ibarət olduğunu bilmirik. Biz dialoqa böyük ümid bəsləyirik. İşçi Qrupu bərpa olunsa, Tofiq Yaqublu, Yadigar Sadıqlı, İlqar Məmmədov və başqaları da azadlığa çıxacaqlar. Bu, yeni institut deyil. 2005 -2008-ci ilədək İşçi Qrupu olub. Həmin qısa müddətdə 177 nəfər azadlığa çıxdı. Ona görə də ümid edirik ki, işimizi bacaracağıq. Bircə qıraqdan danışanlar olmasın".

Hüquq müdafiəçisi azad olunan NİDA üzvlərinin Fəxri Xiyabana getməsinə də münasibətini açıqladı: "Mən onları qınaya bilmərəm. Bu, onların seçimidir. Hər ikisi şüurlu adamlardır. Bəxtiyar əfv ərizəsində yazmışdı ki, ziyarətə gedəcək.

İndi bir dəstə adam əlinə yaba alıb onlara hücuma keçiblər. Əgər o cavanlar gediblərsə öz işləridir. Axı dörd nəfərdən ikisi getməyib?! Bu uşaqlar belə lazım biliblər, gediblər. Gəncliyə qarşı elə hərəkət etmək olmaz. Həbsxana həyatı görməmiş adamlar o gənclərin ailələrinin nələr çəkdiyini bilmir.

Baxın, Şahinin atası cavan insan idi, ürəyi dözmədi. Bəlkə bu üç gündə onların qəlbi daha çox sındı, nəinki həbsxanada.

Biz azadlıqda gəzirik, nəfəs alırıq, onlar məhbəsdə otururlar. Kimin başına belə bir iş gəlsə, onda azadlığa çıxanda ziyarətə getməz. Amma facebookda kampaniya aparmaq, o uşaqlara hücuma keçmək yaraşmaz hərəkətdir. Onlar cavandır, gələcəyi var, təhsilini davam etdirməlidirlər".

❑ **E.SALAMOĞLU**

# Ziya Məmmədovun taksi biznesi çökür

"London taksisi" sürücüləri müştəri qıtlığından şikayətçidirlər

**Bakıda keçirilən "Eurovision" musiqi yarışması ərəfəsində paytaxta gətirilən "London taksisi" xidməti artıq uzun müddətdir ki, böhran dövrünü yaşayır. Bu xidmət rəsmən çökmək üzrədir.**


Ziya Məmmədov

Bənövşəyi taksilərin sürücüləri də deyir ki, hər kilometrə görə 70 qəpik gediş haqqı alınır, amma sərnişinlər onların xidmətini az-az hallarda seçirlər: "Bizə çox böyük plan qoyurlar. Həmin planı ödəmək çox çətindir. Çünki sərf etmədiyi üçün müştərilər bizi az seçirlər. Məsələn, sərnişin taksiyə əyləşən kimi artıq 1 manat ödəniş haqqı yaranır. Başqa taksi ilə 3 manata gedə biləcəyi yolu "London taksisi" ilə 4 manata gedir. Bu kimə sərf edər? Buna görə də biz planı ödəyə bilmirik. Əgər taksi xidmətinin inkişafını istəyirlərsə, yenilik etsinlər. Planı azaltsınlar, sürücü evinə çörək apara bilsin. İndi də bu cərimələr bizi boğaza yığıb. Günlük planı 40 manat ediblər. Gündəlik yemək xərclərimiz də var. Biz nə qədər pul qazanmalıyıq ki, bütün bu xərcləri də ödəyək və evimizə də çörək pulu aparaq. Bir müddət öncə taksi sürücüləri planın artmasına görə aksiya keçirmişdilər. Həmin aksiyadan sonra bir neçə sürücünü işdən çıxardılar. Bundan sonra nə-sə edə bilərik ki?"

Taksi xidmətinə daha bir mane isə cərimələrdir. Əksər "London taksiləri" cərimə meydançasına aparılırlar. Bu maşınlar gömrük rüsumundan keçmədiyinə görə onları saxlayıb cərimə meydançasına aparırlar. Hələ bir müddət əvvəl başlanan bu proses indi də davam edir. Əgər bu avtomobillər gömrük qeydiyyatından keçməyibsə, 2012-ci ildən bəri ölkə ərazisində necə hərəkət edib? Son 5 il ərzində Azərbaycana ümumilikdə 1 850 ədəd yeni taksi gətirilib ki, onlardan 1000-i "London taksisi"dir. Avtomobillərin sifarişçisi qismində "Baki Taxi" MMC şirkəti çıxış edir. "London taksi"siləri ilk dəfə Bakıya gətirilərkən onların 500-ü gömrük rüsumu ödəməyib. Ona görə də, həmin taksilər gömrük işçiləri tərəfindən yığılıb və Dövlət Gömrük Komitəsinin cərimə meydançasında saxlanılır.

Görünən budur ki, artıq Ziya Məmmədovun iqtisadi cəhətdən çökdürülməsi əməliyyatı başlayıb. Qeyd edək ki, bu, Ziya Məmmədovun biznesinə ilk zərbə deyil. May ayında baş nazir Artur Rasizadənin qərarı ilə Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılıb. Bu qərarla paytaxtda sərnişin daşınmasının təşkili Bakı şəhər İcra Hakimiyyətinə həvalə edilib.

**Paytaxtda sərnişin daşınması nəqliyyat naziri Ziya Məmmədova məxsus "Transqeyt" şirkətinin monopoliyasında idi. Nazirlər Kabinetinin sözügedən qərarı ilə sərnişin daşınma xidməti BŞİH-nin nəzarətinə keçdi. Bununla Ziya Məmmədovun daha bir maliyyə qaynağı qapadılıb. Bir qədər öncə Bakı yollarının təmir-bərpası funksiyası da Nəqliyyat Nazirliyindən alınıb Bakı şəhər İcra Hakimiyyətinə verilmişdi. Nazirliyin əsas müəssisəsi olan "Azəryolservis" ASC də faktiki olaraq Z.Məmmədovun təsir dairəsindən çıxarılıb.**

❑ **Məhəmməd TÜRKMƏN**

# "Övladlarımın əfvlə azad edilməsi mənə lazım deyil"

**Raqif Kərimli:** "Günah əfv yazanlarda deyil, onu yazdıranlardadır"; Müsavat başqanının müavini və qardaşına əfv yazmaları üçün müraciətlər edilir




**Son vaxtlar siyasi əqidələrinə görə həbsdə olan məhbusların əfv ərizələri yazmaları adi hal alıb. Prezidentə azadlığa çıxmaları üçün müraciət edənlərin sıraları genişlənir. Məhz bunun nəticəsidir ki, oktyabrın 18-də imzalanan əfvlə 4 siyasi məhbus azadlığa qovuşdu.**

Bu iddialar da var ki, əfv ərizələri məhbusların öz xoşluğu ilə yazılmır. Çoxları düşünür ki, bu proses təzyiq altında həyata keçirilir. Hazırda həbsdə olan məhbuslara da əfv yazmaları üçün müraciətlər edilir. Bunu onlarla görüşən yaxınları və vəkilləri bildirirlər.

Müsavat başqanının müavini Fərəc Kərimli və qardaşı Sirac Kərimliyə prezidentə müraciət etmələri üçün təkliflər edilir. Bunu qardaşların Hüquqlarını Müdafiə Komitəsinin sədri Əbülfəz Sadıqbəyli oktyabrın 20-də təcridxanada onlarla görüşündən sonra bildirib.

Qardaşların atası Raqif Kərimli bu cür müraciətlərin edildiyindən xəbərsiz olduğunu bildirdi: "Dünən uşaqların anası və qohumlarım görüş üçün təcridxanaya getmişdilər. 5 nəfər olduqlarına görə bölünərək görüşüblər. Çünki 5 nəfərə görüş üçün icazə verilmir. Siracla anası görüşüb. Səhhətləri normaldır. Sirac keçən həftə zəhərlənib. 3 gün vəziyyəti pis olub. İndi vəziyyəti yaxşılaşıb. Əfv müraciətlərinin olunmasından xəbərim yoxdur. Çünki son zamanlar görüşə bilməmişəm".

**Raqif Kərimli əfvi cinayət törədənlərin yazdığını qeyd etdi:** "Əfvi o insan yazar ki, cinayətkar olsun. Övladlarım hansı cinayətlərinə görə müraciət etməlidir? Prezident hansı cinayətə görə övladlarımı əfv etməlidir? Uşaqlarım heç bir cinayət törətməyib. Onları həbs edənlər cinayət törədiblər. Bunlar qondarma, şər-böhtandır. Övladlarımı əfv etməsinlər, sadəcə azad etsinlər. Onları şərləyərək, övladlarını atasız qoyanları cəzalandırsınlar".

**Qardaşların atası əfv yazanlara münasibətini də bildirdi:** "Müharibə şəraitində olan ölkədə gəncləri, milləti sındırırlar. Gənclərimizdən qisas almağı özlərinə fəxr sayırlar. Vətənpərvərlikdən danışırlar. Vətənpərvərlik vətəni gənclərdən "azad etmək" deyil. Cavanları belə əymək də məqsəd nədir? Günah əfv yazanlarda deyil, onu yazdıranlardadır. Amma mən uşaqlarıma demişəm. Əfv yazsalar onları həyatımdan silərəm. Özləri yaxşı bilirlər. Həbs edənlərdə bizdən yaxşı anlayırlar ki, Fərəc və Sirac qanunsuz tutulub. Övladlarımın əfvlə azad edilməsi mənə lazım deyil".

**Qeyd edək ki, Fərəc və Sirac qardaşları bu ilin iyulunda həbs edilib. Onlara qarşı irəli sürülən 234.4.3 maddəsi üzrə qardaşları 7 ildən 12 ilə qədər həbs cəzası gözləyir.**

❑ **Cavanşir ABBASLI**

# Rəsul Cəfərovun prezidentə müraciəti ona niyə kömək etmədi?

Vəkili deyir ki, hüquq müdafiəçisi həbs-qətimkan tədbirinin dəyişdiriləcəyinə ümidlidir

**Oktyabr ayı siyasi məhbusların əfv ərizələri yazmaları ilə əlamətdar oldu. 10 nəfər siyasi məhbus azadlığa çıxmaq üçün prezidentə müraciət etdilər. Onlardan yalnız 4-ü azad olundu.**

Əfv ərizəsi yazan məhbuslardan biri - hüquq müdafiəçisi Rəsul Cəfərovdur. O, ölkə prezidentinə və baş prokurora müraciətində hüquq müdafiə fəaliyyətini güclü və firavan Azərbaycan üçün həyata keçirdiyini və bundan sonra da eyni məqsədə nail olmaq üçün daha əzmlə, daha doğru, daha düzgün , daha şəffaf və geniş dialoq şəraitində davam etdirəcəyini bildirib. Bunun üçün prezidentdən onu azad etməsini xahiş edib.

**R.Cəfərovunun müraciəti birmənalı qarşılanmamışdı. Həmçinin, o azadlığa da buraxılmadı. Hüquq müdafiəçisi təcridxanadan yazdığı məktubda bu məsələyə də aydınlıq gətirib:** "Müraciətimdə "möhtərəm" sözündən istifadə etməyimi, çatışmazlıqlar və nöqsanları etirafımı mübahisələndirilməsini anlamıram, bunu həbsimin cılızlaşdırılması kimi qiymətləndirirəm".

Bəllidir ki, hüquq müdafiəçisinin əfv müraciəti onun azadlığa çıxmasına kömək edə bilməzdi. Çünki haqqında hökm oxunmayan məhbusun əfvə düşməsi Azərbaycan reallığında mümkün deyil.




**R.Cəfərovun vəkili Fariz Namazlı müraciətin mahiyyəti barədə bunları dedi:** "Noyabrın 2-də Rəsul Cəfərovun həbs müddəti bitir. Müraciət əsas buna görə edilmişdi. Çox güman ki, istintaq orqanı həbs müddətinin uzadılması ilə bağlı məhkəməyə vəsatət təqdim edəcək. O, müraciətində göstərib ki, fəaliyyətində heç bir qanun pozuntusu olmayıb. Qeyd olunub ki, ev dustaqlığı seçilsə də, istintaq davam etdirilə bilər. Rəsul bəy heç zaman istintaqdan qaçmayıb. Hətta istintaqın aparılmasına belə kömək edib. Dəfələrlə ifadə verib. Müraciətdə bu qeyd olunub və istintaqın iradə göstərməsi xahiş olunub. Təbii ki, əfv prezidentin müstəsna hüququdur. Gələcəkdə bu müraciətin qiymətləndirilməsi də prezidentin səlahiyyətindədir. Ola bilsin ki, ilk dəfə qiymətləndirilməsin. Amma gələcəkdə mümkündür. Bu istisna deyil".

**Vəkil R.Cəfərovun səhhətinin normal olduğunu da qeyd etdi:** "Saxlanma şəraitindən şikayəti yoxdur. İstintaqın qısa zamanda yekunlaşmasını istəyir. Onunla bağlı demək olar ki, istintaq hərəkətləri aparılır".

**R.Cəfərov avqustun 2-də Nəsimi Rayon Məhkəməsinin qərarı ilə barəsində 3 aylıq həbs qəti imkan tədbiri seçilib. Ona qarşı Cinayət Məcəlləsinin 192-ci (qanunsuz sahibkarlıq), 213-cü (vergi ödəməkdən yayınma) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham irəli sürülüb. "Amnesty İnternational" Cəfərovu vicdan məhbusu elan edib.**

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 260 (5969) 22 oktyabr 2014



# Gələn il bu vaxt

**Azər RƏŞİDOĞLU**

**2014-cü ilin bitməsinə o qədər də çox vaxt qalmayıb. Gələn il Azərbaycanda yeni parlament seçkiləri keçiriləcək. Bu seçkilər müxalifətin taleyini həll edə bilər. Ehtimal etmək olar ki, artıq bir neçə aydan sonra ölkədə parlament seçkilərinə hazırlıq başlayacaq. İstər iqtidar, istər müxalifət gücünü səfərbər edərək, Milli Məclisə keçiriləcək seçkilərdə güclü şəkildə təmsil olunmağa səy göstərəcək.**

Gələn il keçiriləcək seçki bir çox parametrlərinə görə fərqli ola bilər. Ehtimal etmək olar ki, parlamentə nəzarət üçün oliqarxiya arasında gərgin mübarizə başlayacaq. Hakimiyyətdaxili qrupların daha çox millət vəkili mandatına sahib çıxmaq üçün gərgin mübarizəyə qalxacaqları da gözləniləndir. Görünən budur ki, qarşıdan gələn seçkilərdə ciddi maliyyə resursları olmayan və "yuxarılarda" olduqca ciddi dəstəyi olmayan simalar uğur əldə edə bilməyəcəklər. Hər şeyi maliyyə və şübhəsiz ki, seçkini hansı hakimiyyətdaxili qrupun keçirəcəyi müəyyən edə bilər. Bu dəfə parlamentdə çoxluğa malik olacaq qrup, baş nazir postuna daha da yaxınlaşa bilər.

Bir sözlə, iqtidar seçkiyə monolit olmasa da, əminliklə gedir və seçki öncəsi parçalanmaya səbəb ola biləcək ciddi qarşıdurmaların yaşanacağı az ehtimal edilir.

Başlıca sual açıq qalır - müxalifət bu dəfə seçkidə necə təmsil olunacaq? Hansı seçki blokları yaradıla bilər?

Artıq indidən ehtimal etmək olar ki, seçki öncəsi bəzi bloklar formalaşdırılacaq. Seçkilərə təkbaşına qatılmağa heç bir müxalifət təşkilatının gücü yetərincə deyil. Belə olan təqdirdə sual meydana çıxır - seçkilər ərəfəsində Müsavat və AXCP seçki blokunun yaradılması mümkündürmü? Hazırda belə ehtimal az inandırıcıdır. Artıq bütün körpülər yandırılıb. Bu iki önəmli təşkilatın birlikdə seçkiyə getməsi ehtimalı demək olar ki, yox dərəcəsindədir. Hətta belə bir seçki bloku yaradılarsa, bu günkü şərtlərə görə, bu seçki blokunun rəhbərlərinin uğur əldə edə biləcəyi, hakimiyyətin buna imkan verə biləcəyi real görünmür.

Ehtimal etmək olar ki, seçkilərə qədər hər iki partiyadan qopmalar olacaq və onun sosial bazasında yeni, daha mötədil təşkilatlar yaradılacaq. Bu addımların seçkilərə hesablanacağı da istisna edilmir. Lakin konstruktiv müxalifət olmağa iddia edən bu simaların uğurlara imza atacağı da az ehtimal edilir.

Onu da proqnozlaşdırmaq olar ki, son prezident seçkilərində özlərinə epizodik rollar ayıran siyasətçilər parlament seçkiləri zamanı bunun əvəzini çıxmaq istəyəcəklər. Lakin çətin ki, kütləvi tamaşalar qəhrəmanlarına baş rol oynamağa imkan yaradılsın.

Söz yox ki, Qərbin birbaşa maraqlarına xidmətini təklif edənlər də seçkilər öncəsi fəallaşmaq istəyəcəklər. Onların ciddi qüvvə kimi parlamentdə təmsilçiliyi perspektivi indidən şübhə doğurur. Ən azı ona görə ki, bu insanların elektoratı olduqca dardır.

Bəzi QHT təmsilçilərinin, iqtisadçı və hüquqşünasların, habelə nüfuzlu jurnalistlərin də 2015-ci ilə hazırlaşacaqları ehtimalı az deyil. Burada da söhbət qələbədən gedə bilməz, ən yaxşı halda bir-iki mandata sahib çıxmaq perspektivi yarana bilər.

Seçkiyə ümidlə baxan sosial qruplardan biri də gənclərdir. Seçkidə hansı formada iştirak edəcəkləri onlara parlamentdə təmsilçilik qazandıra bilər. Bu baxımdan, yanlış bir addım gəncləri böyük siyasətin qapısından içəri buraxmaya bilməz.

Situasiyanın təhlili onu deməyə əsas verir ki, müxalifətin hansı formada seçkilərə qatılacağını bu dəfə də düşərgənin "qoca qurdları" müəyyən edəcəklər. "Ehtiyat hava limanı" yaratmadan hansısa uğurlu modeldən danışmaq bu dəfə də alınmır. Görünən budur ki, "qoca qurdlar" yeni manevr müstəvisi və "ehtiyat hava limanı" yaratmaqla məşğuldurlar. Bu qrupun uğuru isə yaxınlarda cərəyan edən proseslərdən asılı ola bilər.

İnanclı kəsim də seçkilərdə revanş götürməyə həvəsli görünür. Qərb və Rusiyaya bağlı siyasi ideyaların iflasa uğradığı bir zamanda bu qrupun populyarlıq qazana biləcəyini də ehtimal etmək imkansızdır. İnanclı kəsim idarə pultu öz əlində olmayan təbəqə kimi ictimai rəyə təlqin olunur. Formalaşmış ictimai rəyi isə dağıtmaq olduqca çətindir.

Göründüyü kimi, bütün hazırlıqlar ən yaxşı halda parlamentdə təmsilçiliyə yönəlib. Reallığı dərk edənlər 2015-ci il qələbəsindən danışmaq belə istəmirlər.

Seçkilər zamanı atıla biləcək ən yanlış addım boykot taktikası ola bilər. Bu addımı atacaq siyasi qurumlar məğlubiyyətləri ilə yanaşı öz fiaskolarını da tezləşdirə bilərlər.

**Vəziyyət göz önündədir. Artıq indidən iqtidar ssenarisini dağıtmaq lazım gəlir. Protest elektoratı isə bir-biri ilə savaşa sövq edilir. Bu isə təsadüfə bənzəmir...**

# Səxavət Əlisoy Osman Kazımovu Beriya ilə müqayisə etdi

## "O da Stalinə təklif edirdi ki, partiyada və cəmiyyətdə sərt təmizləmə aparmaq lazımdır"

**Müsavat Məclisinin üzvü Osman Kazımov partiya rəhbərliyini heç nədən çəkinmədən partiyada təmizləmə həyata keçirməyə çağırıb. Dünən "Yeni Müsavat" məlumat əldə edib ki, Müsavatda təmizləmələrə başlanması mövqeyindən çıxış edən təkcə Osman Kazımov deyil. Osman Kazımov sadəcə mövqeyini ictimailəşdirib. Partiyanın Məclis üzvləri arasında xeyli şəxslər var ki, başqan Arif Hacılını təcili təmizləmələrə başlamağa çağırıblar.**


Səxavət Əlisoy

Bildiriblər ki, partiyanın nüfuzuna xələl gətirən açıqlamalarla çıxış edən, Nizamnamə pozuntusuna yol verən şəxslər barəsində cəza tədbirlərinə start verilməlidir. Cəza tədbiri kimi isə Müsavat üzvlüyündən xaric edilmə tətbiq olunmalıdır. A.Hacılının bu təklif və tələblərə hələ ki, müsbət cavab verməyib, səbirli olub məsələləri müzakirələr yolu ilə yoluna qoymağın tərəfdarı olduğunu həmin şəxslərə bildirdiyi deyilir.

Müsavat Partiyasında qurultaydan ən çox narazılıq edən və telekanallarda bu barədə kəskin mövqe ifadə edən **başqanlığa sabiq namizəd Səxavət Əlisoy** isə "Yeni Müsavat"a açıqlamasında partiyada təmizləmələrə başlanmaq çağırışlarına münasibət bildirib. S.Əlisoy bu cür çağırışları 1930-cu illərdə Lavrenti Beriyanın çağırışları ilə müqayisə etdi: "Beriya da Stalinə təklif edirdi ki, Kommunist Partiyasında və cəmiyyətdə sərt təmizləmə aparmaq lazımdır. Beriya bu təklifini birbaşa Siyasi Büroda irəli sürmüşdü. Bəyan etmişdi ki, kim yürüdülən siyasətə mane olursa, onları məhv etmək lazımdır. Stalin də Beriyanın təklifini qəbul etmişdi. Sonra partiyanın başına nələr gəldi hər kəsə bəllidir. Yəni hüquqşünas Osman Kazımovun və digərlərinin partiyada təmizləmə təklifi sırf bolşevik təfəkkürüdür. Fərqli mövqeyə qarşı bolşeviklər belə münasibət sərgiləyirlər. İndi neçənci əsrdir ki, partiyada fərqli fikrə görə adamlar üzvlükdən çıxarılmaqla cəzalandırılsın?! Eybi yox, qoy onlar təmizləmə həyata keçirsinlər. Onsuz da qurultaydan sonra Müsavatın tarixinə qara ləkə salıblar, indi də birini əlavə edəcəklər. Kimdən xoşları gəlmir, kim onların xoşuna gəlməyən fikir söyləyib partiyadan qovsunlar, hətta orqanlara müraciət edib cinayət işi qaldırılmasını tələb etsinlər. Məsələn, mənim haqqımda cinayət işi qaldırılmasını istəsinlər. Mən demişəm ki, 2000-ci il parlament, 2003-cü il prezident seçkilərində Müsavatda seçki qərargahında yığılmış pullar açıqlanmalıdır. Yəqin ki, onların hazırladığı cəza siyahısının başında mən dayanaram. Bu, məni heç də əndişələndirmir.

Görürəm ki, Osman Kazımov çox canfəşanlıq edir və bir neçə cəbhədə vuruşmaq istəyir. Bəlkə Arif Hacılı bunu dəyərləndirib Osman bəyi Məclis sədri edər. O zaman ola bilsin ki, Osman bəy biraz sakitləşər".

**S.Əlisoy indiyə qədər heç bir Nizamnamə pozuntusuna yol vermədiyini bəyan etdi**: "Sırf Nizamnamə çərçivəsində hərəkət edirəm. Hər hansı bir nöqsanı dilə gətirmək, partiyada baş verən reallığı ortaya qoymaq Nizamnamə pozuntusu deyil. Mən bildiklərimin 10 faizini deyirəm. Əgər istəyərlərsə, daha ciddi açıqlamalar verərəm. Artıq ox yaydan çıxıb. Bu əməlləri törədənlər ən azı etiraf etməlidirlər. Müsavat heç kimin şəxsi mülkü, MMC-si deyil. Şikayətlərə cavab verilənədək bunlar səsləndiriləcək. Biz cavabı gözləyirik. Onlar özləri bilərlər hansı cavabı verəcəklər. Mən məntiq tərəfdarıyam, nə var ortaya qoyulmalıdır, partiya demokratik partiyadırsa hər şey açıq olmalıdır".

❑ **Etibar SEYİDAĞA**

# Əli Kərimlinin sabiq müşaviri Müsavatda vəzifə tutacaq

## Arif Hacılı Şakir Abbasovu təriflədi

**AXCP sədri Əli Kərimlinin bir neçə gün öncə partiyadan istefa vermiş müşaviri Şakir Abbasovun yaxın günlərdə Müsavat Partiyasına daxil olacağı gözlənilir. Bu barədə Müsavatdakı mənbələrdən "Yeni Müsavat"a məlumat verilib. Xəbərdə deyilir ki, Şakir Abbasovun Müsavatla münasibətləri həmişə yaxın olub, eyni zamanda başqan Arif Hacılı ilə də Şakir bəyin yaxınlığı hələ AXC hakimiyyəti dövrünə gedib çıxır. Məhz bu münasibətlər Şakir Abbasovun Müsavata qəbul edilməsinə təsirini göstərəcək. Mənbənin dediyinə görə, Şakir Abbasov Müsavata üzv qəbul edildikdən sonra böyük ehtimalla başqan tərəfindən partiyada vəzifəyə təyin olunacaq. Mənbə hələlik bu məsələnin ehtimal olduğunu əsas göstərərək söhbətin hansı postdan getdiyi haqda heç nə deməyib.**


Şakir Abbasov

Məlumatı verən mənbənin dediklərinin əsassız olmadığını dünən Müsavat başqanı Arif Hacılının Şakir Abbasovla bağlı açıqlaması da təsdiqləyir. Arif Hacılı AzNews.az-a açıqlamasında deyib ki, o, Şakir Abbasovu döyüş bölgəsində keçdiyi yoldan və həbsxanadan tanıyır: "Onunla döyüş bölgələrində, hakimiyyətdə, hətta Bayıl həbsxanasında da birgə olduğumuz məqamlar olub. Onun Müsavat üzvləri ilə əvvəllər də yaxşı münasibətləri var idi".

"Şakir Abbasov Müsavat partiyasının qurultayında iştirak etdiyi üçün AXCP rəhbərliyi tərəfindən danlaq alıb" fikrinə Arif Hacılının cavabı belə olub: "Qurultayda onun və digər Azərbaycan Xalq Cəbhəsi partiyasının üzvlərinin iştirakı təbiidir. Siyasi münasibətlər baxımından normaldır. Bu, qınanmalı bir əməl deyil".

**Onu da qeyd edək ki, Şakir Abbasovun özü də "Yeni Müsavat"a müsahibəsində Müsavat Partiyası və Arif Hacılı haqqında xoş sözlər deyib, həmçinin bildirib ki, Müsavat Partiyasından dəvət alarsa, qəbul edəcək:** "Müsavatdan dəvət olacağı halda əlbəttə, gedərəm, niyə getmirəm? Ona görə ki, mən Müsavat Partiyasının apardığı xətti də, yolu da, onların işini də görürəm. Müsavatın qurultayına da getmişdim. Qurultaya gedəndən sonra mənim üstümdə çox söhbətlər oldu ki, niyə getmisən? Dedim necə yəni, bəlkə düşmən qapısına getmişəm. Məndən başqa da orda Müsavat üzvü olmayan adamlar var idi. Yeni başqan çox mübariz yollar keçib, elə-belə adam deyil. Yeni başqan yatıb çıxmış adamdır, hər yerdə sözünü kişi kimi üzə deyən şəxsdir".

❑ **Etibar SEYİDAĞA**



# Avropa İttifaqı Azərbaycan prezidentinin əfv sərəncamını alqışlayıb

**Avropa İttifaqı prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı ilə 84 nəfərin azadlığa çıxmasını alqışlayıb.**

APA-nın məlumatına görə, Avropa İttifaqının təhlükəsizlik və xarici siyasət üzrə ali nümayəndəsi Ketrin Eştonilə Avropa qonşuluq siyasəti və genişlənmə üzrə komissar Ştefan Fülenin birgə bəyanatında əfv sərəncamı alqışlanıb və müsbət addım kimi dəyərləndirilib.

**Bəyanatda Aİ-nin Azərbaycanla əlaqələrə verdiyi önəm vurğulanıb və Aİ-Azərbaycan münasibətlərinin hər iki tərəfin xeyrinə əhəmiyyətli potensialı olduğu qeyd edilib**: "Biz Azərbaycanın sabit, təhlükəsiz və firavan gələcəyə malik ölkə olması ilə bağlı istəklərini bölüşür və Avropa Şurasının hazırkı sədri kimi Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq açıq və əhatəli milli dialoqun ən yaxşı yol olduğuna əminliyimizi bildiririk".



# Deputatın tutdurduğu gözətçinin qohumlarından şok açıqlamalar

## “Karat” holdinqdəki müdhiş oğurluqla bağlı keçirilən mətbuat konfransında sensasion faktlar səsləndirildi; Əsabil Qasımovun oğlunun və digər qohumlarının adları hallanan mənimsəmələrlə bağlı qarşı tərəf açdı sandığı, tökdü pambığı; millət vəkili on milyonlarla manat vergidən yayınmaqda suçlandı

**Deputat Əsabil Qasımovun ailəsinə məxsus “Karat” holdinqdə komendant vəzifəsində çalışmış, hazırda həbsdə olan Rövşən Hacıyevin bacısı Güllü Hacıyeva və vəkili Ceyhun Yusifov oktyabrın 21-də mətbuat konfransı keçirdilər. C.Yusifov müvəkkilinin CM-nin 178-ci(dələduzluq) və 313-cü(vəzifə saxtakarlığı)maddəsi ilə həbs olunduğunu bildirib: “Guya Rövşən Hacıyev ”Karat" holdinqin vəzifəli şəxsi olaraq öz vəzifə səlahiyyətlərini aşaraq mənzilləri satıb və pulunu mənimsəyib.**

**Guya komendant olan Rövşən Hacıyev 5 mənzil satıb və zərərçəkənlərə 1 milyon manatdan artıq ziyan vurub.** Faktiki olaraq zərərçəkən də yoxdur. Bu, sadəcə şər-böhtandır. Mənzil satışı zamanı müvafiq müqavilələr tərtib olunur və həmin müqavilələr möhür vurularsa, hüquqi cəhətdən qüvvəyə minir. Möhür yoxdursa, deməli həmin müqavilələrin hüquqi qüvvəsi də yoxdur. “Karat” holdinq Bakının ən müxtəlif ünvanlarında çoxmərtəbəli binalar tikir, həmin binalarda olan mənzillərin satışını təsdiqləyən möhür isə yalnız bir ünvandadır - “Karat” holdinqin əsas ofisində. Möhür Əsabil Qasımovun oğlu Taleh Qasımovda olur. Onun baş ofisdə çalışan digər qohumları da nadir hallarda möhürdən istifadə etməklə müqavilələri təsdiqləyirlər. Yəni Rövşən Hacıyev istəsəydi belə satışa çıxarılan mənzilin alqı-satqı müqaviləsini pulunu ödətdirmədən təsdiqlətdirə bilməzdi. “Karat” holdinqin inşa etdirdiyi binalardan 5 mənzilin satıldığı, lakin pulunun mədaxil edilmədiyi üzə çıxıb. Həmin mənzillərin satışı zamanı müqavilələrə möhür vurulub. Bunu Rövşən Hacıyev edə bilməzdi".

**Vəkil müvəkkilinin ittiham olunduğu cinayəti törətmədiyini söylədi.**

Yada salaq ki, “Yeni Müsavat” deputatın “Karat” holdinqində baş verənlər haqda manşetdən yazı dərc etmişdi. Ə.Qasımov isə yazdıqlarımızı təkzib etməyə səy göstərmişdi. Keçirilən mətbuat konfransında R.Hacıyevin bacısı Güllü Hacıyeva yazdıqlarımızı təsdiqləyən açıqlamalar verdi. Deputatın qardaşına qarşı haqsızlığa yol verdiyini deyən G.Hacıyeva 5 mənzilin satılaraq pulunun mənimsənilməsində ən böyük günahkar Əsabil Qasımovun özünün olduğunu dedi: “Əsabil Qasımov şirkətlərinin başında öz qumarbaz qohumlarını oturdub. Onun qohumları həmin 5 mənzili satıblar və aparıb qumarda uduzduqları adamlara veriblər. Deputatın qohumu Qərib Əmiraslanov mənzilləri satandan sonra Rusiyaya, oradan da Türkiyəyə gedib. Əsabil Qasımov bunu biləndən sonra onu orada tutdurub Bakıya gətizdirdi, 20 gün də türmədə saxlatdı. İndi isə həmin cinayəti Qarabağ uğrunda döyüşlərdə canını qoyan, bir neçə dəfə yaralanan, əlacsızlıqdan gedib Əsabil Qasımovun holdinqində qarovulçuluq, komendantlıq edən qardaşımın üstünə yıxır. Necə ola bilər ki, bir komendant milyardlarla pulu olan holdinqin sahibini aldadıb?”

**G.Hacıyeva bildirdi ki, deputat şirkətinin inşa etdirdiyi binaların tikinti meydançalarına mal-materialları şəxsən sayır:** “Əsabil Qasımov gecə yarısı tikinti meydançalarına gedib traktorların işığı altında tikintidə istifadə olunan armaturları bir-bir sayan adamdır. Belə bir adamın xəbəri olmadan şirkətinin tikdiyi binada mənzil satmaq olar? Əsabil Qasımov, sən mənzilin pulunu almamış, müqaviləyə möhür vuransan? Bunu ancaq onun yaxınları, qohumları edə bilər. Bu işdə günah onun oğlundadır. Haranı Şəhərin mərkəzində olan binalarda mənzillərin kvadratını 110-120 manatdan olmaqla yaxınlarının adına rəsmiləşdirir. Halbuki həmin mənzillərin kvadratının real satış qiyməti 1200 manatdır. Beləliklə, vergi ödənəndə hər kvadrata görə 120 manatdan ödənir. Faktiki isə həmin mənzillərin kvadratı 10 dəfə baha satılır. Binaların üstündə olan texniki sahələr də sonradan mənzilə çevrilərək satılır. Hansını deyək? Bu adamın 30-dan artıq şirkəti var. Haradan alıb deputat bu qədər pulu? Bu adam sadəcə qohumlarına nəzarət edə bilmir, qardaşımı da günahsız olduğunu bilə-bilə həbs etdirməklə qohum-qardaşının gözünü qorxutmaq istəyir. Onları pullarını yeməkdən çəkindirmək istəyir. Xırdalanda qardaşı oğlunun yeyintisini üzə çıxarmışdı, o, "Karat" holdinqə gedib orada demişdi ki, özümü asacağam. Bundan sonra ondan əl çəkdi. Bir fəhlə gedib işlədiyi fabriki baş direktorun möhürü olmasa sata bilər? Bu adamın Süleyman Rüstəm küçəsində “Premium” adlı marketi var. Vergidən yayınmaq üçün oranın kvadratını 309 kvadratmetr göstərib, faktiki isə 515 kvadratdan artıqdır. Bu necə deputatdır ki, böyük vergi cinayətlərinə yol verir? Mənim qardaşım o vəziyyətdədir ki, vəkillə görüşə gələ bilmir. O, torpaqlarımız uğrunda döyüşəndə Əsabil Qasımovun qohum-qardaşı Bakıda öz kef lərində idilər. Mənim qardaşım 1 milyonluq mənzili necə sata bilərdi? Onun qohumları şirkətlərində unu satıb pulunu mənimsəyiblər.

**“Əsabil Qasımov gecə yarısı tikinti meydançalarına gedib traktorların işığı altında tikintidə istifadə olunan armaturları bir-bir sayan adamdır. Belə bir adamın xəbəri olmadan şirkətinin tikdiyi binada mənzil satmaq olar?”**



Əsabil Qasımova da deyiblər ki, unu nisyə vermişik. Aylar sonra Əsabil Qasımov araşdırıb, unu alan adamlar deyib ki, biz aldığımız malın pulunu vermişik. Sadəcə, bu adam o qədər şirkətə sahibdir ki, o qədər çox gəliri var ki, pullarına nəzarət edə bilmir. Qohum-qardaşı pulları dağıdır".

Mətbuat nümayəndələrinə təqdim olunan sənədlərdə “Karat” holdinqin tərkibinə daxil olan çoxsaylı şirkətlərin adları var: “Karat” MTK, “İdeal” MMC, “İzmir” MMC (tikinti şirkətləri); “Azinvest” tikinti şirkəti; “Everest-M”, “Şin Servis” (armatur alqı-satqısı); “Karmen” MMC (dəyirman və un alqı-satqısı); Hökməlidə makaron fabriki; Hökməlidə kisə fabriki; “ASTEL” MMC (Məhəmmədi, Mehdiabad və Şamaxıda quşçuluq fabrikləri); taxıl anbarları və dəyirman kompleksləri (Şəkidə, Kürdəmirdə, Marneulda və Gürcüstanın müxtəlif bölgələrində); “Gəncə Fatoğlu” (un dəyirmanı); Bakı şəhəri, Zərifə Əliyeva küçəsində 18 mərtəbəli iki “Marina Plaza” oteli; Zərifə Əliyeva küçəsində iki mərtəbəli restoran; Bakı şəhəri, Səməd Vurğun küçəsində “Ağ saray” binası; Bakı şəhəri, Xan Şuşinski küçəsi, 12, İmran Qasımov küçəsi 16, Qulu Quliyev küçəsi, 21 və Süleyman Rüstəm küçəsi, 61-də yerləşən 18 mərtəbəli dörd bina; İzmir küçəsi, 7A və 7B-də yerləşən 19 mərtəbəli iki bina; Zərifə Əliyeva küçəsi 53-də yerləşən 23 mərtəbəli bir bina; Süleyman Rüstəm küçəsi 61-də yerləşən “Premium Market” və s".

**G.Hacıyeva dedi ki, deputat onun qardaşını ölümlə hədələyib**: “Qardaşıma deyib ki, səni orada çürüdəcəyəm. İstintaqa təzyiq göstərir. Bizə açıq-aşkar deyirlər ki, bu sifarişdir. Onu deputat seçiblər ki, vətəndaşları toxunulmazlığından istifadə edib türmələrə saldırsın? Əgər qardaşıma qarşı haqsızlıq dayandırılmasa, mən Əsabil Qasımovun zülmündən bezdiyim üçün ”Karat" holdinqin qarşısına gedib üstümə benzin töküb özümü yandıracağam. İndidən deyirəm, mənim intiharımın baiskarı deputat Əsabil Qasımovdur".

**R.Hacıyevin bacısı deputatı saxta şahid axtarmaqda suçladı**: “Karat” holdinqdə qardaşımın şəkilini vurub və altından yazıb ki, kim Rövşənin əleyhinə ifadə versə, mükafatlandırılacaq. Bu, saxta şahid yığmaqdır".

**G.Hacıyeva “Karat” holdinqdə mənzil satışı zamanı yol verilən böyük vergi cinayətlərini də açıqladı:** “Məndə olan məlumata görə Əsabil Qasımov mənzilləri öz yaxın qohumlarının adına rəsmiləşdirir. Qohumlarını çağırır və onlarla alqı-satqı müqaviləsi bağlayıb guya mənzili həmin qohumuna satır. Bunu niyə edir?

**“Qardaşıma deyib ki, səni orada çürüdəcəyəm. İstintaqa təzyiq göstərir. Bizə açıq-aşkar deyirlər ki, bu sifarişdir. Onu deputat seçiblər ki, vətəndaşları toxunulmazlığından istifadə edib türmələrə saldırsın?”**

**E.MƏMMƏDƏLİYEV**



# Ölkədə siqaret iki dəfə bahalaşa bilər

## “Qiymət artımı Dünya Səhiyyə Təşkilatının tövsiyəsinə uyğun olaraq əksər ölkələrdə aparılır”

**Gələcəkdə Azərbaycanda siqaretin və tütün məhsullarının qiymətinin bahalaşacağı tam realdır. Bunu “European Tobacco Baku” ASC (ETB) tütün şirkətinin İdarə heyətinin sədri Rüfət Quliyev bir qutu siqaretin qiymətində aksiz payının 70 faizədək (ƏDV nəzərə alınmamaqla) artırılmasını nəzərdə tutan tütünə qarşı mübarizə üzrə Ümumdünya Səhiyyə Təşkilatının Çərçivə Konvensiyası ilə bağlı bu yaxınlarda qəbul edilən qərarı şərh edərkən deyib.**

Azərbaycanda bir qutu siqaretin qiymətində aksizin payı 12,5 faiz, Rusiyada 40 faiz, Böyük Britaniyada isə 70 faizdir. Onun sözlərinə görə, bütün dünyada siqaret çəkmə ilə mübarizə üzrə görülən tədbirlər nəzərə alınmaqla tütün məmulatlarının qiymətlərin tendensiyası müşahidə olunur: “Bunların sırasında aksizlərin payının, vergi dərəcələrinin artırılması, ictimai yerlərdə siqaret çəkilməsini qadağan edən qanunun qəbul edilməsi var. Ümumilikdə Avropa və dünya iqtisadiyyatına fəal inteqrasiya şübhəsiz ki, siqaretin qiymətinə təsir edəcək. İstənilən halda bu məsələ hökumətin ixtiyarında qalacaq, lakin fikrimcə, Azərbaycan gec-tez siqaretin qiymətini yüksəltmək zərurəti ilə qarşılaşacaq”.

**R.Quliyev qeyd edib ki, idxalçı ölkələr arasında siqaretin qiymətinin artması Azərbaycanda xüsusi narahatlıq doğurmamalıdır:** “Məsələ burasındadır ki, hazırda Azərbaycanda yerli istehsal tütün məmulatlarına olan daxili tələbatın 20-25 faizini qarşılayır, halbuki ”European Tobacco"nun potensial gücü Azərbaycanda siqaretə tələbatın 80-85 faizini qarşılamağa imkan verir. İndiki halda söhbət brendlərdən gedir. Əhalinin rifahı artdığına görə Azərbaycanda daha bahalı siqaret markalarına üstünlük verilir. Lakin hesab edirəm ki, bu, idxal qiymətlərinə təsir etməməlidir, çünki aksiz payının artması adətən daxili bazarda qiymətlərə təsir edir".

**O bildirib ki, siqaretin qiymətinin artması da xammalın bahalaşması ilə əlaqədar ola bilər:** “Avropada tütün əkmək qadağan edilib və tütünçülük daha çox Latın Amerikası və Afrika ölkələrində yayılır. Xammal bahalaşır, onun tədarükünə çəkilən xərclər də artır. Nəticədə istehsalçılar da məhsulun qiymətini artırmaq məcburiyyətində qalırlar”.

**R.Quliyev əlavə edib ki, “European Tobacco” ehtiyac yaranacağı təqdirdə istehsalı 3 dəfə artırmaq gücündədir:** “European Tobacco” ildə 2 milyard siqaret istehsal edir ki, bu da hazırda bazarın 25-27 faizini təmin etməyə imkan verir. Bununla belə, zavod 3 dəfə daha çox istehsal etmək gücündədir. Tütün məmulatlarının istehsal həcminin artırılması bir neçə amildən asılıdır - multimilli şirkətlər - siqaret istehsalçıları ilə razılaşmalar, bazarda tələbat və xammalın qiyməti". Onun sözlərinə görə, “European Tobacco”nun məhsullarının ixrac həcmi ildə 100-120 milyon siqaret arasında dəyişir.

Ekspertlər isə bildirirlər ki, qiymət artımı Dünya Səhiyyə Təşkilatının tövsiyəsinə uyğun olaraq əksər ölkələrdə aparılır. Tövsiyəyə görə, hökumət vergi yolu ilə siqareti bahalaşdırmalıdır ki, əlçatanlıq azalsın və bununla da az insan siqaret çəksin.

**Ekspert Samir Əliyev**in sözlərinə görə, artıq Rusiya buna gedir. Ekspert musavat.com-a açıqlamasında bildirib ki, Rusiyada siqaret təxminən 3 dəfə bahalaşa bilər: “Hazırda orta qiymət 64 rubl olduğu halda, 216 rubla kimi qalxa bilər. Bunun Azərbaycana da təsiri olacaq. Çünki ölkəmizə Rusiyadan siqaret idxal olunur və təbii ki artım bizə də çatacaq. Digər tərəfdən, Azərbaycanda da hökumət Dünya Səhiyyə Təşkilatının tövsiyəsinin nəzərə alaraq aksiz vergilərini artıra bilər. Düzdür, manatın möhkəmlənməsi Rusiyadakı qiymət artımını bir az azalda bilər. Ümumilikdə getdikcə siqaretlərin bahalaşması davam edəcək”.

**Ekspert qeyd edib ki, siqareti daxili istehsal hesabına tam təmin etsə belə bu o demək deyil ki ölkədən kənarda qiymət artımının bizə aidiyyəti yoxdur:** “Azərbaycan hökuməti də gec-tez 179 ölkənin imzaladığı Dünya Səhiyyə Təşkilatının tövsiyələrini qəbul etməli olacaq. Ona görə də 2015-2016-cı illərdə ölkədə siqaretin 2 dəfəyədək bahalaşmasını proqnozlaşdırmaq olar”.

**RÖYA**

YENİ MÜSAVAT
N 260 (5969) 22 oktyabr 2014



# Hakimiyyətdəkilər səmimi olsaydı...

Hüseynbala SƏLİMOV

**Bəli, müxalifət ətrafından da ehtiraslar çəkildi. Demirəm ki, bu yaxşı hal idi. Amma pis bir şey də yox idi. Heç olmasa, kiçik bir detalla müxalifət özünü az da olsa gündəmə gətirə bildi...**

İndi isə bir soyuq payız qalıb, bir xəzəllə döşənmiş küçələr və bir də biz... Düşünürük, nədən yazaq, kimdən yazaq ki, oxucu üçün maraqlı olsun? Bəli, dünya qaynayır, böyük hadisələr baş verir, amma nə edəsən ki, televiziya bu məsələlərdə bizi qabaqlayır...

Biz o məsələlərdən yazmalıyıq və yazırıq ki, televiziyalar hansısa səbəblərdən bu məsələlərə baş vurmurlar...

Ona görə də güman edirik ki, yaxın dövr üçün Paris görüşündən önəmli bir hadisə ola bilməz. Hərçənd ki, artıq mütəxəssislər bu görüşdən heç nə gözləmədiklərini deyiblər...

Demirik ki, biz nəsə gözləyirik. Amma bizim digər media strukturlarından bir üstünlüyümüz var- biz hakimiyyəti Qarabağ problemini həll etmədiyinə görə qınaya bilir və onun bu xüsusdakı siyasətini təftiş edə bilirik...

Məni həmişə bir məsələ düşündürüb. Bu da siyasətdə səmimilik məsələsidir.

Buna görə məni qınayanlar, sadəlövh hesab edənlər də az olmayıb. Deyiblər ki, bu da yazmağa şey tapıb da, əşi, siyasətdə də səmimiyyət olur?...

Nə deyə bilərəm? Siyasətdə adamlar olurmu? Siyasətdə insanlıq olurmu? Deyirlər ki, olur. Bunun cavabında mən də qayıdıram ki, deməli, səmimiyyət də olmalıdır, çünki səmimiyyət insana xas olan keyfiyyətdir...

Baxıram hakimiyyətə, tuturlar, təqib edirlər, ittiham edirlər, sonra böyük bir "humanizm" nümayiş etdirərək əfv edirlər, bağışlayırlar...

Bunların tonu 21 il ölkənin əsas problemini - Qarabağ problemini həll etməyən hakimiyyətin tonu deyil. Bunlar bunun əzabını çəkmirlər, buna görə sıxılmırlar...

Sizdən soruşuram. Başqa hakimiyyət olsaydı, Bakıda bu bir-iki bina tikilməyəcəkdimi? Tikiləcəkdi. Özü də bundan da çox, bundan da yaraşıqlı...

Bəs onda nədir bu ton? Nədir bu təkəbbür? Bunlara baxanda sovetlər vaxtı Bakıya təyin olunan komendantlar yadıma düşür. Onların da belə tonu vardı- amiranə, qarşı tərəfi aşağılayan ton...

Demirəm ki, başqa hakimiyyət olsaydı Qarabağ problemi yüzə-yüz həll olunacaqdı. Yox, bunu demirəm. Amma cəhdlər olacaqdı, cəmiyyətlə dialoq olacaqdı, variantlar nəzərdən keçiriləcəkdi, axırda da nəsə tapılacaqdı...

Amma bunlar özlərini əziyyətə salmaq istəmirlər. Bunlar Rusiyadan Qarabağ problemilə bağlı heç nə istəyə bilməzlər, çünki istədiklərini artıq istəyiblər- bunlar üçün prioritet olan məsələ hakimiyyətdir...

Bunlar ABŞ-dan Qarabağla bağlı heç nə istəyə bilməzlər, çünki istədiklərini artıq istəyiblər- istədikləri isə hakimiyyətdir...

Əslində bu ölkənin məmurları bizim gözlərimizin içinə düz baxmamalıdırlar, baxışlarını gizlətməlidirlər, çünki onlar iki hakimiyyəti səriştəsiz, bacarıqsız adı ilə yola salıblar. Bəs özləri nə ediblər? Bir-iki bina tikiblər! Amma bunun əvəzində nə qədər qazanıblar?..

Bəli, məsələ də bundadır. Bunların yerində hansı hakimiyyət olsaydı daha səmimi olardı. Deyərdi ki, gəlin toplaşaq, səmimi müzakirələr aparaq, görək, bizim üçün vacib olan nədir, biz nə etməliyik?

O gün müxalifətçilərdən birinin maraqlı fikirlərini oxudum. Deyir ki, çox narahatam, gəlin qapalı müzakirələr keçirək...

Nə demək olar? İnsan narahatdır... Elə hamımız narahatıq. Ən kiçiyimizin yaşı artıq əllini adlayıb.Bir də baxıb görəcəyik ki, altmışı da ötümüşük. Amma o dünyaya hansı üzlə gedəcəyik? Uşaqlarımıza hansı ölkəni qoyub gedəcəyik? Bunların məramı aydındır. Bunlar uşaqlarına dövlət, ölkə qoyub getmək haqqında düşünmürlər. Əvəzində isə çox böyük sərvət qoyub gedirlər, çünki bu adamlar düşünür ki, varın-sərvətin varsa, bütün dünya sənə vətəndir...

Mədəni adam bu hakimiyyətin adamları haqda bir söz deyərdi. Deyərdi ki, bunlar ziyalı deyillər. Bəli, bunlar ziyalı deyillər... Ziyalı qarşısındakını heç vaxt aşağılamaz...

Bu hakimiyyətin tonuna baxanda düşünərsən ki, bunlar nəhəng bir dövləti idarə edirlər... Özlərinə titullar fikirləşiblər, özlərini az qala dünyanın ən böyük siyasətçilərinin yerinə qoyurlar...

Amma ortalıqda nə var? Kiçik və ərazisinin 20 faizi işğal altında olan, milləti yarıac-yarıtox olan ölkə...

**Bəs bunların tonu niyə belədir? Bir az əvvəldə sovet komendantların xatırlatdım. Həmin komendantlar bizə necə münasibət göstərirdisə bunlar da elə münasibət göstərir, heç bir fərqi yoxdur...**

# Müsavat funksionerlərindən partiya rəhbərliyinə sərt mesajlar...

**Müsavatda başqanlıq seçkilərindən sonra narazılıq və polemikalar səngimək bilmir. Hər keçən günü yeni iddialar meydana çıxır. Əsas narazılıq isə hazırkı başqan Arif Hacılı və başqanlığa keçmiş namizəd Qubad İbadoğlunun tərəfdarları arasında gedir. Başqanlığa gənclərin namizədi olmuş Tural Abbaslı və onun gənc komandası bu proseslərdə susqun görünür.**



## Tural Abbaslı: "Mən düz deyirəm, qarşı tərəf səhvdir" anlayışı indiki situasiyaya uyğun deyil"

**Tural Abbaslı musavat.com-a açıqlamasında özünün və tərəfdarlarının proseslərdə susqun görünməsinə belə aydınlıq gətirdi:** "Qurultaydan keçən 20 gün ərzində hələ də problemlərin qaldığı doğrudur. Bunlar partiya üzvlərinin sosial şəbəkələr və mətbuatda səsləndirdikləri fikirlərdə daha aydın görünür. Hər keçən gün gərginlik daha aydın şəkildə görünür. Seçkidən qabaq belə fikir var idi ki, seçkiqabağı yaranan emosional hisslərdir. Təəssüf edirik ki, 20 gündür baş verənlər səngimir. Alovlana-alovlana gedir. İstefalar olanda mən bunun qarşısının qısa zamanda alınmasını qeyd etmişdim. Bu fikirlərimizi partiya rəhbərliyinin nəzərə almadığı ortadadır. Çalışmalıyıq ki, hər bir üzvümüzü qoruyaq. Qarşıdan parlament seçkiləri gəlir. Biz buna hazır olmalıyıq. İndiki partiya rəhbərliyi bu məsuliyyəti dərk etməlidir. Biz susqun deyilik. Problemləri hamıdan gözəl bilirik. Ən çox səs toplamış namizədlərin tərəfdarları arasında "soyuq müharibə" gedir. Təəssüf ki, bu reallıqdır. Biz bu məsələnin həllinə çalışırıq. Sosial şəbəkələrdə və mətbuatda yox, partiya daxilində. Bu baxımdan mövqeyimiz susqun görünə bilər. Amma qətiyyən belə deyil. Biz narazı tərəflərlə, istefa verənlərlə görüşmüşük. İstefa qərarının yanlış olduğunu bildirmişik. Partiya daxilində görüşlər keçiririk. Çıxış yolları axtarırıq. Bunlar bizim borcumuzdur. Amma təkcə bizlər yox, partiya rəhbərliyi bu məsələdə daha aktiv olmalıdır. Narazı qüvvələrlə görüşlər keçirməli, onları gələcəyə inandırmalıdır. Seçkidən sonra artıq "mənim tərəfim" anlayışı qalmır. Müsavat başqanı bütün partiyanın başqanıdır. Bütün partiyanı qucaqlamağı bacarmalıdır. Güman edirəm ki, Arif bəy lazımı addımları atacaq. Müsavat 100 ildir öz mövcudluğunu qoruyur. Təbii ki, istəyirik daha güclü Müsavat olsun".

**Tural Abbaslı Müsavat Məclisinə düşə bilməməsi ilə bağlı bunları dedi:** "Mən və tərəfdarlarım obyektiv və subyektiv səbəblərdən Məclisə düşmədik. Bu məsələni texniki anlaşılmazlıqla izah etməyə çalışırlar. Biz heç kəsə bununla bağlı etiraz bildirmirik. Seçkinin nəticəsini tanıyırıq. Amma düşünmək lazımdır ki, Müsavat rəhbərliyində partiyanı irəli aparmaq gücündə olan şəxslər təmsil olunmalıdır. Buna şərait yaradılmalıdır. Artıq "mənim tərəfim", yaxud "mənim əks tərəfim" anlayışları ilə seçkilər keçirilməməlidir".

**Başqanlığa keçmiş namizəd oktyabrın 25-də keçiriləcək Məclisə seçkilərdə boykot ehtimalının ola biləcəyini də qeyd etdi:** "Bu ayın 25-də keçiriləcək seçkilərdə iştirakla bağlı qəti qərar verməmişik. Boykot ehtimalı var. Çünki artıq insanlar seçkidən-seçkiyə narazı qalırlar. Mənəvi zədə alırlar. Bunu haqsızlıq hesab edirlər. İnsanları namizədliyini verməyə məcbur etmək də olmur. Çalışacağıq qərara gələk. 25-də Müsavat Divanında 10 yerə seçkilər keçiriləcək. Bunları yanlış hesab edirəm. Məclisdə də dedim. Partiyanın bir orqanı formalaşmadan digərinə seçkilərin keçirilməsi tamamilə yanlışdır. İnsanları fakt qarşısında qoymaq olmaz. Elə müsavatçılar var ki, Məclisə belə düşməyiblər. Amma Divanda təmsil olunmağa layiqdirlər. Son seçkilərdə 6 nəfərin Məclisə düşməyi Divan seçkilərinə bir işarədir. Güman edirəm ki, belə seçkilər davam edərsə, vəziyyət gərginləşəcək. Divana seçkilər olsa, partiyada vəziyyət heç də xoş olmayacaq. Məclisə əgər namizəd olub seçilsək, namizədliyimizi Divana verəcəyik. Mən yenə qeyd edirəm ki, Müsavatın sıravi üzvü olmaq belə mənə fəxrdir. İndiyə qədər partiyanın güclənməsi üçün etdiklərimizin artığını etmək bizim üçün daha fəxrdir. Əgər müsavatçılar bizi layiq görsələr, Müsavatın varlığını qoruması üçün yox, hakim partiya olması üçün çalışacağıq. Vəziyyətin bu yerə çatması hazırki başqanın mövqeyindən asılıdır. "Mən düz deyirəm, qarşı tərəf səhvdir" anlayışı indiki situasiya uyğun deyil. Hamı düşünməlidir ki, partiya hamımızındır. Bu, 4 illiyə hesablanmış partiya deyil. Hərə üzərinə düşəni dərk etməlidir. Dərk etmək də şərt deyil. Uğurlu addımlar atılmalıdır".



## Ellada Məmmədli: "Gizli qrupda müsavatçıları söyənləri vəzifə ilə mükafatlandırırlar"

Seçkilərdə Qubad İbadoğlunun tərəfdarlarından olmuş, **Müsavat Qadınlar Təşkilatının sədri Ellada Məmmədli** baş verənlərlə bağlı daha kəskin danışdı: "Seçkidən bir müddət keçməsinə baxmayaraq, hələ də pozuntularla bağlı şikayətlərə baxılmayıb. Vaxtında şikayətləri təqdim etdikdə müxtəlif bəhanələr gətirərək, onu bizdən qəbul etməmişdilər. Şikayət e-mail poçtla göndərildikdən sonra video çarxı bəhanə edirlər. Bu da şikayətlərə obyektiv baxılmasını şübhə altına alır. Verəcəkləri cavab hər şeyi müəyyənləşdirəcəkdir".

**Ellada Məmmədli kimin seçilməsindən asılı olmayaraq, Qadınlar Təşkilatı olaraq sona qədər fəaliyyət göstərəcəklərini söylədi:** "Müsavat Qadınlar Birliyi Şura tərəfindən təsdiq olunmuş fəaliyyət proqramı əsasında öz işini davam etdirəcəkdir. Qurultaydan öncə Şuramızın qərarı var. Kimin seçilməsindən asılı olmayaraq, bu qurum öz fəaliyyətini davam etdirəcəkdir. Sıralarımızı genişləndirməklə".

**Müsavatçı qadınların sədri indiyə qədər yeni başqanın gördüyü işlərin qənaətbəxş olmadığından söz açdı:** "Yeni rəhbərlik narazı tərəflə eyni masa arxasında problemləri həll etməlidir. Sözdə qucaq açmaq, əməldə geri çəkilmək düz deyil. Görülən işlər məni qane etmir. Gizli qrupun iştirakçıları müsavatçıları təhqir etmələrinə baxmayaraq, vəzifə ilə mükafatlandırıldılar. Belə çıxır ki, opponentlərin tərəfdarlarını kim möhkəm söysə, vəzifə alacaqlar. Gedənlərin qarşısını almaq əvəzinə onlara xəyanətkar damğası vurmaq düzgün deyil. Bu ifadə yüksək məsuliyyət tələb edir. Xəyanətlər isbat olunmalıdır".

❑ Cavanşir ABBASLI

Yeni MÜSAVAT

N 260 (5969) 22 oktyabr 2014

# AXCP-çilərin toyla bağlı "ittihamlarına" sərt cavab gəldi

**Müsavatın sabiq Divan üzvü, keçmiş deputat İkram İsrafilin övladının toyuna hakim partiyanın üzvü, deputat Aydın Mirzəzadə, BQP sədri Fazil Mustafa və bir sıra digər şəxsləri dəvət etməsi bəzi dairələrdə qıcıqla qarşılanıb.**



**İkram İsrafil:** "Xeyir-şərdə siyasət axtarışında olanların düşüncələrində problemlər var"



**Fazil Mustafa:** "Bu insanlar həm siyasi, həm də insani parametrlər üzrə həqiqətən xəstədirlər"

Təəssüf doğuran budur ki, artıq bəzi şəxslər insanların hətta ailə-məişət məsələlərinə də müdaxilə etməyə, toyuna çağırdığı adamların təsnifatını aparmağa cəhd edirlər. Sosial şəbəkələrdə bununla bağlı açılan yersiz polemikaları izləyəndə adam birilərinin normal düşüncə sahibi olduğuna şübhə edir.

İ.İsrafilin Sumqayıtda oğluna elədiyi toy məclisindən çəkilən fotolara istinad edən AXCP təmsilçiləri və Cəbhəyə yaxın şəxslər aşağılayıcı tonda statuslar yazırlar. Özündən müştəbehlik edənlər Müsavat funksionerini hətta "satqınlıqda" ittiham edəcək qədər absurda gedirlər.

**Deputat Aydın Mirzəzadə** "Yeni Müsavat"a müsahibəsində toyda iştirakında problem axtarmağa ehtiyac olmadığını bildirib: "İnsanın əqidəsi olmalı, getdiyi yola bağlı qalmalı və konyukturadan asılı olaraq cəbhəsini dəyişməməlidir. Bununla belə, Azərbaycan cəmiyyətində bir xeyir-şər anlayışı var. Artıq burda siyasi mənsubiyyət rol oynamır. Mənim qonşum tamam başqa siyasi düşüncə sahibi ola bilər, amma bu, mənim onunla gündəlik salamlaşmağıma, xeyir-şərində iştirakıma mane olmamalıdır. Azərbaycanda bu mədəniyyət var. Azərbaycanlılar bir qayda olaraq ta qədimdən gələn adət-ənənələrimizi həmişə qoruyub-saxlaya bilirlər".

**İ.İsrafil də qəzetimizə açıqlamasında toy müzakirələri açanların psixoloji probleminin olduğunu vurğuladı:** "Siyasi proseslərə qoşulandan bu qənaətdə olmuşam ki, istər ümummilli məsələlərdə, istərsə ailə-məişət məsələlərinə mənsub olduğun siyasi düşərgənin maraqlarını qatmaq düzgün deyil. İndi də o fikirdəyəm. Ölkəmizdə hələ sular tam durulmayıb. Kimlərsə hesab edirlərsə ki, mənsub olduqları siyasi düşərgənin maraqlarını ailə-məişət məsələlərinə də qarışdırmalı və belə davam eləməlidir, belə insanların siyasi baxışlarında, düşüncələrində problemlər var. O ki, qaldı mənim hakim partiyanın nümayəndələrini məclisimə dəvət etməyimə, əslində dəvətlər çox idi, təkcə Aydın Mirzəzadə deyildi. Mən Aydın Mirzəzadəyə təşəkkür edirəm ki, dəvətimi qəbul edib". İ.İsrafil dedi ki, YAP-dan olan digər deputatlara, keçmiş həmkarlarına da dəvət göndərmişdi: "Onlar şəxsən iştirak edə bilməsə də, məclisdə olmaq arzularını ifadə edib təbriklər göndəriblər və öz nümayəndələri vasitəsilə məclisimdə iştirak ediblər. Xaricdə səfərdə olan millət vəkilləri var idi ki, zəng edərək təbrik ediblər, iştirak edə bilmədiklərinə görə təəssüfləniblər. O cümlədən mənsub olduğum partiyadan da şəxsən iştirak edə bilməyən dostlarımızın nümayəndələri toya qatılıb. İştirak edə bilməyənlərə də iştirak edənlər qədər təşəkkürümü bildirirəm. Bu məclisdə, ümumiyyətlə, xeyir-şərdə siyasət axtarışında olan insanlara isə sözüm odur ki, düşüncələrində problemlər var".

**İ.İsrafil qeyd etdi ki, günün birində partiya mənsubiyyətindən asılı olmayaraq kimdənsə dəvət alarsa, onun məclisində iştirak edəcək:** "Mən Milli Məclisdə olduğum zaman da YAP-dan və digər partiyadan olan həmkarlarımın, həmçinin Sumqayıt şəhərinin rəhbərliyində olan insanların dəvətlərini qəbul edib xeyir işlərinə qarışmışam, hüzrlərində iştirak etməyə çalışmışam və bu, belə də davam edəcək. Bundan sonra da kim məni məclisinə dəvət edəcəksə, gedəcəyəm. Allah eləməmiş şər işləri olsa, imkan dairəsində orda da iştirak etməklə bağlı heç bir tərəddüdüm yoxdur". Müsavatçı onu tənqid edənlərin nəzərinə əlavə məlumatları da çatdırdı: "Sumqayıt şəhər İcra Hakimiyyətindən, bələdiyyəsindən, böyük müəssisələrindən də dostlarımız iştirak edi, mən onlara təşəkkür edirəm".

**Deputat Fazil Mustafa** isə toy məclisində iştirak edənlərin təsnifatını aparanları sərt şəkildə qınadı: "Bu, anormallıq, xəstəlikdir. Bu xəstəlik Azərbaycanda birinci deyil ki. İnsanlar hələ başa düşmürlər ki, insanın xeyir-şərini siyasətə qatmazlar. Bu insanlar hələ də belə şeyləri anlamaq istəmirlər. Kiminsə sevincli günüdür, münasibətin varsa, iştirak etməkdə problem olmamalıdır. Nə olar baxışlarında, görüşlərində fərq olanda, amma bu, o demək deyil ki, dəvət olunduğun yerə getməməlisən. Bunun əksini düşünmək çox anormal bir şeydir. Bu, Azərbaycan cəmiyyətinin reallığıdır. Düzdür, bu yanaşma iqtidar cinahında da var. Amma təəssüf ki, bizim müxalif düşərgəni təmsil edən insanlar içərisində daha çoxdur. Şəxsi münasibətlər, insani münasibətlər siyasətə daşınmaz, bunu hələ anlamaq istəmirlər".

**F.Mustafa Moderator.az-ın sualını cavablanda "Bu insanlar bütün parametrlər üzrə - həm siyasi, həm də insani parametrlər üzrə həqiqətən xəstədirlər" - deyə bildirib:** "Onların ciddi müalicəyə ehtiyacı var. İ.İsrafil bizimlə parlamentdə bir yerdə olub. Müəyyən proqramlar üzrə üst-üstə düşən və düşməyən baxışlarımız olub. O, bir insan kimi çox yaxşı bir insandır. Mənim ona hörmətim var. Məni övladının toyuna dəvət edib və mən də getmişəm. Bizim keçmiş münasibətlərimiz var. Əgər onun yerində başqası - tutaq ki, Pənah Hüseyn, Arzu Səmədbəyli, hansısa keçmiş mübarizə yoldaşımız olsun məni toyuna dəvət etsə, onların da məclisində iştirak edərəm. Bu, gülünc və xəstə yanaşmadır. İnsan bilmir ki, buna gülsün, yoxsa ağlasın. Belə şeyə də irad bildirmək olar? Bu xəstəliyin müalicəsi yoxdur. İnsanın sevincli və ya kədərli günündə onunla bir yerdə olmağa necə irad bildirmək olar? Necə, hansı məntiqlə demək olar ki, onun toyuna və ya yasına niyə getmisən?" **F.Mustafa deyib ki, bu, hər şeydən əvvəl bir insani borcdur:** "İnsan hər şeydən öncə alicənab olmalıdır. Mən YAP da, Xalq Cəbhəsinə də, Müsavatda da olan insanlara insani münasibətinə görə münasibət bəsləyirəm. Yoxsa yüzlərlə insan ola bilər ki, mənim siyasi baxışlarımı qəbul eləməsin. Biz hər kəsə siyasi baxışına görə yanaşsaq onda gərək hər kəsə düşmən olaq. Mənim siyasi baxışımı qəbul edən şəxs insan kimi pis adam da ola bilər. Nə etməliyəm? Onunla dostluğu qəbul etməliyəm? Siyasi münasibətlər hər hansı bir şəkildə insani münasibətlərin üstünə çıxarılmamalıdır. Bu cür addımlar cəmiyyət tərəfindən də qınanmalıdı. Qeyri-sivil baxışa malik olan bu insanlar cəmiyyət üçün arzuedilən deyil. İndi görün bunlar hansısa formada səlahiyhyət sahibi olsalar nə edərlər? Onda yəqin onlar iddia edirlər ki, kiminsə dəfnində kimlərsə iştirak etməməlidir və s. Belə çıxır ki, onlar Hüseyn Cavidə də salam verməməli idilər".

**Aqil Abbas** isə "Teleqraf.az"-a deyib ki, xeyir və şər məclisləri siyasətsiz məclislərdir və burada iştiraka görə, tənqid olunmaq olduqca gülüncdür: "Mənim həm müxalifətdə, həm də hakimiyyətdə dostlarım var. Məmməd Araz, eləcə də, atam vəfat edən də hər iki düşərgədən olan tanışlarım yas mərasimində iştirak ediblər. Bu, bizim millətimizin adət-ənənəsidir. Xeyir-şər məclisi siyasi mübarizə meydanı deyil. Vurğun Əyyubla, eləcə də Mehman Cavadoğlu ilə mənim dostluğum var, tələbə yoldaşı olmuşuq. Hətta M.Cavadoğlu ilə 5 il birgə işləmişik. İndi sabah Vurğun Əyyub övladına xeyir iş eləsə, məni dəvət etməməlidir? Əgər dəvət etməsə də, həmin məclisə gedərəm. Siyasi mövqeləri belə məsələlərə bulaşdırmaq olmaz. İkram İsrafil məni də toya dəvət etmişdi. Ancaq rayonda olduğumdan məclisdə bilavasitə iştirak edə bilmədim. İkram İsrafil parlamentdə fəaliyyət göstərib, deputat həmkarları ilə dəfələrlə xaricdə səfərdə olub. İnsanlarla münasibəti var. Özü də dövlətçiliyin tərəfində olan adamdır. Ümumiyyətlə, məhz belə müsbət hallara kölgə salmaqla insanları bir-birinə düşmən edirlər. Əslində şəxsi müstəvidə müxalifətlə iqtidar arasında problem yoxdur. Müxalifətdə bir qrup radikal sadəcə olaraq bu cür düşünür və hərəkət edir. Bu da yolverilməz haldır. Bizim milli adət-ənənələrimiz olub və indi də var".

❑ **Cavid TURAN**

# İŞİD düşüncəli kərimovçular



**Elşad MƏMMƏDLİ**

**Məmləkətimizin çoxlu problemləri var. O cümlədən, siyasi arenada da vəziyyət ürəkaçan deyil. Xüsusi ilə siyasi qüvvələrin bir-biri ilə davranışları, iqtidar-müxalifət münasibətləri, hətta müxalifət partiyalarının daxilində baş verənlər düşüncələri məşğul etməyə bilmir. Təbii, söhbət ictimai-siyasi həyatda olub da düşünənlərdən gedir.**

Hələ illər öncə bu qənaətə gəlmişəm və bunu yazılarımda da qeyd etmişəm ki, bizim ölkəmizdə problemlər təkcə hakimiyyətlə bağlı deyil. Ya mental xüsusiyyətlər səbəbindən, ya da uzun illər aparılan siyasət nəticəsində bütövlükdə cəmiyyətimiz "xəstədir". İstər məişət məsələlərində, istər ictimai münasibətlərdə, istərsə də siyasi münasibətlərdə anormal yanaşmaların şahidi olmaqdayıq. Ona görə də ilk növbədə bütün qütblərdə təfəkkürlər dəyişməlidir...

Hələlik bu olmadığından siyasi səhnədə "xəstəliklər" getdikcə kəskinləşir, sağalmaz bir hala düşdüyü təəssüratı yaradır. Baş verənlər göstərir ki, hər kəsdən ədalət, barış, dialoq tələb edənlərin özlərinin bu yöndə daha ciddi problemləri var.

Elementar bir nümunə; bir neçə gün öncə sabiq millət vəkili, Müsavat funksioneri İkram İsrafil övladına toy elədi. Onun oğlunun şad gününə 5 il Milli Məclisdə birgə olduqları YAP-çı deputat Aydın Mirzəzadə də qatılmışdı. Çox sevindirici bir hal idi; baxışlarından asılı olmayaraq siyasi qüvvələrin bir-birinin xeyir-şərində iştirak etmək ənənəsinin qoyulması üçün ilk nümunə sayıla bilər bu hadisə. Neçə illərdir müxalifətçilər, yazarlar belə bir mühitin formalaşmasına dair çağırışlar edirdilər. Buna dair Türkiyə nümunəsi göstərilirdi ki, orada iqtidarda olanlarla müxalifətdə olanlar məsələn, xəstələnəndə bir-birinə zəng edib "keçmiş olsun" deyir, yaxınlarının yasına başsağlığı verməyə gedirlər, töy-düyünlərinə qatılırlar.

Ölkəmizdə belə bir nümunə yaşananda isə görün nə baş verdi; Müsavatçılar Aydın Mirzəzadə ilə şəkil çəkdirib yaydılar, dərhal Əli Kərimlinin ətrafındakı adamlar sosial şəbəkələrdə "hücuma" keçdilər ki, "siz busunuz", "xəyanət edirsiniz", "elə bu cür olmaq istəyirdiniz", "iç üzünüz açıldı" və sair sayıqlamalar. Aydın Mirzəzadənin də ünvanına deməadikləri söz qalmadı. Yeri gəlmişkən, özü də bu həmin Aydın Mirzəzadədir ki, deputat Etibar Hüseynov Əli Kərimlinin monopoliyasında olan Milli Şuranın mitinqinə gedənləri "qoyun" adlandıranda, onun bu açıqlamasını tənqid etmişdi. Demişdi ki, siyasi mövqeyindən asılı olmayaraq kimsəni mitinq etdiyinə görə belə təhqir etmək olmaz...

YAP-çı deputatla birlikdə toyda iştirak etməyi "xəyanət" adlandıranlar həmin adamlardır ki, hakimiyyətdən demokratiya tələb edirlər, iqtidarı dialoqdan qaçmaqda suçlayırlar, "milli barış" deyib qiyyə çəkirlər. Təsəvvür edin, demokratik dünyada elementar məişət prosesi hesab olunacaq bu hadisəni bir dəstə "demokrat" "xəyanət" adlandırır, yolverilməz sayır. Bu adamlar özlərini radikal təmayüllü dini qruplar, məsələn, İŞİD üzvləri kimi aparırlar; "əgər mənimlə deyilsənsə, mənim kimi düşünmürsənsə, sənin başını kəsərik" təhdidi ilə bu cür şantajın heç bir fərqi yoxdur. Görünür, ölkədə münasibətlərin daim gərgin qalması, cəmiyyətin sağalmağa doğru getməsi Əli Kərimlinin "silahsız qruplaşması"na sərf etmir. Pozitivləri də neqativ kimi təqdim etməyə çalışmaqla, əlində bir vedrə çamur dayanıb gəlib-gedənin üstünə ləkə atmaqla bu adamlar hara getmək istəyir?

Bir anlıq təsəvvür edin ki, bu düşüncəli adamlar hakimiyyətə gəliblər. Nə baş verəcəyini yəqin etmək o qədər də çətin deyil. Elə yaşam şərtləri qoyarlar ki, biz hətta elə bunu təsəvvür etdiyimiz andan indiki iqtidara şükür etməli olarıq.

**Bu düşüncənin, təfəkkürün sahibləri sonra da yekə-yekə danışıb deyirlər ki, xalq arxamızca gəlmir... Müsavatçının toyuna gələn YAP-çını qovmağı tələb edənlərin arxasınca heç kimin gəlməyəcəyini belə düşünə bilmir bu adamlar...**

YENİ MÜSAVAT
N 260 (5969) 22 oktyabr 2014



# Həmdulla arvadını necə baltaladı

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud barıt anbarında ehtiyatla işləmək lazımdır

**Fövqəladə Hallar Nazirliyi təxribatla məşğuldur. Buyurun, dünən mətbuata verdikləri açıqlama ilə özünüz tanış olun: "Ötən ilin müvafiq dövrünə nisbətən bu il Azərbaycanda partlayışların sayı 17 faiz artmışdır".**

Birincisi, burda "müvafiq" sözünü "uyğun" sözü ilə əvəz etməyin vaxtı çoxdan çatmışdır. Hətta AzərTAc bu il "mışdır", "mişdir", "muşdur" şəkilçilərindən rəsmi fərmanla imtina eləmişdir, ancaq bəziləri yenə də bu zəhləmgetmiş "müvafiq" sözünü yazırlar. Bu sıraya "müvəffəqiyyət" (uğur), "cari" (indiki) sözlərini də əlavə etsək dəhşətli mənzərə yaranır, insan başa düşmür ona başçılıq edənlər hansı dildə danışırlar.

Nazirlər Kabinetini də çoxlu qınayırıq, onun orfoqrafiya (düzgün yazı) qaydalarına görə respublikamızda Baş Nazir və Prezident sözləri böyük hərflə yazılmalıdır.

Əcaib qaydadır. Yaxşı, Prezidenti başa düşdük, böyük hərflə yazmasaq bizi əfv eləməz, bəs baş naziri mən niyə böyük hərflə yazmalıyam? Xeyir ola? Üstəlik, kimisə böyük hərflə yazmaq üçün gərək onun özünü tapasan. "Görmədiyin bir zad, insana böyük görünməz". Əməllicə aforizm alındı. Gərək belə qızıl sözlərimdən bir "Afyorizmlər" kitabı qayırım.

Əfv demişkən, son əfv sərəncamında buraxılan bir-iki nəfərin işi bir az tragikomikdir. Çox uzatmadan misalla yazacağam: hesab elə ki, hökumət 2 nəfəri tutur, onları içəridə döyüb ifadə alır, sonra həmin ifadənin əsasında 6 nəfəri tutur. Sonra isə əfv verib 2 nəfəri buraxır, ancaq 6 nəfər içəridə qalır. Halbuki, "cinayət"in əsas vasitə və alətləri guya bu 2 nəfərin evindən tapılmışdı!

Bəlkə də ədalət sistemimizin növbəlilik prinsipinə uyğun davranıblar: sonra da ikinci pillə əfv olunacaqdır. Nə biləsən... Hər halda, mən burdan keçmiş NİDA-çı Bəxtiyar Quliyevə salamlarımı göndərirəm, istəyirəm bilsin ki, ürəyim onun yanındadır, hər yoldan ötənin tənqid və təhqirlərini də vecinə almasın. Onun "Uzun müddət bağlı otaqda qaldığımdan həbsdən çıxandan sonra pilləkənləri qalxmaqda çətinlik çəkirəm" cümləsi isə zindan mövzusunda əsl ədəbiyyat idi. Həyat bizim yazıçılardan min kilometr qabaqdadır, ona görə bir maraqlı kitab yoxdur oxuyasan.

Qayıdaq partlayışların yanına, yoxsa bizdən inciyərlər.

İkincisi, FHN-in açıqlamasında söhbətin hansı partlayışlardan getdiyi göstərilibdir, ancaq kimdir buna diqqət edən? Bizim camaat güc-bəla başlığı oxuyub nəticə çıxardır, hövsələ yoxdur mətnə-zada girməyə. Sürət əsrində yaşayırıq. "Həmdulla arvadını baltaladı" başlığının "Umberto Ekonun əsərlərində konseptual tarixi yanaşmalar" mətnindən çox oxunduğu dövrə girmişik. Bu baxımdan, camaat xəbərdə söhbətin qaz sızmasından və sairə məişət cihazlarında partlayışlardan getdiyini oxumayacaq, elə zənn edəcək, misal üçün, sosial partlayışlardan bəhs olunmuşdur.

Halbuki, bu il ana vətənimizdə elə bir sosial partlayış da yoxdur, ağlınız 2013-cü ilə getməsin. O il nəsə ağır gəlmişdi, hər yer od tutub yanırdı, nəticədə siyasi dustaqların sayı artdı. Ancaq bu il millətin başı siyasi dustaqları əfvə saldırmağa qarışdı, maşallah, sabitliyin üzərindən yel belə əsmədi. Bu da onu göstərir ki, partlayışların qabağını almaq üçün çoxlu adam tutmaq lazımdır. Alovu palaza bürümək kimi bir şeydir.

Gərək FHN də xəbər verəndə bu cür palazlama üsullarından yararlansın, millətin ürək-göbəyini qopartmasın. Yoxsa neftin qiyməti düşür, hələ bizi Neft Fondunun qışda əriməsi kimi anomal təbiət hadisələri gözləyir. Yas yerlərindəki ehsanları da Avropa oyunlarına yönəltmişik, bu da o yandan partlayış söhbəti eləyir...

# Qubad İbadoğlu Müsavatdan cavab gözləyir

## "Onlar başa düşmürlər ki, mənim tərəfdarlarım partiyadan kənarlaşssa..."

**Müsavat Partiyasının başqanlıq seçkisindən bir aya yaxın vaxt keçsə də, tərəflər arasında mübahisə səngimir. Keçmiş namizədlərdən Qubad İbadoğlu partiyaya göndərdiyi müraciətinə cavab gözləyir. On gündən artıqdır ki, müraciət ünvanlayan Q.İbadoğlu bildirir ki, müraciətinə uzağı bir ay müddətinə cavab verilməlidir. O, bu müraciətlə bağlı partiya rəhbərliyi tərəfindən ona göndərilən sorğuya oktyabrın 21-də cavab göndərib.**

Bu barədə Musavat.com-a danışan Q.İbadoğlu qeyd edib ki, sorğunun cavabını hazırlayıblar, eyni zamanda müxtəlif videolar, əlavə dəlillər və sübutlar da partiyanın nəzarət-təftiş komissiyasına təqdim olunub: "Əvvəl müraciətimizi qəbul etmirdilər ki, imza yoxdur, imzaladıq. Sonra dedilər ki, məktub formasında yazılmalıdır, məktub formasına saldıq. On gündən çoxdur müraciət göndərilib, cavab gözləyirik".

**Q.İbadoğlu Məclis üzvü Osman Kazımovun partiyada təmizləmə aparmaqla bağlı təklifinə də münasibət bildirib.** "Bu, nə açıqlamadır? Müsavat Partiyası bir ay içində çirkləndi ki, təmizləmə vacib oldu? Müsavatda illərlə mücadilə edən, illərlə mübarizə aparan əqidə yoldaşlarına qarşı hesab edirəm ki, belə münasibət yolverilməzdir. Onsuz da partiyadan bir qrup ayrılır, istefalar var, bu halda partiyadan Arif Hacılı qucaqlaşmağı təklif edir və onun yaxın tərəfdarlarından biri isə partiya üzvlərinin partiyadan çıxarılmasına, eyni zamanda, hətta mənim istefa verməyimə çalışırlar. Onlar başa düşmürlər ki, mənim tərəfdarlarım partiyadan kənarlaşssa, partiyanın ən azı yarısı orada qalmayacaq. Amma bizim partiyadan kənarlaşmaq fikrimiz yoxdur. Müsavat Partiyası bir şəxsin, bir ailənin, bir qrupun, bir dönəmin partiyası deyil. Partiya onun üzvlərinə məxsusdur və bu gün orada gedən müzakirələr də daxili demokratiyanın təzahür formalarıdır. Mən öz tərəfdarlarıma dəfələrlə müraciət etmişəm ki, heç kəs partiyanı tərk etməsin. Müsavat Partiyasının yeniləşməsi və güclənməsi uğrunda mübarizəni davam etdirmək əzmindəyik".



Qubad İbadoğlu

**Narazı namizəd qeyd edib ki, onlar seçki ilə bağlı qanun pozuntuları barədə partiya rəhbərliyinə ünvanladıqları müraciətlərinə tələb olunan vaxtda- yəni bir ay müddətinə cavab verilməsini gözləyirlər. Həmçinin bir müddət əvvəl partiyanın güclənməsi üçün irəli sürdükləri təkliflərin də partiya rəhbərliyi tərəfindən dəstəklənməsini gözləyirlər:** "Biz həmin təkliflərlə bağlı hansısa tədbirlərin görülməsi ilə bağlı monitorinqlərimizi davam etdiririk. Hələ ki, bir ay müddətinə müraciətimizə cavab verilməsini gözləyirik. Cavabdan sonra tərəfdarlarımızla məsələni bir daha müzakirəyə çıxaracağıq. O cavabı gözləyirik. Bundan sonra addımlarımızı müəyyənləşdirəcəyik". O, tərəfdarlarının fraksiya təkliflərini müzakirə edəcəyini də istisna etməyib.

❑ **Röya RƏFİYEVA**



# Erməni-fars dostluğunun qorxunc uzantıları... - Şərh

## İranın işğalçı ölkəyə illərdir qucaq açması təkcə Qarabağ probleminin həllini əngəlləmir, bölgədə ədalətli sülhü və tərəqqini də əlçatmaz edir; Azərbaycanı İsraillə yaxınlıqda suçlayan Tehran öz gözündəki tiri nə vaxt görəcək, Ruhani qondarma soyqırımın 100 illiyinə İrəvana gedəcəkmi?

**"Dindaş və qardaş İran"ın təcavüzkar Ermənistana illərdir isti münasibətdə olması, ona qucaq açması yeni məsələ deyil. Bir sıra analitiklər rəsmi Tehranın bu siyasətini vaxtilə Azərbaycanın müstəqilliyini 8-ci sırada tanımış bir dövlətin - İranın həm də ölkəmizə münasibətdə yürütdüyü siyasətlə əlaqələndirirlər.**

Hesab edilir ki, cənub qonşumuz bununla Rusiya kimi Azərbaycanla Ermənistana öz təzyiq rıçaqlarını saxlamaq niyyəti güdür, üstəlik, Güney amilinə görə Azərbaycan Respublikasının Qarabağ yükündən qurtulub daha da güclənməsini arzulamır. Əlqərəz, ümmət yox, millət-dövlət maraqlarını üstünlük verir.

Hər halda, sübuta ehtiyacı olmayan həqiqət belədir ki, əgər "dindaş və qardaş", hətta məzhəbdaş İran qardaş Türkiyə kimi işğalçı ilə sərhədləri bağlı saxlasaydı, İrəvan üçün yeganə "nəfəslik" rolunda olmasaydı, sonuncu çoxdan təngnəfəs olub ədalətli sülhə gələr, böyük bir bölgənin normal inkişafı önündə əsas əngəl götürülərdi.

Sonuncu qənaət qonşu Ermənistanın baş naziri Ovik Abramyanın təzəcə başa çatan İran səfəri ilə bir daha öz parlaq təsdiqini tapmış oldu. Belə ki, Abramyan Tehranda gözlənildiyindən də isti qarşılandı, cırtdan və marionet bir ölkənin baş nazirinə prezident səviyyəsində sayğı göstərildi, hətta şəkildən göründüyü kimi, vitse-prezident İshaq Cahangirinin müşayiəti ilə onun şərəfinə fəxri qarovul (!!!) düzüldü.



Burdaca vurğulayaq ki, belə təntənəli qarşılanma mərasimi parlamentli və nüfuzlu ölkələrin (misal üçün, Türkiyənin) baş nazirləri üçün təşkil edilir. Onu da yada salaq ki, öncələr Serj Sərkisyanın, digər yüksək çinli erməni məmurlarının şərəfinə belə isti qəbullar düzənlənib.

Kəsəsi, bizim cənub qonşumuz kiçik fürsətdəcə sanki Azərbaycanın, Türkiyənin acığına erməni-fars dostluğunu xüsusi qabartmağa çalışır. Təbii ki, Ovik Abramyan da istisna olmadı. Təsadüfi deyil ki, o, prezident Həsən Ruhani tərəfindən də isti qarşılanıb. Musavat.com-un xəbərinə görə, görüş zamanı tərəflər iki ölkə arasında əlaqələrin mövcud vəziyyətindən və dinamik inkişafından məmnun qaldıqlarını, bu əlaqələri daha da dərinləşdirmək əzmində olduqlarını bildiriblər. Eyni zamanda müxtəlif iqtisadi və energetik sahələr, məxsusən neft-qaz sferası üzrə ortaq proqramları həyata keçirməyə hazır olduqlarını qeyd ediblər.

Ermənistan baş naziri görüş zamanı həmçinin, gələn il 100 illiyinin tamam olacağı iddia edilən saxta erməni soyqırımı ilə bağlı Serj Sərkisyanın İrəvana dəvət məktubunu Həsən Ruhaniyə çatdırıb. Dəvət qəbul edilib və böyük ehtimalla reallaşacaq - buna da şübhə qalmır.

Sadalananlar, o sırada həmçinin "100 illik yubiley"də iştirak məsələsi şübhəsiz, vaxtaşırı Azərbaycanla dostluqdan dəm vuran Tehran rəsmilərinin Bakıya (paralel surətdə qardaş Türkiyəyə) xoş olmayan mesajlarıdır.

Əlbəttə ki, deyilə bilər ki, bu, müstəqil dövlət kimi İranın öz daxili işidir, dost-rəqibləri seçməkdə o sərbəstdir. Amma.... Əmması da odur ki: 1: İran illərdir ümmət maraqlarının təmsilçisi, müsəlman torpaqlarının işğalına qarşı çıxan böyük dövlət kimi özünü təqdim edir. 2: Özünün Ermənistanla yaxınlığını Azərbaycan iqtidarını "sionist İsrail"lə müttəfiqliyə bir növ cavab kimi ortaya atır.

Ancaq Ermənistandan fərqli olaraq yəhudi dövləti Azərbaycan torpaqlarını işğal eləməyib, əksinə, bu işğala son qoyulması üçün Azərbaycanın hərbi qüdrətinin güclənməsinə yardım edir. Bununla belə, Azərbaycan rəsmiləri İsrailli həmkarları ilə tutaq ki, İrana acıq vermək üçün heç vaxt qucaqlaşıb öpüşmürlər. Fəxri qarovul düzülməsindən isə söhbət belə getmir.

***

**Görən, qardaş və dindaş İran öz gerçəyi yaxşı görmək üçün öz gözündəki tiri nə vaxt götürəcək?**

❑ **Siyasət şöbəsi**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 260 (5969) 22 oktyabr 2014

# Prezidentlərin Paris görüşü ərəfəsində düşmən təxribatları

## Bakı Avropa Parlamentindəki qondarma "Dağlıq Qarabağ Qrupu"na rəhbərlik edən deputatın cəzalandırılmasını istədi

**Ermənistan prezidenti Serj Sərkisyan oktyabrın 26-da Azərbaycan prezidenti İlham Əliyevlə görüşmək üçün Parisə səfər edəcək. Ermənistanın "Haykakan Jamanak" qəzetinə istinadən xəbər verir ki, Serk Sərkisyan Parisdə Fransa prezidenti Fransua Ollandın vasitəçiliyi ilə keçiriləcək üçtərəfli görüşdə iştirak edəcək. Lakin qəzet Sərkisyan-Olland-Əliyev görüşünün hansı gündə - oktyabrın 26-da, yoxsa 27-də keçiriləcəyini dəqiqləşdirə bilməyib (modern.az). Bu arada rəsmi Paris görüş ərəfəsi müşahidə olunan təxribatlara reaksiya verib. Söhbət Fransanın rəsmi şəxslərinin Dağlıq Qarabağa qanunsuz səfərindən gedir. "Bəzi yerli özünüidarəetmə orqanlarının təşəbbüsləri Fransanın mövqeyini heç cür dəyişmir".**







### **Mübariz Əhmədoğlu:** "Minsk Qrupunun vasitəçiliyi böyük rüsvayçılıq qarşısındadır..."

Fransa Xarici İşlər Nazirliyinin mətbuat katibi mətbuat konfransı zamanı Fransadan bəzi şəhər merlərinin Dağlıq Qarabağa səfərlərini şərh edərkən deyib. O bildirib ki, Fransa Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımır və ATƏT-in Minsk Qrupunun həmsədri olmaqla, münaqişənin siyasi və diplomatik həlli yolunu tapmağa tamamilə sadiqdir: "Minsk Qrupu çərçivəsində və danışıqlara yeni təkan vermək üçün Fransa prezidenti may ayında Bakıya və İrəvana etdiyi səfəri zamanı öz erməni və azərbaycanlı həmkarlarına münaqişənin həlli yollarını müzakirə etmək üçün bu payız Parisdə bir araya gəlmələrini təklif etmişdi".

Qeyd edək ki, rəsmi Bakı birmənalı olaraq bu kimi səfərləri pisləyir və səfər edənləri "qara siyahı"ya salır. "Minsk Qrupunun vasitəçiliyi böyük rüsvayçılıq qarşısındadır və onun xilası yalnız Rusiyanın əlindədir". Bunu Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu 21 oktyabrda keçirdiyi mətbuat konfransında deyib. Politoloq bildirib ki, Ermənistanın Avrasiya İqtisadi Birliyinə üzvlüyü nəyin və kimin hesabına baş tutması hamıya, xüsusilə avropalılara yaxşı bəllidir: "Rusiya prezidenti Vladimir Putin Ermənistan prezidenti Serj Sərkisyanı Moskvada bir gecə yubatmasının ardından, səhəri gün erməni prezident özü ölkəsinin Gömrük İttifaqı və ya Avrasiya İqtisadi Birliyinə qoşulmasını xahiş etdi. Avropalılar isə Ermənistanın Aİ-nin "Şərq tərəfdaşlığı" proqramına qoşulacağına, dair assosiativ müqaviləni imzalayacağına hazırlaşmışdılar. Belə ki, adı çəkilən müqavilə tam hazırlanmış və paraflanmışdı. Müqavilədən son anda imtina edən Ermənistan bununla da Aİ-nin "Şərq tərəfdaşlığı" proqramının iflasının təməlini qoydu. Həmin iflas sonda Ukraynanın parçalanması ilə nəticələndi. Ukrayna parçalandıqdan sonra Aİ assosiativ müqavilənin Ukrayna ilə imzalanmış hissəsini dondurdu. Ukrayna yalnız 2016-cı ilin 1 yanvarından sonra bu mövzuya qayıda bilər".

M.Əhmədoğlunun sözlərinə görə, Ermənistan istənilən anda Rusiyanın əmri ilə Gürcüstana hücum edə bilər: "Əgər öz mənfəətini rəsmi Moskvanın əmri ilə rədd edibsə, demək Rusiyanın istənilən əmrini yerinə yetirməyə məhkumdur. Avrasiya İqtisadi Birliyinə daxil olma barədə müqaviləni Minskdə imzalayarkən S.Sərkisyan şərəfinə and içdi ki, bu müqaviləni olduğu kimi yerinə yetirəcək. Rusiya, Qazaxıstan və Belarus liderləri S.Sərkisyanın ikibaşlı oyunlarını, vədə naxələf çıxmasını bildikləri üçün ona and içdirdilər. Elə həmin gündən bir az əvvəl MDB sammitinin iclasında S.Sərkisyan Rusiya ilə hərbi əməkdaşlığın Ermənistan üçün vacib olduğunu bildirdi. O, indiki mərhələdə hərbi əməkdaşlığı sərhədlərin təhlükəsizliyi ilə əlaqələndirdi" (Trend)

Politoloq hesab edir ki, dörd ölkə ilə əhatələnmiş Ermənistanın Türkiyə və İranla sərhədini Rusiya qoruyur; heç bir problem yoxdur: "Rusiya qoşunlarının həmin sərhədlərdə dayanması heç vaxt müzakirə mövzusu olmayıb. Rusiya Ermənistanın sərhəd təhlükəsizliyi dedikdə, bu ölkənin daha iki qonşusu-Gürcüstan və Azərbaycan ilə sərhədini öz nəzarətinə almasını nəzərdə tutur. S.Sərkisyan MDB sammitindəki çıxışında ona razılığını verdi. Məsələnin çoxdan gündəlikdə olmasına baxmayaraq, proses yaxın vaxtlar da başlayacaq.

Ermənistan Təhlükəsizlik Şurasının sədri A. Baqdasaryan istefa verməsəydi, RF-in "Russərhəd" xidməti may ayında hər şeyi həll edəcəkdi. Deməli, Ermənistanın Gürcüstan sərhəddi vasitəsilə Aİ ilə əlaqələri Rusiya tərəfdən koordinasiya olunacaq. Həmçinin Ermənistan ilə Dağlıq Qarabağ arasındakı gömrük və sərhəd-keçid məntəqəsinə də Rusiya hərbçiləri vasitəsilə nəzarət olunacaq. Bir az gözləmək lazımdır: bütün bunlar göstərir ki, 2013-cü ilin 3 sentyabrından sonra Ermənistan Rusiyanın qarşısında daha müti və sözəbaxan olub. İndi ABŞ və Rusiya arasında kəskin geosiyasi mübarizə gedir. Bu mübarizə ATƏT MQ vasitəçiliyinə də sirayət edib".

Ekspertin sözlərinə görə, ABŞ V.Putinin təşəbbüsü ilə keçirilmiş prezidentlərin Soçi görüşünün statusunu və əhəmiyyətini aşağıladı. Belə olan təqdirdə Rusiya istənilən vaxt ABŞ-a cavab verə bilər: "Birinci variant Rusiyanın MQ həmsədrliyindən imtina etməsidir. Bununla da MQ ömrünü başa vurur. Nəticədə ABŞ-ın Rusiyaya qarşı təzyiq müstəvilərindən biri aradan qalxır. İkinci variant Ermənistanın MQ vasitəçiliyindən imtina etməsidir. Ermənistan bunu könüllü etməyəcək. Belə ki, MQ-nin konsensus mexanizmi Ermənistanın əlində tənzimləməni tormozlayan ən böyük alətdir. Buna baxmayaraq, Rusiya Ermənistana MQ-dən imtina etməyi əmr etsə, Ermənistan bu əmri də yerinə yetirməyə məcburdur. İndiki dövrdə MQ-nin fəaliyyətinin dayandırılması bu qurum üçün ən böyük rüsvayçılıqdır. Qəribə burasıdır ki MQ özünü bu rüsvayçılıqdan xilas etmə mexanizminə malik deyil. Xilasetmə mexanizmi Rusiyanın əlindədir".

"Dağlıq Qarabağ probleminin həlli istiqamətində artıq Rusiyadan nəsə gözləməkdən keçib". Bunu isə ADİP sədri, deputat Asim Mollazadə Dağlıq Qarabağ probleminin həllində maraqlı ölkələrin rolunu şərh edərkən deyib. O bildirib ki, ABŞ və AB dəfələrlə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı maraqlı olduqlarını ifadə ediblər: "AŞ PA-nın və AP-nin münaqişə ilə bağlı müvafiq qətnaməsi var. Bir sıra Avropa ölkələrinin parlamentləri Azərbaycanın işğal olunmuş əraziləri, etnik təmizləmə və yüzminlərlə qaçqın soydaşımızla bağlı qətnamə qəbul edib. Minsk Qrupunun həmsədri kimi daha çox ABŞ münaqişənin həllinə səy göstərib. Bir amil hər zaman nəzərə alınmalıdır ki, Ermənistan bu proseslərdə ancaq danışıqların imitasiyasını həyata keçirir. Dağlıq Qarabağ münaqişəsinin həlli fonundakı siyasəti və roluna görə Ermənistan müstəqilliyini itirmiş və hərbi pafosa çevrilmiş bir ölkədir. Müstəqil qərarlar vermək imkanına malik olmayan bir ölkənin bu məsələdəki rolu daha çox İrəvanın havadarından asılıdır. Rusiya problemin həllində önəmli addım atmaq istəyərsə, çox asanlıqla Ermənistanı sülhə məcbur edə bilər. Lakin bu, baş verməyəcək. Çünki artıq məsələnin həllində çıxış yolu kimi Rusiyadan hər hansı bir addım gözləməkdən keçib. Buna görə də problemlə bağlı yaxın 10 ildə nəsə ciddi bir irəliləyiş gözləmirəm. Ancaq məndə olan çox ciddi məlumatlara əsasən deyə bilərəm ki, Dağlıq Qarabağ münaqişənin həllində yaxın gələcəkdə Rusiya yox, başqa ölkələr nəsə etsin" (axar.az).

***

Bu arada əl atılan növbəti təxribat Avropa Parlamentində qondarma "Dağlıq Qarabağ Qrupu"nun yaradılması ilə bağlı da Bakıdan etiraz bildirilib. Azərbaycanın Avronest-də Nümayəndə heyətinin rəhbəri, deputat Elxan Süleymanov Avropa Xalq Partiyasının sədri Cozef Daul, Avropa Parlamentində EPP Qrupunun sədri cənab Manfred Veberə və digər şəxslərə müraciət edib. Müraciətdə deyilir: "EPP üzvü və Azərbaycanda EPP dəyərləri və fikirlərinin təşviqatçısı kimi, digər üzv - AP deputatı cənab Frank Engelin rəftarı və bəyanatlarını diqqətinizə çatdırmaq və təəssüfümü bildirməyi özümə borc bilirəm. Lüksemburqda EPP nümayəndə heyətinə rəhbərlik edən cənab Engel bu yaxında Avropa Parlamentində qondarma "Dağlıq Qarabağ Qrupu"na rəhbərlik etmək barədə qərar verib. O, öz hərəkəti ilə həmin ərazilərin qondarma hakimiyyətini dəstəklədiyini, eləcə də AP deputatlarının və avropalı siyasətçilərin həmin əraziyə səfərlərini təşkil etdiyini və bundan sonra da edəcəyini açıq-aydın bəyan edir. Bir neçə faktı qeyd etməliyik. Dağlıq Qarabağ Azərbaycanın digər yeddi rayonu ilə birlikdə iyirmi ildən artıqdır ki, Ermənistan qoşunları tərəfindən hərbi işğal edilib. İşğal dünyanın bütün beynəlxalq təşkilatları tərəfindən pislənib və bu qondarma rejim dünyanın heç bir dövləti tərəfindən tanınmayıb". "KarabakhİNFO.com"un xəbərinə görə, E.Süleymanov yazıb: "Azərbaycan ərazisində formalaşdırılmış bu qeyri-legitim rejimə hazırda o ərazini işğal altında saxlayan Ermənistan hərbi hissələrinin köməyi ilə səfər cinayət sayılır. Ölkənin ərazi bütövlüyünün bu şəkildə pozulmasına kömək və ya hətta bunun təşviqi ən azı beynəlxalq hüququn, eləcə də EPP Partiyası və Qruplarının prinsiplərinin pozulması halı hesab edilməlidir. Bu, Ukraynada böhranın davam etdiyi bir vaxtda Cənubi Qafqazda münaqişə və müharibənin təşviqi kimi başa düşülə bilər. Cənab Engel Dağlıq Qarabağı açıq şəkildə "demokratik respublika" adlandırıb. Bu ərazi Ermənistanın faktiki olaraq zorakı təcavüz və 1992-ci il Xocalı soyqırımı kimi qırğınlar vasitəsilə təsis etdiyi hərbi eksperimentidir.

Mən EPP-nin üzvü kimi, belə açıq mühakiməni və rəftarı sırf partiyanın və Avropanın müxtəlif institutlarındakı strukturlarının müdafiə etdiyi bütün dəyərlərin kobudcasına pozulması hesab edirəm. Cənab Engelin Avropa Parlamentində Lüksemburq nümayəndə heyətinin rəhbəri vəzifəsindən müharibəni, ərazi işğalını təşviq etmək və qırğınları və insan hüquqları pozuntularını adiləşdirmək üçün istifadə etməsi məni qorxudur. Sizdən cənab Frank Engeli dərhal məzəmmət etməyinizi və EPP ilə əlaqəli bütün strukturlardan çıxarmağınızı xahiş edirəm. Eyni zamanda EPP-nin özünü cənab Engelin verdiyi bəyanatlardan açıq şəkildə uzaq tutmasını və üzvlərini belə hərəkətləri dəstəkləməkdən çəkinməyə çağırmasını vacib hesab edirəm".

**Ermənilərin və ermənipərəstlərin təxribatı bununla bitmir. Bu arada Moskvanın diktəsi ilə Ermənistanın da iştirak etdiyi hərbi təlimlərə başlanılması nəzərdə tutulur. Eyni zamanda Xankəndində azərbaycanlı iki girovun - Şahmaz Quliyev və Dilqəm Əsgərovun da məhkəməsi məhz prezidentlərin görüş gününə təyin olunub. Paralel olaraq Ermənistan qondarma "soyqırım"ın 100 illik tədbirlərinə hazırlıqlara başlayıb, hətta İran prezidenti Ruhaniyə də dəvət göndərib. Görünən budur ki, Ermənistanın Türkiyə və Azərbaycana münasibəti dəyişənə oxşamır. Deməli, qarşıdakı görüşdə də ədalətli sülhün əldə olunacağına inam bəsləməyə dəyməz.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 260 (5969) 22 oktyabr 2014

# Tikinti şirkətlərinin ağlagəlməz fırıldağı

## Müştərilərin necə aldadıldıqları haqda təfərrüatlar

**Azərbaycanda tikilən yeni çoxmərtəbəli binalarda vətəndaşlara qarşı dələduzluqların edilməsilə bağlı məlumatlara tez-tez rast gəlirik. Bu dələduzluqlar daha çox bir mənzilin bir neçə şəxsə satılması yolu ilə həyata keçirilir. Məsələ ilə bağlı saysız-hesabsız məhkəmə işləri və həbslər var. Dünən isə AzNews.az saytı yeni tikilən binalarda başqa ağlagəlməz dələduzluqların üstünü açan faktlar yayıb. Əgər, bir mənzilin bir neçə şəxsə satılması faktlarına müəyyən şirkətlərdə rast gəlinirdisə, üstü açılan dələduzluqların bütün tikinti şirkətləri tərəfindən həyata keçirildiyi vurğulanır. Söhbət mənzillərin sahəsində vətəndaşların aşıq-aşkar aldadılması, bununla da tikinti şirkətlərinin qeyri-qanuni yolla milyonlarla vəsait əldə etməsindən gedir.**

Belə ki, araşdırma zamanı məlum olub ki, bütün “novostroykalarda” bütün mənzillərin müqavilədə göstərilən kv.metrlə real sənəd arasında kəskin fərq olur. Mənzilin sahibi bu fərqi görüb şirkətə müraciət etdikdə isə şablon cavablar alır. Onlara bildirilir ki, mənzil yaşayış hissəsinə aid olmayan çöl hissədən ölçülərək hesablanır Məlum olur ki, hər mənzilin ölçüsündə sənəddə göstərilən sahədən 7, 8, 9, 10 kv.metr bəzi mənzillərdə isə daha çox əskiklik yaranır. Mənzillərin sahələri böyüdükcə fərqlər də böyüyür.

Belə olan halda şirkət ümumi yaşayış sahəsindən əskik olan hər kv.metrin qiymətini də müştərinin hesabına çıxarır. Bakıda ən ucuz mənzilin bir kv.metrinin 650 manat olduğunu nəzərə alsaq o zaman mənzilin sahəsindən asılı olaraq 10 kv.metrin müştəriyə nə az, nə çox 6500 manat ziyana başa gəlir.

Belə bir faktı tikinti şirkətlərinin özləri də təsdiqləyiblər. **AAAF yaşayış kompleksində** satışa çıxarılan ən kiçik ölçülü mənzilin 45 kv.metr olduğunu sayta açıqlayan şirkətin satış üzrə meneceri sənəddə mənzilin ölçüsünün fasaddan hesablandığını və bu səbəbdən də əsas yaşayış sahəsinin 5-7 kv. metr az olduğunu təsdiqləyib.

**“Akkord” Şirkətlər Qrupundan** da müştərilərə satılan mənzillərin sahəsinin sənəddə göstəriləndən az olduğunu təsdiqləyiblər. Qeyd olunur ki, məsələn, şirkətin Abşeronda sənəddə 85 kv.metrlik 3 otaqlı mənzilinin əslində əsas yaşayış sahəsi 70 kv. metr, Xırdalanda satışa çıxardığı 2 otaqlı mənzilin sahəsi sənəddə 99 kv.metr göstərildiyi halda evin daxili ölçüsü 90 kv.metrdir. Beləcə, müştəri əslində 70 kv.metr olan mənzilə 85 kv.metrin pulunu ödəyir. Kvadratmetri 750 manata satılan yeni mənzilə daxil olmayan 15 kv.metr sahə alıcıya 11 250 manata başa gəlir.

**“Fateli” tikinti şirkətinin satış meneceri Ramiz Əliyev** də müştərilərdən belə şikayətlərin tez-tez gəldiyini söyləyib. Onun sözlərinə görə, ümumiyyətlə son illər şirkətlərin hamısı müştəriyə fasaddan hesablanmış ölçüdə mənzillər təklif edir. Yəni mənzilə aid olmayan sütunlar, divarlar da mənzilin sənədində nəzərə alınır. Bir sözlə, şirkət divara, mənzilə aid olmayan hissələrə çəkdiyi xərci müştərinin hesabına çıxarır.



**NBA Consalting şirkətinin direktoru Nüsrət İbrahimov** bildirib ki, əslində mənzilin sənədində əsas yaşayış sahəsi göstərilməlidir. Ekspertin sözlərinə görə, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti çıxarışda və texniki pasportda hansı sahəni yazırsa o sahədən çıxış olunmalıdır. O cümlədən Mənzil Məcəlləsində də qeyd olunub ki, faydalı sahə satış predmeti olmalıdır.

N. İbrahimov deyir ki, tikinti şirkəti tərəfindən aldadıldığı halda müştərinin şirkəti məhkəməyə vermək haqqı var.

Belə hallarla tez-tez rastlaşdığını bildirən ekspert bildirib ki, müştərinin məhkəməni udduğunu və tikinti şirkətinin yaşayış sahəsinə aid olmayan kv. metrə görə müştəridən aldığı məbləği geri qaytardığı hallar olub.

**Hüquqşünas Vaqif Hacıbəyli** isə facebook səhifəsində sözügedən problemin ciddiliyindən yazıb və vətəndaşlara hüquqi məsləhətlər verib: “Çox ciddi problemdir. Divar altını, bəzən hətta "şaxta"ların sahəsini də yaşayış sahəsi kimi satırlar. Qanunla balkonlar da yaşayış sahəsi hesab olunmur. Əgər tikinti hazırdırsa, yerində ölçü apamaqla hansı ölçüdə mənzil aldığın müəyyən edə bilərsən. Bu halda heç kəs sizi aldada bilməz. Aldığın yaşayış sahəsinə sövdələşdiyin qiyməti verib-verməmək hər kəsin özündən asılıdır. Mənzilin alınması barədə müqavilə imzalanarkən hələ çoxmərtəbəli bina tikilməyibsə, tikintinin icra orqanı ilə razılaşdırılaraq təsdiq olunan işçi layihəsini tələb edin. Həmin layihə olmadan heç bir tikinti aparılmır. O layihədə sizin gələcəkdə sahib olacağınız mənzilin ölçüləri tam dəqiq göstərilir. Əgər artıq iş-işdən keçibsə və aldığınız mənzilin ölçüləri müqavilədə göstərilən ölçülərə uyğun gəlmirsə, onda məhkəmə yolu ilə pulunuzu geri ala bilərsiniz. Mənim təcrübəmdə iki halda bu tipli iddia ilə məhkəmələrdə udmuşam.

Digər problem mənzilin addan-ada keçirilməsi ilə bağlıdır. Bu halda da, mənzil sahiblərindən 1000 manatdan 5000 manata kimi pul alınır. Əgər başqa çıxış yolunuz yoxdursa və həmin pulu verməkdən məcburiyyətindəsinizsə, onda mütləq verdiyiniz pulun dəqiq təyinatı qeyd olunan nömrəli və möhürlü qəbz alın. Sonradan həmin qəbzin köməyi ilə verdiyiniz pulu məhkəmə vasitəsi ilə geri ala bilərsiniz, hüquqi yardımla bağlı vəkilə xərclədiyiniz vəsaitlə birlikdə".

❑ E.SEYİDAĞA

# Müxalifət seçkilərdə iştirak strategiyasını açıqladı

## Müsavat seçki qanunvericiliyinə dəyişiklik olmayacağı halda bələdiyyə seçimlərində üzvlərinə fərdi sərbəstlik verəcək; KXCP isə tam heyətlə mübarizəyə qatılır

**Bu ilin dekabrında Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Seçkilərə təxminən iki ay qalır. Amma nə müxalifət, nə də iqtidar cəbhəsində seçkilərə hazırlıq müşahidə olunur. Partiyalarda seçkilərlə bağlı fəallıq hiss edilmir.**



Bu il martın 30-da Türkiyədə keçirilən bələdiyyə seçkiləri isə Azərbaycandan qat-qat səviyyəsinə görə fərqlənir. Qardaş ölkədə bu seçimlərə olduqca ciddi şəkildə hazırlıq gedir, namizədlərin təbliğat-təşviqat kampaniyası səs-küylü keçir. Bəs, Azərbaycanda partiyalar bələdiyyə seçkiləri haqda nə qərara gəlib?

**Müsavat Partiyasının sabiq başqan müavini Gülağa Aslanlı**nın sözlərinə görə, bələdiyyə seçkiləri mayda müzakirə olunub: “Seçkilər partiyanın Məclisində müzakirə edilib. Qərara gəlinib ki, əgər seçki qanunvericiliyinə dəyişiklik olmasa, bələdiyyələrin statusu artırılmasa, böyük şəhər bələdiyyələri təşkil olunmasa seçkilərdə iştirak olunmasın. Lakin partiyanın rayon təşkilatlarına seçkilərdə iştirak barədə sərbəstlik verilib. Yeri gəlmişkən, oktyabrın 21-də partiyada genişləndirilmiş Sədrlər Şurasının iclasında bələdiyyə seçkiləri müzakirə olunacaq".

**G.Aslanlı bu seçkilərə marağın az olmasını nəticələrin indidən saxtalaşdırılacağına əminliklə əlaqələndirir:** “Bələdiyyələrin səlahiyyətləri artırılmalıdır. Qarşıdakı bu iki ayda da seçki qanunvericiliyinə dəyişiklik olunacağı gözlənilmir. Ona görə də Müsavat partiya olaraq seçkidə iştirak haqda düşünmür. Bələdiyyələrin statusu yayğındı, onlar söz sahibi ola bilməyiblər, hətta hakimiyyət bu seçkilərdə belə öz seçilmiş nümayəndələrini təyin edir”.

**Klassik Xalq Cəbhəsi Partiyası (KXCP)** isə seçkilərdə iştirak haqda rəsmi qərar verib. **Partiya sədrinin müavini Xəzər Teyyublu** qeyd etdi ki, martın 1-də bələdiyyə seçkilərdə iştirakla bağlı qərar qəbul olunub: “Artıq Mərkəzi Seçki Qərargahı işinə başlayıb, yerlərə təlimatlar göndərilir, rayon şöbələrində namizədlərin siyahısı hazırlanır.

Demək olar ki, Naxçıvan istisna olmaqla, bütün şəhər və rayon şöbələrində namizədlərimiz olacaq. Bütün rayon təşkilat şöbələrində iclaslar keçirilib, tapşırıqlar verilib. İndi Mərkəzi Seçki Komissiyasının bələdiyyə seçkilərin keçiriləcəyi tarixi, günü açıqlamasını gözləyirik".

**X.Teyyublu özü də daxil olmaqla partiya rəhbərliyində namizədlərin olacağını dedi**: “Rəsmi açıqlamadan sonra yerlərdə namizədlərin müraciətləri olacaq. MSK-nın qərarını gözləyirik. Əslində ölkədə seçki mühiti yoxdur, seçki işi zəifdir. Komissiyalar hakimiyyətin və ona yaxın partiya nümayəndələri tərəfindən qurulub. Müxalifət partiyaları üçün bu mühitdə işləmək çətin olacaq. Hər halda bu imkanı da dəyərləndirmək lazımdır. Partiyamızın gücü, potensialı var.

Ölkəyə müstəqillik gətirmiş insanlar təşkilatımızda üzvdür və onların haqqı çatır ki, seçkilərdə iştirak etsinlər. İqtidar da qazanılmış səsləri şəffaf hesablamalıdır. Şəxsən özüm də Nərimanov rayon seçki dairəsindən namizədliyimi vermək niyyətindəyəm. Partiyamızda həm rəhbərlik, həm üzvlərin seçkilərdə tam iştirakı nəzərdə tutulub". Qeyd edək ki, ADP, Ümid və digər partiyalar da seçkilərə qatılmaq niyyətindədir.

❑ E.SALAMOĞLU



# Həmid Herisçi “Şəxsiyyət vəsiqəsi” hazırlayır

**Yazıçı-konspiroloq, bir neçə telelayihənin müəllifi Həmid Herisçi tamaşaçıların qarşısına yeni layihə ilə çıxır. Publisist ANS telekanalında hər həftənin bazar günləri yayımlanacaq “Şəxsiyyət vəsiqəsi” intellektual tok-şousuna hazırlaşır.**

Bu verilişdə tarixi şəxsiyyətlərin müzakirəsi, keçmişə və bugünkü cəmiyyətə baxış polemika mövzusu olacaq. Teledebatda tanınmış yazarlar, siyasətçilər iştirak edəcəklər.

**H.Herisçinin sözlərinə görə, “Şəxsiyyət vəsiqəsi” proqramı başqalarından fərqlənəcək:** “Oktyabrın sonlarında çəkiliş olacaq. Noyabrın əvvəlində efirə çıxacağıq. Hər həftənin bazar ertəsi efirə gedəcək.

Biz çalışacağıq ki, bütün tərəfləri dəvət edək, müzakirələr açaq. Tok-şounun yekununda səsvermə olacaq və müzakirə ilə bağlı tərəflərin fikirləri qeyd olunacaq. Bu veriliş hardasa “Dahilərin divanı”nın davamı olacaq".

**Müəllif “Gizli Azərbaycan” proqramındakı mistikanı yeni layihəsinə də daşımaq fikrindədir:** “Mənim üçün "Gizli Azərbaycan" mövzusu qapanmayıb, yeni layihədə də bu mövzulara toxuna bilərik. Hamını verilişdə iştirak etməyə çağırıram. Bizim layiqli qonaqlarımız olacaq. Xalqı, cəmiyyəti düşündürən mövzular müzakirə ediləcək".

❑ E.SALAMOĞLU

## Qorxunc xəstəliklə bağlı həyəcanlı xəbərdarlıq

**Hazırda dünyanı təhdid edən Ebola virusu əksər ölkələri təhlükəsizlik tədbirləri görməyə vadar edib. Virusun geniş yayıldığı Afrika və Cənubi Amerikadan başqa ölkələrə gedən insanlar beynəlxalq hava limanlarında yoxlanılır və nəzarətdə saxlanılır. Təhlükə o dərəcədə ciddiləşib ki, artıq həmin ölkələrdən ixrac olunan meyvə-tərəvəz məhsullarının da Ebola daşıyıcısı olması haqqında ehtimallar səslənir.**




# Bəylər Əyyubovun banan biznesinə Ebola zərbəsi

## Ölkənin baş pediatrının açıqlaması generalın biznesinə itkilər yaşada bilər; Afrika ölkələrində yetişdirilən bananda öldürücü virusun olmasına dair deyilənlər iqtisadi mafiyaların bir-birinə qarşı savaşı da ola bilər; şayiə artıq işini görüb - alıcılar tərəddüd içində, satıcılar isə narahatdır

**Son bir neçə gündə Azərbaycanda əhali arasında bananların Ebola virusuna yoluxmaya səbəb olması barədə şayiələr dolaşır.** Ötən gün respublikanın baş pediatrı Nəsib Quliyevin modern.az-a verdiyi açıqlamada Afrikadan gətirilən bananın Ebola daşıyıcısı olması haqqında ehtimal səsləndirməsi ölkə bazarında ciddi rezonans doğurub. Nəsib Quliyev valideynləri uşaqlara banan verməkdən çəkinməyə çağırıb: "Ümumiyyətlə banan uşaqlar üçün yarasızdır. O ki qaldı Ebola virusunun daşıyıcısı olmasına, bu barədə nə eşitmişəm, nə də məlumatım var. Bu ola da bilər, amma reallığını təsdiq edəcək faktla qarşılaşmamışam".

**Həkim iddia edib ki, bizim ölkəyə gətirilən bananları yetişməmiş palmalardan yığırlar, hansı ki, bu meyvələr dəmir kimi olur.** "Kal-kal yığıb Azərbaycana gətirir, uzun müddət burda anbarlarda saxlayırlar, saralanda, yəni xarab olanda satışa çıxarırlar. Əslində banan palma ağacında yetişməlidir. Ağacda yetişdikdən sonra dərilən banan istifadəyə tam yararlıdır. Bizim iqlimlə, torpaqla uyğunlaşan qida olmadığından bananın Azərbaycanda istifadəsi də məqbul sayılmır".

Bananın qorxulu virusunun daşıyıcısı olması haqqında xəbərlərin bazarlara necə təsir etməsini öyrənmək üçün Bakının ən böyük meyvə-tərəvəz satış mərkəzlərindən biri olan "8-ci km bazarı" kimi tanınan bazara üz tutduq.

Satıcılar ötən gündən etibarən yayılan şayiələrin alıcılarda tərəddüd yaratdığını təsdiqləyirlər.

**Satıcı Emil Səmədov** deyir ki, televiziyaların bu haqda xəbərlər yayması bananın satışına təsirsiz ötüşməyəcək: "Bu məsələnin TV-lərdə yer alması insanlara təsir edəcək. Ancaq yayılan söhbətlər əsassızdır. Meyvə heç zaman virus daşıyıcısı ola bilməz".

Digər **satıcı Rafiq Gözəlov** isə banan haqqında yayılan söz-söhbətin alıcılıq qabiliyyətinə heç bir təsir göstərmədiyini bildirdi: "Banan əvvəlki qaydada satılır. Xəstəlik haqqında heç bir söz-söhbət yoxdur. Meyvənin virus daşıyıcısı olması fikri absurddur".

**Bazarda söhbətləşdiyimiz alıcılar isə belə bir təhlükəni gözə almaqdansa, bir müddət banandan imtina etməyi üstün tutduqlarını bildirdilər.** Hər gün uşaqlarına banan aldığını deyən iki uşaq anası Zümrüd xanım deyir ki, Ebola təhlükəsi sovuşanadək banandan və Afrikadan gətirilən digər məhsullardan istifadə etməyəcək.



"Yeni Müsavat"a danışan vətəndaşlar həmçinin, mətbuatda və televiziyada bu virusdan qorunmaq haqqında məlumatların daha çox yayımlanmasına ehtiyac olduğunu bildirdilər.

Qeyd edək ki, hazırda bazarlarda bananın 1 kilosunun qiyməti 2.30-2.50 manat arasında dəyişir və hələ ki, bahalaşma və ya ucuzlaşma müşahidə olunmur.

Müvafiq dövlət qurumlarının rəsmiləri isə mətbuata açıqlamalarında bananın Ebola virusuna yoluxma ehtimalını təkzib ediblər. Azərbaycan Səhiyyə Nazirliyi Respublika Taun Əleyhinə Stansiyanın direktor müavini Şair Qurbanov "Trend"ə bildirib ki, banan vasitəsilə virusun Afrika ölkələrindən Azərbaycana gətirilməsi mümkün deyil. Onun sözlərinə görə, yalnız bananla deyil, kofe ilə bağlı da insanlar arasında belə narahatlıq yarana bilər. Amma bananda olduğu kimi, kofe ilə də virusun ölkəyə gətirilməsi mümkün deyil: "Bəlkə insanlar fikirləşirlər ki, Afrika ölkələrində insanların əlləri banana, kofeyə dəyib, virus da onda qalıb. Bu, mümkün deyil, nə viruslar, nə də bakteriyalar açıq havada çox yaşaya bilməz".

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti Respublika Nəzarət Toksikologiya Laboratoriyasının rəhbəri Yaqub İbrahimov** da bildirib ki, meyvə ilə virusun ölkəyə gətirilməsi mümkün deyil.

O, qeyd edib ki, rəhbəri olduğu laboratoriya tərəfindən ölkəyə gətirilən bananların tərkibində ona verilən gübrənin və ağır metalların miqdarı yoxlanılır. Əgər bu göstəricilər normadan artıq olursa, onda onların satılmasının qarşısı alınır.

Bananın insan orqanizmi üçün faydalı olduğunu, xüsusilə uşaqların immunitetini qaldırdığını deyən Y.İbrahimov bildirib ki, hazırda ölkəyə gətirilən bananların tərkibi normaldır və onlarla bağlı narahatlığa əsas yoxdur.

Qeyd edək ki, Azərbaycanda bananın idxalı **general Bəylər Əyyubov**un monopoliyasında olduğu illərdir ki, iddia edilir. Bu məhsulun bütün dünyanı təhdid edən Ebola kimi dəhşətli bir virusa yoluxmağa səbəb olması ehtimalı yəqin ki, bananın satışına və qiymətinə təsirsiz ötüşməyəcək. Bu isə generalın biznesinə zərbə kimi qiymətləndirilir.

**Bəzi ekspertlər isə bildirir ki, ölkənin baş pediatrının bananla bağlı az qala sensasion sayılan açıqlaması əslində siyasidir və həm də biznes maraqlarına xidmət edir. Bu mövzuda adının açıqlanmaması şərti ilə "Yeni Müsavat"a danışan məlumatlı şəxs dedi ki, bəzən bu cür açıqlamalara hansısa oliqarxın nəzarət etdiyi bazarı çökdürmək olur:** "Dövlətlər arasında da belə gizli rəqabət mövcuddur. Təxminən 10 il öncə Çində guya bir xəstəlik, virus yayılmışdı. Həmin vaxt bütün dünya üzrə Çin istehsalı olan malların alınmasından imtina edildi. Nəticədə Çin olduqca ciddi maliyyə itkisinə uğradı. İndi də mümkündür ki, Ebola virusunun yaratdığı vahimədən kimlərsə istifadə edib belə şayiələr yaysın. Bununla da general Bəylər Əyyubovun iqtisadi maraqlarına, onun əlində saxladığı monopoliyaya zərbə endirsin".

❑ **Nərgiz LİFTİYEVA**

# "Neft Fondu üçün qarşıda çətin günlər durur"

## Ekspertlər bu qurumu gözləyən təhlükələrdən narahatdır




**Dövlət Neft Fondunun 2014-cü ilin doqquz ayı ərzində gəlir və xərclərinə dair məlumat açıqlanıb. Məlum olub ki, 2014-cü ilin 9 ayı ərzində Fondun aktivləri 3,98 faiz artaraq 35877,5 milyon dollardan 37305,3 milyon dollara yüksəlib. Ancaq məlumatların analizi göstərir ki, 3-cü rüb Fond üçün bir o qədər də uğurlu olmayıb.**

Ekspertlər bildirirlər ki, dünyanın əmtəə və maliyyə bazarlarında baş verən proseslər, daha dəqiq desək neftin və qızılın ucuzlaşması, dolların isə bahalaşması Neft Fondunun vəsaitlərinə təsirsiz ötüşməyib. İqtisadçı ekspert Samir Əliyevin sözlərinə görə, Neft Fondunun vəsaitlərinin idarə olunmasından əldə olunan gəlirlər azalıb: "Yanvar-sentyabr aylarında Fondun vəsaitlərinin idarə olunmasından əldə olunan gəlirlər 162,3 milyon manat təşkil edib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 47,9 faiz azdır. 2013-cü ilin yanvar-sentyabr aylarında Fondun gəlirləri 311,2 milyon manat olub. 2012-ci ilin uyğun dövründə isə bu göstərici daha yüksək - 440,4 milyon manata bərabər olub".

**Həmçinin Fondun investisiya portfelinin gəlirliliyi azalıb.** "Əgər ötən ilin 9 ayında portfelin gəlirliliyi 1,1 faiz olduğu halda, cari ilin analoji dövründə gəlirlilik 0,6 faizə düşüb. Halbuki 2012-ci ilin müvafiq dövründə gəlirlilik 1,7 faiz olub",- deyə ekspert xatırladır. O həmçinin qeyd edir ki, qızılın gəlirliyi də azalıb. Ötənilki 243,2 milyon manatlıq zərərdən sonra Fonda gəlir gətirməyə başlayan qızıl yenidən itki verməyə başlayıb. Qızılın qiymətinin dəyişməsindən yaranan gəlir I rübdə 60,8 milyon manat, II rübdə 78,1 milyon manat olduğu halda III rübdə 3,7 milyon manata düşüb. "Fondun aktivləri 0,8 faiz azalıb. Cari ilin 3-cü rübündə Fondun aktivlərinin həcmi əvvəlki rübə nisbətən 317,1 milyon dollar azalaraq oktyabrın 1-i tarixinə 37305,3 milyon dollara düşüb. Aprelin 1-i tarixinə aktivlərin həcmi 37622,4 milyon dollar olub,- deyə S.Əliyev qeyd edib.

**Onun sözlərinə görə, valyutaların məzənnələrinin dəyişməsindən yaranan zərər də artıb.** Fondun hesabatına görə, yaranan fərq üzrə zərər 966,4 milyon manat olub. Halbuki ötən ilin uyğun dövründə zərərin həcmi 38,7 milyon manat təşkil edib. Zərərin bu həddə çatmasına səbəb Fondun valyuta ehtiyatına daxil edilən valyutaların əksəriyyətinin il ərzində ucuzlaşmasıdır. İkinci ən böyük paya malik avronun manata olan məzənnəsi- 35,4 faiz- 2014-cü ilin 9 ayında təxminən 7 faiz ucuzlaşıb. Zərərin məhz böyük hissəsi 9,7 milyard avroluq valyutanın dəyərsizləşməsi hesabına yaranıb. Bu müddətdə Britaniya funtu *(5,3 faizlik pay)* 1,2 faiz, Avstraliya dolları *(0,5 faizlik pay)* 1,8 faiz, Türki lirəsi *(1,2 faizlik pay)* 5 faiz, rus rublu *(1,3 faizlik pay)* 16 faiz ucuzlaşıb. Yeganə olaraq 1,2 faizlik paya malik Cənubi Koreya vonu 0,5 faiz bahalaşıb. Ehtiyatın 51,7 faizinə malik ABŞ dolları son aylar əhəmiyyətli dərəcədə bahalaşsa da, manata nisbətən məzənnəsi sabit qalıb. Son hesabat göstərdi ki, Neft Fondunun investisiya portfelinin gəlirliyinin azalması müşahidə edilir. İnvestisiya siyasətinə edilmiş dəyişiklik nəticəsində portfelə daxil etdiyi yeni valyutalar 2014-cü ildə xeyli ucuzlaşıb. Əgər türk lirəsi və avronun ucuzlaşması əsasən dolların bahalaşması ilə bağlı idisə, rus rublunun dəyərsizləşməsi həm də Rusiyaya tətbiq edilən sanksiyaların nəticəsi idi. Situasiyanı düzgün qiymətləndirən Fond ilin əvvəlində rus rublun müəyyən hissəsində imtina edə bilmişdi. Ən böyük paya malik ABŞ dollarının *(51,7 faiz)* bahalaşması digər valyutaların ucuzlaşmasını kompensasiya edir. Ancaq dolların manata olan məzənnəsinin sabit qalması Fondun valyuta ehtiyatlarının manat ifadəsində milyarda yaxın zərərə düşdüyünü göstərir...

**S.Əliyevin sözlərinə görə, Neft Fondu üçün qarşıda çətin günlər durur:** "Güman ki, bir tərəfdən neft hasilatının azalması və onun ucuzlaşması nəticəsində daxilolmaların azalması, digər tərəfdən dövlət büdcəsinin gələn il pula ehtiyacının daha da artması Fondun aktivlərin azalmasına gətirib çıxaracaq. Üstəgəl, Fondun puluna Rusiya şirkətlərinin göz dikməsi vəsaitlərin səmərəsiz istifadəmətə yönəldilməsi ilə nəticələnə bilər. Fond Çin yuanını valyuta ehtiyatına daxil etmək planını açıqlayıb. Bu təqdirəlayiqdir, ancaq onun məbləği müzakirə mövzusudur. Çünki Çin iqtisadiyyatında müşahidə edilən zəifləmə yuanın məzənnəsinə mənfi təsir göstərə bilər. Məncə, yuanın daxil edilməsi avronun payının azaldılması hesabına baş verməlidir. Yəqin ki yaxın 1-2 ildə Rusiya aktivləri cəlbediciliyini itirəcək. Müşahidələr göstərir ki, yaxın dövrdə ən etibarlı valyuta məhz ABŞ dolları olacaq".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 260 (5969) 22 oktyabr 2014



# Rüşvətə bulaşan ehsan

Kənan RÖVŞƏNOĞLU

## Və ya necə oldu ki, azərbaycanlılar ən gözəl işi ən çirkli işə bulaşdırdılar?

**“Ehsan” sözü klassik ərəbcədə “həsənə”, yəni gözəllik, xeyirxahlıq, yaxşılıq mənasındadır. Quranda dəfələrlə müsəlmanlar xeyir işlər görməyə (oxu: ehsan etməyə) çağırılır. Ehsan etmək bir yaxşı söz deməkdən başlamış çox çeşidli mənalarda işlənə bilir. Amma təbii ki, bu mənaların yalnız biri Azərbaycandakı ehsan sözünə adekvatdır. Azərbaycanda ehsan sözü daha çox yas mərasimlərində açılan süfrələrə aid edilir. Hansını ki, hökumət artıq iki aya yaxındır ölkə üzrə qadağan edib.**

Yazını məhz ehsan sözünün mənası ilə başlamağımın səbəbi var. Məsələ ondadır ki, Azərbaycanda onsuz da çox gözəl və geniş mənalı ehsan sözü yas mərasimində verilən yemək süfrəsi mənasında qəbul olunur. Amma belə görünür ki, ehsan sözünün yanında indi rüşvət sözü də işlənəcək. Çünki artıq ehsan verən azərbaycanlıların bir də rüşvət vermək kimi öhdəliyi yaranıb. Məlum olur ki, artıq Sumqayıtda ehsan vermək istəyən insanlar İcra Hakimiyyəti başçısının müavininə 600 manat, Bakıda isə yerindən və məclisdən asılı olaraq 200 manat pul verməlisən. Deputat Fazil Mustafa dövlət qurumlarından birinin nümayəndəsinin ehsan süfrəsinin verilməsinə şərait yaratdıqlarına görə yas sahibindən 200 manat məbləğində rüşvət alındığını bildirib.

Dəhşətli təzaddır, amma heç kim bu xəbərə təəccüblənmədi. Çünki Azərbaycan vətəndaşı (o həm də məmurdur - K.R.) rüşvət almağı və verməyi öyrənib. Bunu necə verməyi və düzəlməyən işini (icazə verilməyən ehsan süfrəsini - K.R.) necə yoluna qoymağı artıq öyrənib. Və indi o cizgilər ən son həddinə çatdı. Bu, artıq “qırmızı xətdir”. Azərbaycan insanı yaxşı işi, xeyirxahlığı, gözəlliyi belə rüşvətə bulamağa hazırdır. Əlbəttə, hansısa nöqtədə bir xeyir işi görmək üçün çarəsizlikdən rüşvət verməyə haqq qazandırmaq olar, amma indiki durumda bu, heç bir halda haqq qazandırılası məsələ deyil.

İndi qəribə bir vəziyyət yaranıb. Hökumət ehsan məclislərinin təşkilini qadağan edib, insanlar isə uzun müddət yaşatdıqları dədə-baba adətlərindən imtina etmək istəmir, hər kəs el dilində deyilsə ölüsü üçün ehsan vermək istəyir. Bu prosesin baş tutması üçün inadkar ölü sahibləri yerli məmurlarla əlbir olaraq rüşvət verməklə onları yola gətirir.

Doğrudanmı, məqsəd bu idi? Azərbaycan insanlarını israf kimi bir bəladan xilas etməyə çalışan hökumət rəsmiləri daha pisinə səbəb oldular. İndi həm ehsan var, həm də yas məclisi vermək üçün rüşvət də var. Bu ikiqat günahdır axı? Əlbəttə, bunu yas qadağasının müəllifi olan məmurlar əvvəlcədən düşünməli idilər.

**Əlbəttə, bu prosesin ən böyük cavabdehi həm də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadədir. Uzun illər bu məsələnin həlli istiqamətində ciddi addım atmayan Şeyx yalnız qadağa ortaya çıxandan sonra müqavimət göstərdi. Hökumətlə birlikdə ortaq nöqtə axtararaq ehsan məsələsinin həllinə nail olmaq əvəzinə Şeyx daha pis varianta getdi: qadağanı rəsmən sabotaj etdi. Onun nəzarətində olan zallar hökumətin qadağasına baxmayaraq Bakının mərkəzində ehsan süfrələri açmaqda davam etdi. Son nəticədə bu da insanlarda çaşqınlığa səbəb oldu. “Daha az ziyanla vəziyyətdən çıxmağa” alışmış azərbaycanlılar bu vəziyyətdə ölüsünü “urvatlı” eləmək üçün rüşvətlə də olsa ehsan verməyə davam etdilər. Nəticə isə budur. Gözəllik, yaxşılıq mənasında olan ehsan artıq Azərbaycanda ən çirkin kəlmə olan rüşvətlə yanaşı işlənir. Çünki necə deyərlər, biri olmasa, o biri də olmur.**

# Honda CR-V-ni qışa hazırladı

**Honda havaların qəfil soyumasını gözləmədi. Qış gəlməmiş, qışa tamamilə hazır Honda CR-V Azərbaycandadır. Soyuq havalar üçün ən arzulanan xüsusiyyətlər - qızdırılan yan güzgülər, qızdırılan ön oturacaqlar, avtomatik yanıb-sönən faralar, gündüz LED işıqları və tavanda yük relsləri yeni Honda CR-V-ni yeni mövsüm üçün aktuallaşdırır.**



Honda CR-V-ni tanıyanlar bilir ki, avtomobilin salonu rahatlıq, inam və nəzarəti əldə saxlamaq üçün dizayn edilib. Yüksəkdə yerləşən sürücü oturacağı ön, yan və arxa görüntünü tamamilə nəzarətdə saxlamağa imkan verir.

Mərkəzi paneldəki Multi-İnformativ Displey (i-MID) audio trekləri, yanacaq qənaəti statistikasını və digər əsas informasiyanı göstərir. Sükan çarxındakı düymələr vasitəsilə i-MID və audiosistem, həmçinin kruiz-kontrol və telefon zəngləri rahatlıqla idarə edilir. ECON düyməsi isə, avtomatik olaraq, nəqliyyatdakı havalandırma kimi sistemləri tənzimləyərək, yanacağa qənaəti yaxşılaşdırır.

CR-V sakit idarəetməni təmin etmək üçün Honda-nın bütün inkişaf etmiş təhlükəsizlik texnologiyaları ilə təchiz olunub. VSA kimi aktiv təhlükəsizlik texnologiyaları toqquşmanın qarşısını alır. Honda-nın eksklüziv passiv təhlükəsizlik texnologiyası olan Advanced Compatibility Engineering (ACE) kuzov strukturu isə ön qəza enerjisinin avtomobilin qabaq hissəsinə bərabər şəkildə paylayaraq sərnişinlərin müdafiəsini yaxşılaşdırır və avtomobilə dəyən zərəri azaldır.

Honda CR-V 2.4 litrlik DOHC i-VTEC mühərriki ilə təqdim olunur. Yeni Operativ Tam Təkər Ötürücülü Ağıllı idarəetmə sistemi sürüşkən yol örtüklərində əlavə hərəkət qüvvəsini təmin edir.

**Honda CR-V-nin qış komplektasiyası rəsmi distribüterdə 31900 AZN-ə təqdim olunur.**

# “Total” prezidentinin müəmmalı ölümü

## Fransanın ikinci ən böyük şirkətinin prezidenti sərxoş qartəmizləyənin güdazına getdi; dünyada məşhur insanların həyatına son qoyan qəzalar

**Oktyabrın 20-də gecə saatlarında Moskvanın “Vnukovo” hava limanında təyyarə qəzası baş verib. Rəsmi məlumata görə, havaya qalxmaqda olan kiçik həcmli “Falkon-50" təyyarəsi qar təmizləyən maşına çırpılaraq yerə düşüb. Qəza nəticəsində təyyarədə olan 4 nəfər - 2 pilot, bir stüardessa və bir sərnişin həlak olub. Məlum olub ki, həlak olan sərnişin Fransanın "Total" neft-qaz şirkətinin prezidenti Kristof de Marjeri olub. Məlumatı Hava Limanı sözçüsü Yelena Kirilova verib.**



Kristof de Marjeri

O da məlum olub ki, Fransanın neft nəhənginin 63 yaşlı prezidentinin təyyarəsi sərxoş sürücünün idarə etdiyi qartəmizləyən maşınla toqquşub. Həmin gün Moskva Hava Limanında duman olub və bu səbəbdən də eniş və qalxma şərtləri pilotlardan asılı olub. O da bəlli olub ki, toqquşma zamanı qartəmizləyən maşının sürücüsünə heç nə olmayıb, ancaq təyyarə tamamilə yanıb. “Rosaviasiya” hadisə ilə bağlı istintaq başladıb.

Qeyd edək ki, qəzada ölən Kristof de Marjeri 2007-ci ildən Avropanın 3-cü ən böyük neft şirkəti olan “Total”a rəhbərlik edib. Fransanın ikinci ən böyük şirkəti olan “Total” 102 milyard bazar qiyməti ilə Fransanın ikinci ən böyük şirkətidir. 1974-cü ildən “Total”da çalışan Marjeri son 7 ili şirkətə rəhbərlik edib.

Yeri gəlmişkən, “Total”ın prezidenti Rusiyaya qarşı Qərbin sanksiyalarına qarşı olub və şirkət Rusiyada ən böyük xarici investorlardandır. K.Marjeri oktyabrın 20-də Moskvada təşkil olunan Xarici İnvestisiyalar Üzrə Məşvərət Şurasının toplantısında iştirak edib.

“Total” prezidentinin təyyarə qəzasında ölümü mediada şübhələrə yol açıb. Şirkət rəhbərinin Rusiya hakimiyyəti ilə yaxın olması, Qərbin sanksiyalarına qarşı olması kimi faktorlar səbəbindən qəzada qəsd ehtimalı da gündəmə gətirilib. Ancaq hələlik bu yöndə hər hansı bir ciddi iddia göstərilmir. Fransız iş adamının ölümü təyyarə qəzalarını yenidən gündəmə gətirib. Son 50 ildə təyyarə qəzalarında onlarla məşhur ada dünyasını dəyişib.

***

Dünya tarixində ilk məşhurların kütləvi öldüyü təyyarə qəzası **1958-ci il fevralın 6-da** baş verib. İngiltərənin məşhur Mançester Yunayted futbol klubunun oyunçularını daşıyan təyyarə Almaniya ərazisində qəzaya uğrayıb. Ümumilikdə 44 nəfərin olduğu təyyarə eniş edərkən qəzaya uğrayıb və 21 nəfər, o cümlədən Mançester Yunaytedin 7 fuutbolçusu dünyasını dəyişib. Bu hadisə kluba böyük zərbə olub.

**1959-cu il martın 29-da** Mərkəzi Afrika Respublikasının prezidenti və müstəqilliyin qəhrəmanı Bartolomey Boqonda təyyarə qəzası nəticəsində dünyasını dəyişib.

**1961-ci il aprelin 3-də** Çili “Green Cros” futbol komandasının oyunçularının da içərisində olduğu təyyarə qəzaya uğrayıb və komandanın bütün oyunçuları qəzada həlak olub.

**1966-cı il aprelin 13-də** İraq dövlətinin rəhbəri Əbdül Salam Arif vertolyot qəzasında ölüb.

**1968-ci il martın 27-də** sovet təyyarəçi-kosmonavtı Yuri Qaqarin rəsmi versiyaya görə sınaq uçuşu zamanı qəzada həlak olub.

**1976-cı il iyulun 30-da** Madaqaskarın baş naziri Joel Rakotomalala vertolyot qəzasında dünyasını dəyişib.

**27 may 1979-cu ildə** Afrika sammitinə gedən Mavritaniya baş naziri Əhməd Busseyfinin təyyarəsi Dakar sahillərində dənizə düşüb. Baş nazirin cəsədini tapmaq mümkün olmayıb.

**1980-ci il iyulun 23-də** Hindistanın sabiq baş naziri İndira Qandinin oğlu və Milli Monqres Partiyasının sədri Sancay Qandi təyyarə qəzasında ölüb.

**1980-ci ildə** Portuqaliya baş naziri Fransisko sa Karniyero və ümdafiə naziri Amaro de Kosta təyyarə qəzasında ölüb.

**24 may 1981-ci ildə** Ekvador prezidenti Ceime Roldos və müdafiə naziri Marko Aurelio təyyarə qəzasında ölüblər.

Yenə **1981-ci il avqustun 1-də** Panama prezidenti Ömər Torricos təyyarə qəzasında həlak olub.

**1982-ci il mayın 4-də** Əlcəzair xarici işlər naziri Məhəmməd bin Yahya İranda təyyarə qəzasında ölür.

**1986-cı il oktyabrın 19-da** Mozambik prezidenti Samora Machel təyyarə qəzasına düşərək ölüb.

**1988-ci il avqustun 17-də** Pakistan prezidenti Ziya əl-Haqq və bir sıra dövlət rəsmilərinin içərisində olduğu təyyarə qəzaya uğrayıb.

**1989-cu il iyulun 7-də** “Colorful 11" adlı Hollandiyanın futbol klubunun üzvlərinin olduğu təyyarənin qəzaya uğraması nəticəsində 176 nəfər ölüb.

**1993-cü il fevralın 17-də** Türkiyə ordusu jandarma qüvvələrinin komandanı Əşrəf Bitlis təyyarə qəzasında həlak olub.

**3 aprel 1996-cı ildə** ABŞ ticarət naziri Ron Braun Xorvatiyada baş vermiş təyyarə qəzasında həlak olub.

**1999-cu il iyunun 16-da** ABŞ-ın eks-prezidenti Con Kennedinin oğlu Con f. Kennedi şəxsi təyyarəsini idarə edərkən qəzaya uğrayır. Təyyarənin qəzaya düşməsi nəticəsində Kennedi həyat yoldaşı ilə birlikdə ölüb.

**17 may 2001-ci** ildə İran nəqliyyat naziri Rəhman Dadman, iki nazir müavini və 7 deputat təyyarə qəzasında ölüb.

**26 yanvar 2004-cü ildə** Makedoniya prezidenti Boris Traykovski təyyarə qəzasında ölüb.

**2005-ci il iyulun 27-də** Amerikanın ən böyük şirkətlərindən olan “Wal-mart”ın idarə heyətinin üzvü Tomas Valton təyyarə qəzasında ölür.

**2009-cu il martın 25-də** Türkiyə Böyük Birlik Partiyasının sədri Möhsün Yazıçıoğlu vertolyot qəzasına düşərək həlak olub.

**2010-cu il aprelin 10-da** Polşa prezidenti Lex Kaçinskinin də içində olduğu TU-154 markalı təyyarə qəzaya uğrayır. Qəza nəticəsində Polşa prezidenti və bir sıra hökumət üzvləri olmaqla 87 nəfər həlak olub.

KƏNAN

YENİ MÜSAVAT
N 260 (5969) 22 oktyabr 2014



# Ermənistandan Azərbaycana qorxulu virus daşıyıcısı olan mal-qara göndərilir

Kənd təsərrüfatı ekspertindən şok açıqlamalar; **Vahid Məhərrəmov:** “Gürcüstandan daşınan heyvanların Ermənistandan bu ölkəyə gətirilən heyvanlar olduğu və Azərbaycanda mal-qara arasında əvvəllər müşahidə olunmayan təhlükəli xəstəliklərin məhz həmin heyvanlardan yoluxması istisna deyil”

**Azərbaycanın rayonlarında, əsasən heyvandarlıqla daha çox məşğul olan Bərdə, Beyləqan, Ağcabədi kimi rayonlarda ətin qiymətində iki manat ucuzlaşma müşahidə olunur. Əvvəllər 8 manata satılan dana əti indi 6 manata təklif olunur. Bir neçə ay öncəyə qədər 9-10 manata satışı həyata keçirilən qoyun ətinin isə pərakəndə satış qiyməti 7-8 manata enib. Maraqlıdır ki, bu ucuzlaşma paytaxt Bakıda müşahidə edilmir. Ətin qiyməti əvvəllər olduğu kimi qalır.**

Bu vəziyyətin səbəbləri barədə **İqtisadi Tədqiqatlar Mərkəzinin əməkdaşı, kənd təsərrüfatı eksperti Vahid Məhərrəmov** “Yeni Masavat”a maraqlı və şok sayılacaq açıqlamalar verib.

V.Məhərrəmov öncə bildirdi ki, ümumiyyətlə, heyvandarlıq sahəsində Bərdə, Ağcabədi, Beyləqan, İmişli sanki bir mərkəz rolunu oynayır. Hətta Gürcüstandan kəsim üçün gətirilən mal-qaranın satışı bu zonadan həyata keçirilir. Yəni topdan satışı da oradan olur. Son zamanlar heyvanlar arasında, xüsusən də iribuynuzlu heyvanlar arasında xəstəliyin geniş yayılması da fermerləri çox ciddi təhlükə ilə üz-üzə qoyub. İkinci səbəb odur ki, otun və yemin qiyməti bahalaşıb. Bu da fermerlərin heyvanları qışa saxlamasına əngəl yaradır: “Ölkədə kifayət qədər yem bazası yaradılmayıb və yem az olduğu üçün qiyməti artıb. Fermerlərin və kiçik təsərrüfatı olan kəndlilərin kifayət qədər yem ala bilməmələri ona gətirib çıxarıb ki, mal-qaranı kütləvi şəkildə bazara çıxarırlar və ucuz qiymətə satmağa məcbur olurlar. Ətin qiymətinin rayonlarda aşağı düşməsi bununla bağlıdır. Təklif tələbi üstələyib. Ona görə də rayonlarda ət ucuzlaşıb.

Bu cür qiymət ucuzlaşması heç də fermerlərin və kəndlilərin vəziyyətinin yaxşı olmasından xəbər vermir. Qış üçün yem ehtiyatının olmaması ucbatından mal-qaranın kəsim üçün kütləvi şəkildə bazara çıxarılması və ucuz satılması ondan xəbər verir ki, bu sahədə çox ciddi problemlər var. Bu vəziyyət faktiki olaraq Azərbaycanda maldarlıqla məşğul olan fermerlərin, kəndlilərin təsərrüfatının çöküşünü, sıradan çıxmasını qaçılmaz edib. Maldarlıq son zamanlar tənəzzülə uğrayıb. Keçən il Gürcüstandan Azərbaycana 109 min baş iribuynuzlu mal-qara gətirilib kəsim üçün. 2014-cü ildə bu rəqəm təxminən 50 faiz artıb. Bu da ondan xəbər verir ki, Azərbaycanda heyvandarlıq sahəsində çox ciddi problemlər var".

**Ekspert rayonlarda ətin qiymətinin ucuzlaşmasında yas mərasimlərində ehsan olaraq yemək verilməsinin qarşısının alınması amilinin də müəyyən dərəcədə rol oynadığını söylədi:** “Hər yas mərasimində bir gün üçün ən azı bir-iki baş iribuynuzlu heyvan kəsilirdi. Fərz edək ki, bir kənddə ildə 30-40 nəfər dünyasını dəyişirsə və onların hər birinin üç-yeddi-qırx və ilində heyvanlar kəsilirdi. Hesablayanda məlum olur ki, kəsilən iri buynuzlu heyvanların sayının 100-dən yuxarı olduğu görünür. Həmin heyvanlar isə əsasən kənddəki kiçik fermer təsərrüfatı olan kəndlilərdən alınırdı. İndi kəndli heyvanını normal qiymətə satmaq üçün bu imkandan da məhrum olub. Əvvəllər yas mərasimlərində kəsilən sayda heyvanlar da artıq bazara çıxarılır. Təklifin artmasında bu amil də rol oynayır.

İstehlakçıların alıcılıq qabiliyyətinin də aşağı düşməsi ucuzlaşmaya təkan verir. Beləliklə son nəticədə heyvandarlıqla məşğul olan fermerlərin təsərrüfatı sıradan çıxır".

Mütəxəssis Gürcüstandan gətirilən mal-qaranın qiymətinin Azərbaycandakı mal-qaranın qiymətindən 15-20 faiz ucuz olmasının da daxili bazara çox ciddi təsir etdiyini vurğuladı.

Rayonlarda ətin ucuzlaşmasına baxmayaraq paytaxt Bakıda qiymətlərin dəyişməməsinin səbəbinə gəlincə, V.Məhərrəmov qeyd etdi ki, Azərbaycanın bölgələrindəki fermerlər yetişdirdikləri heyvanı arada vasitəçi olmadan paytaxta gətirə bilməzlər. Bu addım həmin fermerin axırıncı fəaliyyəti olar və o, bir daha Bakıya ayaq basa bilməz: “Fermerlərdən heyvanları alıb paytaxta kəsim üçün satışa çıxaran xüsusi adamlardır. Hər adam bu işə qoşula bilməz. Bu sahə demək olar ki, monopolyadadır. Monopolistlər fermerə imkan vermirlər ki, gətirib Bakıda heyvanını kəsib özü satsın. Monopolistlər həm fermerə, həm şəhərdə istehlakçıya qiyməti diktə edirlər. Bakıda ətin qiymətinin düşməməsinin səbəblərindən bir budur. Daha bir səbəb isə ət işi ilə məşğul olan monopolistlərin özlərinin də hər gün gəlibgedən "papka"lı məmurlara ödəniş etmələridir. Baytar həkim, sahə müvəkkili, vergi işçisi, sosial fond işçisi, su idarəsi və sair neçə-neçə qoltuğunda qovluq olanları razı salmaq lazım olur. Həmin məmurlara ödənilən vəsaitlər də ətin maya dəyərinə oturur".

**V.Məhərrəmov heyvanlarda xəstəliyin geniş yayılmasının da bir sıra səbəblərinin olduğunu dedi:** “Heyvanlar yem çatışmazlığından, su qıtlığından normal qidalanmır və xəstəliklərə asanlıqla yoluxur. Ölkəyə xaricdən çoxlu sayda iri və xırda buynuzlu heyvanların



Kənd təsərrüfatı eksperti Vahid Məhərrəmov musavat.com-a sensasion açıqlamalar verib

gətirilməsi də Azərbaycanda mal-qara arasında əvvəllər müşahidə olunmayan, Azərbaycan üçün xarakterik olmayan qəribə xəstəliklərin yayılmasına səbəb olur. Ölkədə heyvanlar arasında təhlükəli xəstəliklər durmadan yayılır. Hökumət, aidiyyatı orqanlar isə bunun qarşısını almaq üçün ciddi tədbirlər görmürlər. Sanki bu vəziyyət kimlərəsə sərf edir. Ona görə də real vəziyyəti ört-basdır edirlər. Mal-qara kütləvi şəkildə qırılır, kəndlilərin dolanışıq mənbəyi olan bir neçə inəyi var ki, xəstəlikdən məhv olub və kəndli faktiki olaraq dolanışığının cüzi təminatından da məhrum olub, aidiyyatı hökumət orqanları isə heç nə olmamış kimi davranırlar, vəziyyətin acınacaqlı olduğunu ört-basdır edirlər. Kəndli görür ki, qonşusunun heyvanları xəstəlikdən qırıldı və rəsmi orqanlar heç bir ciddi tədbir görmür və növbədə onun heyvanlarıdır. Ona görə də heyvanlarını təcili bazara çıxarıb dəyər-dəyməzinə satır və bununla da kəndlinin dolanışığı kəsilir. Hökumət heyvandarlıq sahəsini demək olar ki, başlı-başına buraxıb. Azərbaycanda heyvandarlıq məhv olub sıradan çıxmaqdadır”.

V.Məhərrəmov qeyd etdi ki, heyvandarlığı sıradan çıxarmaqda olan daha bir problem isə məmurların otlaq sahələrini ələ keçirib başqa təyinatlar üçün istifadə etməsidir.

V.Məhərrəmov Gürcüstandan gətirilən xırda və iribuynuzlu heyvanların əksəriyyətinin əslində Ermənistan və ermənilərin işğalı altında olan Azərbaycan ərazilərində yetişdirilən heyvanlar olduğunun istisna edilmədiyini də vurğuladı: “Gürcüstanın bu qədər potensialı yoxdur. Gürcüstan öz əhalisinin ətlə təminatını tam şəkildə ödəyə bilmir. Ermənistan isə diri heyvan ixracatanı həyata keçirir. İrana, Gürcüstana heyvan ixrac edirlər. Ermənistanın öz ərazisində, işğal etdiyi Azərbaycan ərazilərində yüz minlərlə baş heyvan saxlamaq üçün şərait var. Ermənilər bu imkandan yararlanırlar. Həmin ərazilərdə heyvan saxlanılır. Ermənistanın özündə əhali az olduğundan və alıcılıq qabiliyyəti aşağı olduğundan İrana və Gürcüstana çoxlu sayda iri və xırdabuynuzlu heyvanlar satırlar. Özü də çox ucuz qiymətə. Gürcüstandan bizim ölkəyə gətirilən heyvanların Ermənistandan gətirildiyinə dair məlumatlar var. Azərbaycanda mal-qara arasında əvvəllər müşahidə olunmayan təhlükəli xəstəliklərin məhz həmin heyvanlardan yoluxması da istisna deyil”.

❑ **Etibar SEYİDAĞA**



## Cəlilabadda mal-qara kütləvi şəkildə qırılır

**Cəlilabad rayonunda mal-qara kütləvi şəkildə qırılmağa başlayıb. Heyvanların nədən tələf olduğu bilinmir. Rayonun Alar kəndinin sakinləri islamazeri.az saytına bildirib ki, artıq bir həftəyə yaxındır mal-heyvanlara xəstəlik düşüb, mal-qara kütləvi şəkildə tələf olur.**

“Bu, nə xəstəlikdir - bilmirik, amma bir günün içində xəstələnən heyvan ikinci günə qalmır, tələf olur. Baytarlar da gətirmişik, onlar da bu xəstəliyin qarşısında acız qalıblar. Deyilənə görə, bu xəstəlik yabanı bitən qanqal otlarından keçib" - deyə Alar sakinləri bildirib.

Alar kənd sakinlərindən biri olan tanınmış şair Bilal Alarlı isə öz facebook səhifəsində mal-heyvanın tələf olmasından yazaraq bəzi qurumların buna biganə qaldığını da qeyd edib.

O bildirib ki, neçə gündür bir kəndli üçün fauna faciəsinin baş verdiyini heç bir KİV işıqlandırmaq istəmir: “İki gündür ki, Cəlilabadın Alar kəndində fauna faciesi yaşanır: 60-dan çox inək başını yerə qoyub çabalaya-çabalaya ölüb. Rayon Baytarlıq İdarəsinin bütün kollektivi inəklərin başı üzərində əsir-yesirdir. Deyilənə görə, naxır dana-buzovlu zəhərlənib. Harada zəhərlənib, nə ilə zəhərlənib - baytarlar indi bunu araşdırmaqla məşğuldur. Kasıblar hər səhər balalarına verdikləri bir içimlik süddən oldular. Ən qəribəsi də odur ki, bu iki gündə inəklərin kütləvi zəhərlənməsi haqqında informasiya heç bir mətbuat orqanı tərəfindən işıqlandırılmayıb”.




## “Azercell” vətəndaşlara xəbərdarlıq edir

**Son günlər “Azercell”in ödəmə kartları ilə bağlı narazılıqlar artmaqdadır. Abonentlər "Azercell" 1, 3, 5 manatlıq ödəmə kartlarının keyfiyyətsiz olmasından və şifrə yazılan hissəsini silərkən rəqəmlərin pozulmasından şikayətçidirlər. Qeyd edək ki, bununla bağlı "Azercell" abonentlərindən redaksiyamıza şikayətlər daxil olub.**

Sözügedən məsələyə aydınlıq gətirmək üçün "Azercell Telekom" MMC-nin Mətbuat Xidməti ilə əlaqə saxladıq. Mətbuat xidmətindən sorğumuza verilən cavabda bildirilir ki, istifadəçilər ödəmə kartlarını silərkən diqqətli olsunlar: “İstifadəçilər ödəmə kartlarını silərkən çox zaman iti kəsici əşyalardan, məsələn, bıçaq, qayçı və sairdən istifadə edir. Bu zaman kartın yüklənməli olduğu şifrələr pozula bilir. İstifadəçilərə məsləhət görərdik ki, kartların pozulması zamanı iti metal əşyalardan istifadə etməsinlər”.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 260 (5969) 22 oktyabr 2014

# Bakının ən təhlükəli əraziləri...

**Azərbaycanda sürüşməyə ən çox meyilli olan zonalar cənub və şimal bölgələridir. Hazırda Bakıdakı sürüşmə zonalarında vəziyyət sabitdir. ANS PRESS-in məlumatına görə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidməti Geoloji Planlama Ekspedisiyasının son zamanlar apardığı monitorinqlər zamanı sürüşmə zonalarında aktivləşmə olmadığı aşkarlanıb.**



Ekspertlərin fikrincə, ölkənin qərb və aran zonasını çıxmaq şərti ilə digər ərazilərdə torpaq sürüşmələri vaxtaşırı qeydə alınır. Ölkə paytaxtında Bayıl, Zığ, Masazır, Əhmədli sürüşməyə meyilli zonalara daxildir. Həmin sahələrdə sürüşmə prosesinin qarşısını almaq üçün bir sıra tədbirlər həyata keçirilib, istinad divarları inşa edilib, sürüşmənin aktiv olduğu ərazilərdə torpağa slaylar vurulub, ağaclar əkilib. Abşeron yarımadası üzrə sürüşmə zonalarının xəritəsini hazırlanıb icra hakimiyyətlərinə təqdim olunub. Həmin xəritədə təhlükəli zonalar göstərilir və həmin ərazilərdə təsərrüfat işləri aparılmaması tövsiyə olunur.

**AMEA Hidrogeologiya və mühəndis-geologiya şöbəsindən bildirilib ki, ümumiyyətlə, torpaq sürüşməsi təkcə təbii səbəblərlə bağlı deyil.** Geoloji fəlakətlərin ən təhlükəli növlərindən biri olan torpaq sürüşmələrinin əmələ gəlməsində təbii amillər- atmosfer yağıntıları ilə yanaşı, texnogen amillər - ağacların kəsilməsi, yaxud heç olmaması, qrunt suların əraziyə axıdılması, antropogen amillər- ağacların torpaqdakı rütubəti yarpaqları vasitəsilə transpirasiya etməsi nəticəsində torpaq rütubətinin azalması, dağ yollarında ağır tutumlu yük maşınlarının hərəkəti, çirkli məişət sularının axması və sairə böyük rol oynayır. Atmosfer yağıntılarının miqdarının artması sürüşmə prosesini bir tərəfdən aktivləşdirirsə, digər tərəfdən texnogen amillər mənfi təsirini göstərir. Bakı şəhərinə il ərzində 300 milyon yağıntı düşür.

**Beynəlxalq statistik məlumatlara görə, sürüşmələrə 80% antropogen faktorlar səbəb olur.** Sürüşmələr 10° və daha çox bucaq altında olan yamaclarda baş verir. Gilli süxurlara malik zonalarda isə həddindən çox nəmişlik hətta 5-7° bucaq altında sıldırım olduqda belə sürüşmələrə gətirib çıxara bilər.

**İndi bölgələrdə müəyyən sahələrdə sürüşmə prosesinin qarşısını alınması üçün addımlar atılır.** Belə ki, sürüşmə zonası ərazilərdə fərdi tikinti işlərinin aparılmasına icazə verilmir. Əlaqədar qurumlar texnogen amillərin təsirini azaltmağa çalışırlar. Ölkənin şimal hissəsində yeni meşə solaqları alınır. Son vaxtlarda on minlərlə ağac əkilib. Yeni şəhərsalma planında yaşıllıq ərazilərin genişləndirilməsinə, yeni parkların, meşə zolaqların salınmasına önəm verilir.

## Suraxanıda güclü partlayış...

**Bakının Suraxanı rayonu ərazisində güclü partlayış olub. ANS PRESS-in hadisə yerində olan müxbiri Ruslan Eldaroğlunun verdiyi məlumata görə, hadisə Yeni Suraxanı qəsəbəsi Malik Mustafayev 5 ünvanında yerləşən şirniyyat sexində qeydə alınıb.**

Hadisə nəticəsində sexin işçisi 1988-ci il təvəllüdlü Samir Eldar oğlu Həsənov ağır yaralanıb. Onu xəstəxanaya yerləşdiriblər.

İlkin ehtimala görə, partlayış qaz sızmasından baş verib.

Faktla bağlı araşdırma aparılır.

## Toydan qayıdan ailə qəzaya düşdü: 1 ölü, 2 yaralı

**Gəncədə ölümlə nəticələnən yol nəqliyyat qəzası baş verib. APA-nın məlumatına görə, qəza şəhərin Nizami prospektində, Bayraq meydanının yaxınlığında baş verib. Göygöl rayon sakini, 26 yaşlı Emil Ələsgərovun idarə etdiyi "Niva" markalı avtomobillə 22 yaşlı Reyhun Məmmədovun idarə etdiyi "VAZ 2107" markalı avtomobil toqquşub.**

Qəza nəticəsində "Niva"nın sürücüsü Emil Məmmədov, onun anası Həqiqət Ələsgərova və qohumları Nahidə Hüseynova yaralanaraq Gəncə Şəhər Təcili Tibbi Yardım xəstəxanasına yerləşdiriblər. Nahidə Hüseynova xəstəxanada dünyasını dəyişib. Məlumata görə, "Niva"-da olanlar toydan gəlirmişlər.

Faktla bağlı Gəncə Şəhər Baş Polis İdarəsində araşdırma aparılır.

## Beyləqanda iki bacını maşın vurdu; biri öldü

**Beyləqanda iki bacını maşın vurub. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, hadisə oktyabrın 20-də saat 20 radələrində Beyləqan şəhərində qeydə alınıb.**

Şəhər sakini İlkin Zülfüqarov idarə etdiyi "VAZ-21063" markalı avtomobillə yolu keçən həmyerliləri İltimas Məmmədova və onun bacısı Elzanı vurub. İ. Məmmədova hadisə yerində ölüb, bacısı isə xəstəxanaya yerləşdirilib.

Faktla bağlı Beyləqan Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

## Bakı sakininin meyiti avtomobilində tapıldı

**Bakı sakininin meyiti idarə etdiyi avtomobildə tapılıb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, hadisə oktyabrın 20-də saat 03:00 radələrində qeydə alınıb.**

Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində Bakı şəhər sakini Vüqar Balayevin üzərində zorakılıq əlamətləri görünməyən meyiti idarə etdiyi "ZİL" markalı avtomobildə aşkar edilib.

Faktla bağlı araşdırma aparılır.

## Hacıqabulda ər arvadını xəstəxanada qətlə yetirdi

**Hacıqabul rayon mərkəzi xəstəxanasında ər arvadını bıçaqla qətlə yetirib. Lent.az-ın APA-ya istinadən verdiyi xəbərə görə, Hacıqabul rayon prokurorluğundan verilən məlumata əsasən, hadisə bu gün iş gününün sonunda, saat 17.30 radələrində xəstəxananın foyesində baş verib.**

Hacıqabul sakini əvvəllər məhkum olunmuş, 1968-ci il təvəllüdlü Əhmədov İslam Abxan oğlu həyat yoldaşı 1963-cü il təvəllüdlü Əhmədova Bacxanım Məlik qızını 4 bıçaq zərbəsi ilə qətlə yetirib. Sonuncu ürək aortasının kəsilmiş yarası, döş qəfəsinin arxa hissəsindən, sol qoltuğunun altından və bazu nahiyəsindən aldığı bıçaq yaralarından hadisə yerində dünyasını dəyişib. Hadisənin ailə münaqişəsi zəminində baş verdiyi bildirilir.

Bildirilir ki, Bacxanım Əhmədova Hacıqabul rayon mərkəzi xəstəxanasının baş tibb bacısı vəzifəsində çalışıb.

Tibb bacısının iş yoldaşlarının bildiriyinə görə, onun həyat yoldaşı tüfeyli həyat tərzi yaşayırdı. Bu səbəbdən B.Əhmədova məhkəməyə boşanma ərizəsi ilə müraciət edib. Ehtimal olunur ki, qətl də elə bu zəmində baş verib.

Qətli törədən İslam Əhmədov polis tərəfindən saxlanılıb.

Faktla bağlı Hacıqabul Rayon Prokurorluğunda cinayət işi başlanıb, araşdırma aparılır.

## Elan

**Süleymanova Svetlana Xayvatovnaya aid mülk kağızı (kupça) itdiyi üçün etibarsız sayılır. Seriya OM N 205776.**

**Ünvan: Qubanov küçəsi, ev 39, mənzil 37.**


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

- *Kiyev Dövlət Texniki Universiteti*
- *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
- *Kremençuk Dövlət Universiteti*
- *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
- *Kiyev Dövlət Dəniz Akademiyası*
- *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
- *Tbilisi Dövlət Tibb Universiteti*
- *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
- *Minsk Dövlət Universiteti*
- *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
- *Qrodno Dövlət Universiteti*
- *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
- *Volqoqrad Dövlət Aqrar Universiteti.*
- *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**






## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 260 (5969) 22 oktyabr 2014



# "Kars"a salınmadan öncə...

## Qanunlar həbsxanada tətbiq olunan bu əlavə cəza barədə nə deyir?

**"Karser" cəzası Azərbaycan həbsxanalarında daha çox siyasi dustaqlar üçün tətbiq olunur. Mətbuat bu günə qədər daha çox Nemət Pənahlıya, Eynulla Fətullayevə, Pərviz Həşimliyə və İlqar Məmmədova... qarşı tətbiq olunan bu cəza mexanizmlərindən yazıb.**

**Əslində isə sözügedən cəza ilə bağlı Azərbaycan qanunvericiliyində xüsusi məqamlar var.**

Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyi ilə müəyyən edilmiş qaydaya görə, məhkumların cərimə (intizam) təcridxanalarına keçirilməsi qaydasıvə orada saxlanılma şərtləri var. Həmin qaydalara əsasən, məhkumlara cərimə (intizam) təcridxanasına keçirmə növündə tənbeh tədbiri, onlardan yol verilmiş pozuntu barədə izahatlar alındıqdan və yoxlanıldıqdan sonra, müəssisə rəisinin əsaslandırılmış qərarı ilə tətbiq edilir. Cərimə (intizam) təcridxanalarında saxlanılan məhkumlar dəstələrin tərkibindən çıxarılmır. Böyük inspektorlar (dəstə rəisləri, tərbiyəçilər, təlimatçılar) tənbehin çəkilməsi müddətində də məhkumlarla tərbiyə işi aparmalıdırlar.

Cəzaçəkmə müəssisəsinin rəisi müəssisədə olmadıqda, məhkumlar tərəfindən törədilən pozuntunun qarşısını digər tədbirlərlə almaq qeyri-mümkün olduqda, müstəsna hallarda, böyük inspektorun (rəisin növbətçi köməkçisinin) qərarı ilə müəssisə rəisi gələnə qədər, lakin 24 saatdan artıq olmamaq şərti ilə, onlar cərimə (intizam) təcridxanasına keçirilə bilərlər. Belə təcridetmə tənbeh tədbiri sayılmır, lakin cəzaçəkmə müəssisəsinin rəisi tərəfindən pozuntu törətmiş məhkumun cərimə (intizam) təcridxanasına keçirilməsi növündə tənbeh tədbiri seçildiyi halda, onun təcridxanada olduğu vaxt cərimə (intizam) təcridxanasında saxlanılmanın ümumi müddətinə hesablanır.

**Tənbeh tədbiri qismində cərimə (intizam) təcridxanasına keçirilmə barədə qərar məhkuma cəzaçəkmə müəssisəsinin rəisi, yaxud onun tapşırığı ilə müəssisənin digər əməkdaşı tərəfindən elan edilir.** Cərimə və intizam təcridxanasına keçirilmiş məhkumlara özləri ilə əl-üz dəsmalı, sabun, diş məcunu, diş fırçası, tütün məmulatları, kibrit və müəyyən olunmuş sayda kitab (jurnal) və ədəbiyyat istisna olmaqla, ərzaq məhsulları və digər şəxsi əşyaları götürmək qadağandır.

**Cərimə (intizam) təcridxanasında saxlanılan məhkumlara isti üst paltarı yalnız onlar işə və ya gəzintiyə çıxarılarkən verilir.**

Cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkumların cərimə (intizam) təcridxanasında olduqları müddətdə, onların şəxsi əşyalarının qorunub saxlanılmasını təmin edir. Ərzaq məhsulları anbara təhvil verilir və məhkumlara tənbeh tədbirlərini çəkdikdən sonra qaytarılır. Müdiriyyət anbara təhvil verilmiş ərzaq məhsullarının qorunub saxlanılması üçün tədbirlər görür. Təbii səbəblərdən xarab olmuş ərzaq məhsulları məhkumun iştirakı ilə anbardan götürülür və bu barədə akt tərtib olunur. Bu akt böyük inspektor (rəisin növbətçi köməkçisi), cərimə (intizam) təcridxanası üzrə nəzarətçi və məhkum tərəfindən imzalanır. Götürülmüş ərzaq məhsulları məhv edilir. Məhkumların cərimə (intizam) təcridxanasına qəbulu böyük inspektorun (rəisin növbətçi köməkçisinin) rəhbərliyi altında nəzarətçilər tərəfindən həyata keçirilir və bu barədə jurnalda qeyd edilir. Cərimə (intizam) təcridxanasına keçirilərkən məhkumlar üzərində tam axtarış aparılır. Məhkumlara cərimə (intizam) təcridxanası üçün ayrılmış təmiz paltar verilir. Cərimə təcridxanalarına keçirilmiş məhkumlara görüşlər, telefon danışıqları verilmir, ərzaq məhsulları və ən zəruri mallar əldə etmək, bağlama, sovqat və ya banderol almaq, kinofilmlərə, radio və televiziya verilişlərinə baxmaq, stolüstü oyunlardan istifadə etmək qadağan edilir. Onlar hər gün bir saatdan az olmayan müddətə gəzinti hüququna malikdirlər. Bir təqvim ili ərzində cərimə təcridxanasında saxlanma müddəti altmış gündən çox ola bilməz.

**İntizam təcridxanalarına keçirilmiş məhkumlara uzunmüddətli görüş, telefon danışıqları, ərzaq məhsulları və ən zəruri mallar əldə etmək, bağlama, sovqat və ya banderol almaq, stolüstü oyunlardan istifadə etmək qadağan edilir.** Onlar hər gün iki saat gəzinti hüququna malikdirlər. Bir təqvim ili ərzində intizam təcridxanasında saxlanma müddəti otuz gündən çox ola bilməz. Bu şəxslər intizam təcridxanalarında saxlanıldıqları müddətdə təhsillərini davam etdirirlər. Cəzanın çəkilməsi qaydalarını qərəzli pozulduqda, ümumi və ciddi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan kişi məhkumlar kamera tipli otaqlara, xüsusi rejimli cəzaçəkmə müəssisələrində saxlanılan məhkumlar isə birnəfərlik kameralara keçirilə bilərlər.

**Rejim pozuntularının məcmusuna görə məhkum cərimə təcridxanasından kamera tipli otağa (birnəfərlik kameraya) keçirildikdə, onun konkret rejim pozuntusuna görə cərimə təcridxanasında saxlanılma müddəti kamera tipli otaqda (birnəfərlik kamerada) saxlanılma müddətinə hesablanmır.** Rejim pozuntusu ilə əlaqədar məhkum kamera tipli otağa (birnəfərlik kameraya) keçirilməzdən əvvəl, onun müvəqqəti olaraq cərimə təcridxanasında saxlanıldığı müddət isə kamera tipli otaqda (birnəfərlik kamerada) saxlanılma müddətinə hesablanır.

Cərimə (intizam) təcridxanasında saxlanılan məhkumlar sanitar təmizləmədən digər məhkumlardan ayrı keçirlər. Cərimə (intizam) təcridxanalarının kameraları, orada saxlanılan məhkumlar tərəfindən növbə ilə yığışdırılır.

Qaydalara görə, intizam təcridxanasında saxlanılan məhkumlara intizam təcridxanasına keçirilmədən başqa, digər tənbeh tədbirləri də tətbiq edilə bilər. Cərimə təcridxanalarında rejim pozuntusuna yol vermiş məhkumlara cəzaların icrası qanunvericiliyi ilə nəzərdə tutulmuş bütün tənbeh tədbirləri, o cümlədən bunun üçün əsas olduqda, cərimə təcridxanasına keçirmə təkrarən tətbiq edilə bilər. Bu hallarda tənbehin yeni müddəti əvvəlki tənbehin müddəti başa çatdıqdan sonra hesablanır. Cərimə təcridxanalarında özünə xəsarət yetirmə və özünü xəstəliyə vurma halları istisna olmaqla, müalicə müəssisələrinə və cəzaçəkmə müəssisələrinin tibb-sanitariya hissələrinə keçirilmiş məhkumların burada saxlanılma vaxtı verilən tənbehin çəkilmə müddətinə hesablanır.

Məhkumların cərimə (intizam) təcridxanasından vaxtından əvvəl azad edilməsinə, tibbi göstəricilərə görə bunu tələb edən hallar istisna olmaqla, yol verilmir. Cərimə (intizam) təcridxanasına keçirilmə növündə tənbehin müddəti başa çatdıqda, məhkum oradan dərhal azad edilir. Bu barədə jurnalda və qərarda qeyd edilir və həmin qərar məhkumun şəxsi işinə əlavə edilir.

**Məhkum cərimə (intizam) təcridxanasından böyük inspektorun (dəstə rəisinin, tərbiyəçinin, təlimatçının) iştirakı ilə azad edilir.**

❑ **SEVİNC**

# Toyu yasa çevirən karvan qəzaları niyə artır?



## Toy karvanlarına nəzarət toy mərasimlərinə məhdudiyyət qoyulması qədər aktuallıq qazanıb...

**Hazırda gəlinlərin müxtəlif markalı xarici maşınları seçmək imkanı olsa da, əvvəllər bu seçim şansı yox idi. Yüz illər bundan əvvəl qızlar ya at, ya dəvə belində, ya da faytonda gəlin köçərdilər. Hətta qonşuluğa yaxın yerə köçən gəlinlər bəy evinə ayaqla gedirdilər. Şəhər qızları isə adətən bəy evinə faytonda gedir, kənd qızları isə qeyd etdiyimiz kimi at belində, yaxud kəcavədə gəlin köçürdülər.**

Gəlini aparırkən faytonun, yaxud kəcavənin qarşısında "gəlin atlandı" havası çalınar, ona uyğun rəqs edilərdi. Zaman keçdikcə gəlinləri bəy evinə aparan faytonu maşınlar əvəzlədi. Bundan sonra hər dövrün tələbinə uyğun olaraq gəlini köçürmək üçün ən yaxşı maşın seçilməyə başladı. Əvvəlcə "Volqa", sonralar isə digər markalı maşınlardan gəlin köçürmək üçün istifadə olunmağa başladı.

XX əsrin 70-ci illərində qızların bir çoxu "Qaz-21" markalı maşına üstünlük versə də, zamanla zövqlər dəyişdi. Əvvəllər gəlinlə bəyi iki-üç maşın müşayiət edirdisə, sonralar maşınların sayı çoxaldı. Artıq bahalı xarici maşınlardan karvanlar yaranmağa başladı. Son vaxtlar toy karvanlarının törətdiyi qəzaların sayı isə durmadan artır. Bu xoş günün faciə ilə bitməsinə səbəb isə karvanı müşahidə edən maşınların sürət həddini aşması və yol hərəkəti qaydalarını pozmasıdır.

Bəzi toy karvanlarını görəndə adama elə gəlir ki, sanki mərasimin məqsədi gəlinlə bəyi şadlıq sarayına aparmaq deyil də, kim-kimi ötdü yarışıdır. Əslində isə məqsəd sadəcə, düyünün olduğu məkana çatmaqdır. Bir sözlə, rəsmi qurumlar toy karvanlarına ənəm çəkməyə hazırlaşmağından, sərsəm sürücülərsə camaatın toyunu yasa çevirməkdə davam edir. Son 3 ayda toy karvanındakı avtomobillərin iştirakı ilə 12 yol qəzası baş verib.

Toy karvanlarının bəziləri yol hərəkəti qaydalarına məhəl qoymur. Hətta bu qayda pozuntusu fonunda avtomobillərin nömrə nişanlarında xüsusi dəyişikliklər etməklə onları gizlətməyə çalışırlar. Yollarda qəza anları yaradır, ya da özləri qəzaya düşsələr də, nə yazıq ki, toy karvanlarının sürücüləri əməllərindən əl çəkmirlər. Nəticədə də ailənin şad günü kədərli günə çevrilir.

Bu mənzərənin az qala hər gün şahidi oluruq. Toy karvanında iştirak edən avtomobillər yolboyu səs siqnallarından lüzumsuz istifadə edir, yolun hərəkət zolaqlarını tutur, işıqforun qırmızı işığında dayanmadan hərəkət edir, üstəlik yolayrıcları necə gəldi, keçirlər.

Toy karvanında baş verən qəzaları nəzərə alaraq toylardakı israfçılığın qarşısını almaqla yanaşı, toy mərasimi qaydalarına da müəyyən məhdudiyyətlərin qoyulması zəruri hesab edilir. Ekspertlərə görə, Azərbaycanda, xüsusilə Bakıda toy karvanlarına nəzarət toy mərasimlərinə məhdudiyyət qoyulması qədər vacib və əhəmiyyətli məsələdir. Bəzi deputatlar da o qənaətdədir ki, toy mərasimlərinə məhdudiyyət qoyulduğu kimi, dəbdəbəli toy kortejləri də yığışdırılmalıdır.

Xatırladaq ki, son bir ay ərzində ən dəhşətli toy karvanı qəzası sentyabrın 29-da Göyçayda baş verib. Ağır qəzada 9 nəfər ölüb, 2 nəfər isə yaralanıb. Bir neçə gün öncə Baş Dövlət Yol Polisi İdarəsi toy karvanlarında necə hərəkət etməyi öyrədən animasiya hazırlayıb. Animasiyada toy karvanlarında hərəkət qaydaları izah olunur. Burada həm də Azərbaycandakı toy karvanlarında xarakterik qayda pozuntuları da əksini tapır və bunun təhlükəli tərəfləri izah olunur. Məsələn, işıqforun qırmızı işığında hərəkət, yolun hərəkət hissəsini nizamsız şəkildə zəbt etməklə və qarşı yola çıxmaqla digər avtomobillərə təhlükə yaratmaq kimi təhlükəli əməllər toy karvanlarında tez-tez rast gəlinən hallardır. Son vaxtlar toy karvanlarında baş vermiş qəzalarda bu amillərin də rolu az deyil.

**DYP bu filmdə həmin qayda pozuntularının hansı nəticələrə gətirib çıxara biləcəyini izah edir və sürücüləri bundan çəkinməyə çağırır. Bu filmdə DYP sürücülərin və toy sahiblərinin nəzərinə çatdırır ki, yollardakı sıxlığı və toy mərasimi yerinə qədər olan məsafəni nəzərə alaraq toy karvanında maşınların sayını 6-dan çox etməsinlər. Eyni zamanda karvanda olan avtomobillər mütəşəkkil şəkildə hərəkət edərkən yan-yana, dağınıq formada yox, yolun sağ hərəkət zolağı ilə bir cərgədə hərəkət etməlidir.**

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 260 (5969) 22 oktyabr 2014



## Narın qabığı içindən daha faydalıdır

**Çində son illərdə aparılan təcrübələr nəticəsində məlum olub ki, narın qabığı meyvəsindən və suyundan daha faydalıdır. Belə ki, nar qabığının tərkibində olan ellegik asit deyilən maddə qadınlarda sinə xərçənginin yaranmasının qarşısını alır.**

Təcrübələr nar qabığının xolestrolu aşağı saldığını, beta hüceyrələrini artıraraq diabetli xəstələrə, ürək-damar xəstəliklərindən əziyyət çəkənlərə çox yardımçı olduğunu deyir. Təcrübələr nəticəsində müəyyən edilib ki, narın qabığı sinə, yemək borusu, dəri, bağırsaq, prostat və pankreas xərçənginə qarşı daha xeyirlidir.

Nar qabığından xeyirli maddələri necə almaq olar? Bunun üçün nar qabıqlarını kölgədə qurutmaq lazımdır. Daha sonra qurumuş qabıqları xırdalayırıq. 100 qr qaynanmış suya, 2 qr nar qabığı ataraq 10 dəqiqə qaynatmaq lazımdır. Hazır olan mayeni çay kimi qəbul etmək olar. Qurudulmuş və parçalanmış hazır nar qabıqlarını qəhvəüyüdən dəyirmanda toz halına salıb hazırladığımız salatlarda və ya ağartı məhsullarında da istifadə edə bilərik. Duzdan istifadə etməkdənsə, üyüdülmüş nar qabığı yemək daha faydalıdır.

# İşçilərinə ev, maşın, brilyant hədiyyə edir



**Hindistanda almaz ticarəti ilə məşğul olan iş adamı işində yüksək nəticə göstərən işçilərinə son iki ildə 8 milyon dollarlıq zinət əşyası, maşın və ev hədiyyə edib. Türkiyənin "Sabah" qəzetinin xəbərinə görə, mərkəzi Gujarat əyalətində yerləşən "Hrişikeş" adlı firmanın sahibi Savji Dholakia, 2012-ci ildən bu günə qədər yüksək nəticə göstərən 1216 nəfər işçisindən 491-nə maşın, 525-ə zinyət əşyası və 200-ə ev hədiyyə edib. Dholakia işçilərinə göndərdiyi mesajda aşağıdakıları yazıb: "Bu şirkət sizin sayənizdə xeyir edir. İşçilərimiz xoşbəxtdirsə, biz də işimizdə irəliləyə bilərik".**

Şirkət işçilərindən Nareşbhai Maini isə deyib ki, keçən il rəhbərlik ona maşın, bu il də zinyət əşyası hədiyyə edib: "Keçən il ev və ya zinyət əşyası alanlara bu il maşın hədiyyə edilib. Mən də xoşbəxtliyimi sözlə ifadə edə bilmirəm".

7500 nəfər işçisi olan şirkətin ABŞ, Belçika və Çində ofisləri var.

# Qadınların ən böyük səhvləri bunlar imiş...

**İngilis alimlər müəyyənləşdirib ki, kişi-qadın münasibətlərində qadınların yol verdiyi bəzi səhvlər münasibətin ömrünü daha tez qısaldır. Bu səhvlərin başında onların özlərini ana kimi aparması və kişi ilə uşaq kimi rəftar etməsidir. Daha bir səhv isə onların özlərini sevdikləri şəxsə qurban verməsi, münasibət müddətində özlərini ondan sonra ikinci hesab etmələridir. Növbəti səhvlər isə aşağıdakılardır:**

* Qadınlar kişinin potensial imkanlarına aşiq olurlar.
* Qadınlar öz qabiliyyətlərini və üstünlüklərini gizlədirlər.
* Qadınlar könüllü olaraq, kişilərə tabe olurlar.
* Qadınlar kişidən istədiklərini əldə etmək üçün özlərini balaca qız uşağı kimi aparırlar.





## Ən çox yalanı menecerlər danışır

**Rusiyadakı kampaniyalardakı hər ikinci əməkdaş yalan danışmağa meyllidir. Onlar bunu peşə fəaliyyətləri zaman edirlər. Onların 4 faizi bunu daim edir, 29 faiz isə zaman-zaman yalan silahına əl atır. Daha çox ticarət sektorunda çalışanlar yalan danışırlar. Sorğu çərçivəsində 3439 nəfər kampaniya işçisinin rəyi soruşulub. Məlum olub ki, top menecerlər ən böyük yalançılar siyahısındadır. Onların 65 faizi mahir yalançıdır. Üçüncü yeri kampaniyadakı hüquqşünaslar tutub. Onların 63 faizi iş prosesində yalandan istifadə etdiklərini boyunlarına alıb. Hamıdan az kampaniyadakı cavan əməkdaşlar, həkimlər, mühasib və maliyyəçilər yalan danışmağa meyl edirlər.**

Rəyi soruşulanların 68 faizi iddia edir ki, onların yalanlarının üstü əsasən açılmır. Yalanın qurbanları isə daha çox kampaniya rəhbərliyi(53 faiz) və müştərilərlə həmkarlar (43 faiz) olur.




QOÇ - Astroloji göstəricilər ixtiyarınızda olan bu təqvimi rahat tərzdə başa vuracağınızdan xəbər verir. Şəxsi büdcənizdə müəyyən artımlar da mümkündür. Axşama yaxın qonaq getməyə dəyər.

BUĞA - Bu gün təmasda olduğunuz insanların qayğısına qalmağa çalışın. Onların problemlərinin öhdəsindən gələ bilərsinizsə, tələsin. Qoy bu addımınız Tanrı yanında savablarınızı artırsın.

ƏKİZLƏR - Pul məsələlərində kifayət qədər ehtiyatlı olun. Çünki göstərilən sahədə dələduzlarla rastlaşma ehtimalınız var. Kiməsə borc vermək və ya almaq fikrindən uzaq olun. Səfərə çıxmayın.

XƏRÇƏNG - Təxminən saat 16-ya qədər ümumi işlərinizdə gərginlik hökm sürəcək. Kənar təsirlərdən maksimum yayınmağa çalışın. Əks təqdirdə nəzərdə tutduğunuz ədalətli işlər pozulacaq.

ŞİR - Müxtəlif yeniliklərlə zəngin olan bu gözəl təqvim sizə sevinc gətirəcək. Hansısa xoşagəlməzlik və ya konflikt barədə isə düşünməyə dəyməz. Qərarlarınızda qəti olun. Riskdən qorxmayın.

QIZ - Qarşılıqlı anlaşma üçün olduqca əhəmiyyətli vaxtdır. İşgüzar sövdələşmələr aparmaq, müqavilələr bağlamaq istəyirsinizsə, boş dayanmayın. Yarımçıq işlərinizi yoluna qoyun.

TƏRƏZİ - Dünəndən mənfi yüklü Ay bürcünüzdə qərar tutduğundan daxili gərginliyiniz arta bilər. Lakin özünüzdə təpər tapıb mübahisələrdən yayınmalı, yalnız adi işlərin həlli ilə məşğul olmalısınız.

ƏQRƏB - Bəlkə də bu ayın ən uğurlu gününü yaşayacaqsınız. Ətrafınızda cərəyan edən bütün proseslər zövqünüzə uyğun olacaq. Hətta ağlınıza gətirmədiyiniz istiqamətdən təkliflər də ala bilərsiniz.

OXATAN - Bəxtinizdə həddindən ziyadə uğurlu təqvim durur. Ötən ongünlükdə icra edə bilmədiyiniz işlərinizi məhz bu gündən başlayaraq yoluna qoya bilərsiniz. Böyük dəstək alacağınız da mümkündür.

OĞLAQ - Ulduzların düzümü sevindirici xəbərlər eşidəcəyinizi bəyan edir. Ola bilsin ki, uzaqda yaşayan doğmalarınızla bağlı hansısa könülaçan hadisə baş versin. Odur ki, əlaqə saxlayın.

SUTÖKƏN - Fəaliyyət zəminində müsbət dönüşlərə hazır olun. Həmkar və rəhbərlərinizlə münasibətləri mülayimləşdirin. Nahar ərəfəsində hansısa sürprizin şahidi olacağınız da gözlənilir.

BALIQLAR - Qarşınızda duran gün daha çox şəxsi büdcənizin tənzimlənməsində əhəmiyyətli rol oynayacaq. Odur ki, ayın sonuna qədər maddi durumunuzu qənaətbəxş edəcək bu prosesə indidən başlamalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu qıza toxunmaq olmaz!



**Amerikada Melani adlı qız tibdə lchtyosis adlı dəri xəstəliyindən əziyyət çəkir. Onun dərisi o qədər incədir ki, hər hansı bir infeksiyaya qarşı hədsiz həssasdır. Doğuluşdan bu xəstəliyə tutulan Melaninin dünyaya gəldiyi gün də həkimlər şoka girmişdi. Neyçün ki, bu xəstəliklə dünyaya gələn uşağın dərisi normal uşaqlarınkından çox fərqlidir. Lchthyosis xəstəliyinə tutulan uşağın dərisi müəyyən zaman sonra quruyur, qabıq verir. Hətta ona toxunan adamların əlinin izi də bir müddət onun dərisindən çəkilmir. Həkimlər bu xəstəliyin dəqiq müalicəsi olmadığını deyirlər. Sadəcə müalicə prosesində dəri nəmləndirilməli, soyulmalıdır və vəziyyət nəzarət altında saxlanmalıdır. Bunun üçün də xüsusi krem və dərmanlardan istifadə edilməlidir.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.600

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.